*Vətəndaş Təşəbbüsləri Mərkəzinin nəşrləri*

*The edition of the Centre of Civil Initiatives*




*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası*

Vətəndaş Təşəbbüsləri Mərkəzi

# BALAXANI: DÜNƏN VƏ BU GÜN

"Adiloğlu" - 2012

- 17303 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2012

65.5(5 Azə)+63.3(5 Azə)-2
B22


**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası**

Vətəndaş Təşəbbüsləri Mərkəzi

***Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə Vətəndaş Təşəbbüsləri Mərkəzi tərəfindən həyata keçirilən " Balaxanı bələdiyyəsi ərazisində neft istehsalı təsirinə məruz qalan ailələrin maraqlarına dəstək" layihəsi çərçivəsində hazırlanaraq nəşr edilmişdir.***

**Layihənin əlaqələndiricisi:** Çingiz Gülalıyev
**Tərtib edənlər:** Çingiz Gülalıyev, Arzu Hacıyeva və Gülər Çingizqızı

**Balaxanı: dünən və bu gün**
**Bakı, "Adiloğlu" nəşriyyatı, 2012, 128 səh.**

Təqdim olunan bu kitab icmal xarakteri daşıyaraq Bakı şəhər Sabunçu rayonu Balaxanı qəsəbəsində qədim mədəniyyət abidələrinin qorunmasına, qəsəbənin davamlı inkişafına, əhalinin iqtisadi durumunun yaxşılaşdırılmasına vətəndaş cəmiyyətinin cəlb edilməsi məqsədilə həyata keçirilən layihə çərçivəsində informasiya xarakteri daşımaqla, əlaqədar təşkilatların diqqətinin mövcud problemlərə yönəldilməsi cəhdinə xidmət etmək məqsədilə yazılmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

4722110018
―――――― Qrifli nəşr
121-2012

© Vətəndaş Təşəbbüsləri Mərkəzi, 2012





**MÜNDƏRİCAT**

Ön söz ........ 4
Balaxanı qəsəbəsinin adı və onun mənası ........ 7
Coğrafi mövqe ........ 10
Qəsəbə əhalisi ........ 14
Qəsəbənin tarixi abidələri ........ 27
Mədəniyyət ........ 40
İqtisadiyyat ........ 47
Bələdiyyə ........ 55
Qəsəbənin ekoloji durumu ........ 64
Nəticə ........ 91
İstifadə olunmuş mənbələr ........ 94
Əlavələr ........ 96

## ÖN SÖZ

Araşdırılan kütləvi informasiya mənbələrdən məlumdur ki, Bakı şəhəri Sabunçu rayonu Balaxanı qəsəbəsi, Bakı kəndləri içərisində öz qədimliyi, sosial-iqtisadi, və tarixi-mədəni baxımdan digərlərindən fərqlənir. Məlumdur ki, Bakı və ətraf kəndlərin inkişaf tarixi xeyli Azərbaycan neftinin hasilat tarixi ilə əlaqədardır. Lakin tarixə nəzər saldıqda məlum olur ki, neft və ondan əldə edilən gəlirlər heç də həmişə Bakı kəndlərinin və bütünlükdə Azərbaycanın davamlı inkişafına səbəb olmamışdır. Rusiya və Sovet imperiyaları dövründə neft, demək olar ki, talanmış, ölkəyə bundan real fayda gəlməmişdir.

Nəhayət ki, müstəqillik qazandıqdan sonra Azərbaycan öz neftinin hasilatı və satışı sahəsində müstəqil qərar vermək imkanı əldə edib. Son illərdə ölkəyə irihəcmli neft pullarının axını başlayıb. Respublikamızda yüksək inkişaf tendensiyası göz qabağındadır. Əhalinin sosial-iqtisadi vəziyyəti günü-gündən yaxşılaşır. Amma buna baxmayaraq görülləsi işlər hələ də çoxdur. Buna misal olaraq, Balaxanı qəsəbəsində yaşayan əhalinin həyat səviyyəsinin, sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşması istiqamətdə görüləcək işləri qeyd etmək lazımdır. Çünki neftçıxarma ilə birbaşa təmasda olan Balaxanı qəsəbə sakinlərinin buna daha çox haqqı vardır.

Etiraf etmək lazımdır ki, ölkə başçısının 2006-cı ilin 26 fevralında "Bakı şəhəri qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair" "Tədbirlər Proqramı"na uyğun olaraq müəyyən işlər görülüb. Belə tədbirlər, xüsusi ilə neftçıxarma ərazisinə yaxın məskunlaşmış sakinlərin həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir etməlidir. Xatırlatmaq lazımdır ki, Balaxanıda hələ 19-cu əsrin axırlarından başlanan neft hasilatı kənd ərazisində və yaxın





ətrafda təkcə torpağın keyfiyyətinə və ətraf mühitin ekoloji vəziyyətinə mənfi təsir göstərməklə. Həmçinin ərazidə yaşayan insanların sosial həyatına da ciddi təsir göstərib. Neft hasilatının təsiri nəticəsində kənd ərazisində yaşayan insanların ənənəvi fəaliyyət sahələri dəyişmiş, həmçinin ciddi demoqrafik dəyişikliklər baş vermişdir.

Balaxanıda və ətraf ərazilərdə ekoloji tarazlığın pozulmazı nəticəsində bu ərazidə yaşayan insanların sağlamlığına da ciddi təsirlər olub və olmaqdadır. Neft hasilatının artması və ərazilərin çirklənməsi əhalinin varlı təbəqəsinin bu ərazilərdən uzaqlaşmasına və çirklənmiş sahələrdə daha imkansız təbəqələrin yaşamaqda davam etməsinə və ya məskunlaşmasına səbəb olub. Sovet hakimiyyətinin dağılması nəticəsində ərazidə səhiyyə xidmətinin də xeyli zəifləməsi faktını nəzərə alsaq, Balaxanı qəsəbə əhalisinin sosial vəziyyətinin indiki səviyyəsini təsəvvür etmək çətin deyil. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə Vətəndaş Təşəbbüsləri Mərkəzi tərəfindən həyata keçirilən " Balaxanı bələdiyyəsi ərazisində neft istehsalı təsirinə məruz qalan ailələrin maraqlarına dəstək" layihəsi çərçivəsində Balaxanı qəsəbə bələdiyyəsi, icra nümayəndəsi və sakinlərlə aparılan birgə görüşlər mövcud problemlərin düzgün araşdırılmasını, təhlil edilməsini, aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini və əlaqədar təşkilatlarla əməkdaşlığın qurulması vacibliyi baxımından təqdim edilən bu kitabın yəqin ki, bir əhəmiyyəti olar.

Kitabın ərsəyə gəlməsində göstərdikləri köməkliyə görə Balaxanı qəsəbə icra nümayəndəliyinə (Fərhad Qurbanov), Bələdiyyəsinə (sədr Novruzov Malik, üzvlər Hüseyinov Əkbər, Vəliyev Əlihəsən, Yaminov Yusif), M.Ə.Sabir adına Balaxanı qəsəbə Mədəniyyət evinin işçilərinə (Səyyarə Əliyeva, Akif Əzimov), Balaxanı qəsəbə idman mərkəzinin müdiri Müşfiq

Hüseynova, "Təmiz şəhər" ASC İdarə heyətinin sədr müavini Etibar Abbasova və kənd sakinlərinə Vətəndaş Təşəbbüsləri Mərkəzi layihə iştirakçıları adından dərin təşəkkürümüzü bildiririk.





## BALAXANI QƏSƏBƏSİNİN ADI VƏ ONUN MƏNASI

Bakı, onun nefti, "yanan torpaq"ı hələ qədimdən onun hüdudlarından kənarda da məşhur idi. Orta əsrlər Bakısı ilə bağlı yazılı mənbələrdə onun ətrafındakı "yanan ataş"dən danışılır. Bu barədə ilk söz açanlardan biri bizanslı Paniyli Priskdir. V əsrin əvvəllərində Qafqaz Albaniyasının şəhərini təsvir edərkən, o, "sualtı qayadan qalxan od"dan söz açır. Ərəb tarixçisi əl-Balazuri həmçinin 754-cü ildə Şirvanın neftindən və duzundan danışır. IX əsrdən etibarən bölgədə islam dininin yayılması ilə bağlı Bakı ərəb coğrafiyaçılarının və tarixçilərinin yazılı mənbələrində kiçik, amma inkişaf etmiş feodal şəhəri kimi xatırlanır. Hər dəfə də qeyd olunur ki, Bakıda ağ və tünd-boz neft mənbələri var. Neft üçün bütün Yaxın Şərq ölkələrindən bura karvanlar gəlirdi. Bakıya slavyan, xəzər, Bizans, Çin, İraq, Suriya, Keniya, Venesiya, İran və Hindistan tacirləri səfər edirdilər. Ticarət yollarının kəsişməsində yerləşən Bakı daim bölgədəki maraqları uğrunda mübarizə aparan yadelli işğalçıların diqqət mərkəzində olub. Bu da əsasən ondan irəli gəlirdi ki, ölkənin inkişafında neft hasilatı mühüm əhəmiyyət kəsb edirdi.

XIX əsrin ikinci yarısında Azərbaycanın iqtisadiyyatın inkişafı keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoydu və Bakı öz sosial-iqtisadi göstəricilərinə görə digər şəhərlər arasında birinci yerə keçdi. Daxiliyanma mühərrikinin ixtirasından sonra dünya iqtisadiyyatının, həmçinin Rusiya iqtisadiyyatının neftə ehtiyacı xeyli artmışdı. Bakı Rusiya sənayesinin inkişafına cəlb olunmuşdu. Neft quyularına nəzarət edən çar hökuməti ilkin dövrlərdə onları müəyyən müddətə ayrı-ayrı şəxslərə icarəyə verirdi. Amma artıq 60-cı illərdə məlum oldu ki, neft yataqlarının icarə sistemi keçmişin yarasız

qalıqlarından biridir və bu sənaye sahəsinin inkişafı üçün neft işinin təşkilinə ehtiyac var. 1872-ci ildə yeni qaydalar təsdiq olundu. Bu qaydalara əsasən, dövlətin icarə hesabında olan neft mənbələri hərracdan fərdi şəxslərə ötürüldü. İcarə sisteminin ləğvi bütün neft işində həlledici dönüş yaratdı. Bu neft ehtirası yalnız Klondaikdəki qızıl ehtirası ilə müqayisə edilə bilər. Bakıdakı neft yataqlarının qızğın istismarı başladı və əcnəbi neft şirkətlərinin kapital axını təmin olundu. Azərbaycanda belə yerlərdən biri də Balaxanı kəndi idi.

Statistik məlumatlara görə, Maştağadan sonra Bakının ikinci böyük kəndi Balaxanıdır və Sabunçu rayonu inzibati ərazi tabeçiliyindədir. Qeyd etmək lazımdır ki, Sabunçu rayonu "11 noyabr 1920-ci il tarixində Balaxanı-Sabunçu rayonu adı ilə yaradılmış, 12 noyabr 1930-cu ildə adı dəyişdirilərək Lenin rayonu, 26 noyabr 1991-ci ildə isə yenidən rayonun adı dəyişdirilərək Sabunçu rayonu adlandırılmışdır. Rayon 10 qəsəbədən ibarətdir. Kənd demək olar ki, bu günə qədər özünün ənənəvi plan-forma quruluşunu saxlaya bilib. Evlər bir-birinə yaxın, ensiz küçələr, ənənəvi həyətyanı sahələri, mövcud məhəllə sistemi ilə seçilir. Qədim zamanlarda karvansaraların giriş qapısı üstündə olan kiçik otağa (Mezonin, yaxud antrolos) "Balaxanı" deyirdilər. Bunlar yarım mərtəbə şəklində olardı. Hazırda belə otaqlar Bakının 40 kilometrliyində, 1439-1440-cı illərdə tikilmiş Səngəçal karvansaranın və Suraxanıdakı 1713-cü ildə inşa edilmiş Atəşgahın qapısı üstündə var. Heç də təsadüfi deyildir ki, Zərdüşt peyğəmbərin "Avesta" kitabının da məhz bu ərazilərdə yazıldığı haqqında məlumatlar verilir.

Balaxanı kəndinin adı və tarixi haqqında müxtəlif fikirlər olub. Balaxanı adı farsca "kiçik kənd" deməkdir. Digər fərziyyələrə görə bu ad həmçinin "bəla məskəni" kimi də yozulur. Belə ki, bu kəndin ərazisi yarandığı gündən odlu-alovlu olmuş, sakinlərə böyük bəlalar gətirmişdir. Bu səbəbdən də adını Balaxanı qoymuşlar, yəni "bəlalı məkan ". Digər





fərziyyəyə görə, vaxtı ilə Balaxanı kəndinin əhalisi tat dilində danışdıqlarına görə bəzi tədqiqatçılar, "Balaxanı" toponiminin "bala" və "xana" sözlərindən əmələ gəldiyini iddia edirlər. Bu isə tərcümədə "yuxarı ev" deməkdir. Araşdırılan mənbələr göstərir ki, həqiqətən vaxtı ilə Balaxanıda bütün binaların üstündə yay istirahət evləri külafirəngilər tikilərdi. Daha bir xalq etimologiyasına görə, isə Balaxanı kəndinin əsasını qədim dövrlərdə Bəli adlı bir xan qoymuş, bu kənd məhz onun şərəfinə belə adlandırılmışdır. Belə nəql edirlər ki, Bəli xan daha bir kənd bina etdirərək onu arvadı Fatmanın şərəfinə Fatmayı qoymuşdur. Lakin başqa mənbələrdə Balaxanı bir toponim kimi "bala" (yəni- "yuxarı"- "üst") və "Xanə" gözlər ilə əlaqələndirilir. Amma kənd sakinlərinin dediyinə görə, qədimdə burada əksər evlərdə "balkon"lar (eyvan) olardı. Balaxanı sözünün bir mənası da kənd sakinlərinin "balkon" dediyi bu eyvandan götürüldüyü bildirilir.

Azərbaycan torpaqlarını işğal edən yadellilər daima bizim maddi və mədəni sərvətlərimizi talan etmiş, tariximizi saxtalaşdırmağa çalışmışlar. Lakin min illər keçsə də tariximizin ilkin qaynaqları üzə çıxmaqdadır. Abşeronun və Bakı kəndlərinin ən qədim ilkin adları məhz Balaxanı kəndinin danışıq dillində açılır. Kəndin və onun əsas əhalisinin qədimliyini və danışıq dilini təhrif edənlər onları İran dilli gəlmə tayfa, yəni "tat" adlandırmışdır.

Balaxanı ən qədim yaşayış məskənlərindən biri olmuş, onun əhalisi isə daim öz danışıq dilini qoruyub saxlamışdır. Birinci minilliyin ortalarına qədər indiki Azərbaycan ərazisində mövcud olmuş Albaniya dövlətinin 26 dildə danışan tayfalarından birinin dili olan Balaxanı dili isə ilk Aran dillərindən olmuşdur. Bütün dünya alimlərinin illərlə araşdırıb aça bilmədiyi söz və birləşmələr bu dildə asanlıqla açılır. Oda sitayiş dövründə atəşpərəstlər dünyanın hər yerindən "Yanar dağın" ziyarətinə gəlmişlər və bu ərazilər müqəddəs ziyarətgah

kimi dillər əzbəri olmuşdur. Balaxanı istedadlı insanların, öz tayfasını, yurdunu sevən mərdlərin məkanı olmuşdur. Kəndin ziyalıları, qədim abidələr, tarixi məlumatlar, xarici səyyahların, coğrafiyaşünasların, tarixçilərin əlyazmaları, müxtəlif xəritələr bunu təsdiq edir.



*Müasir Balaxanı qəsəbəsi*

## COĞRAFİ MÖVQE

Tarixi mənbələr sübut edir ki, Bakı-Abşeron yarımadası ən qədim insanların məskunlaşdığı ərazilərdəndir. "Yanar dağı", vulkan mənbəyi, "Qırməki dağı", ilk insan yaşayış məskənlərindən biri olan "Balaxanı dağı" (nədənsə sonralar onu





Bakıda qırğınlar salmış, yüzlərlə insanı qırmış Stepan Razinin adı ilə bağlamışlar) və dünya şöhrətli 4 növ neftlə zəngin olan Balaxanı qəsəbəsi milli-mənəvi, tarixi və iqtisadi sərvətimizdir. Qəsəbə Bakının şimal-qərbində, Abşeron yarımadasının ortasında yerləşir. Sabunçu qəsəbəsi, Ramana kəndi, Dilgah Məhəmmədli kəndləri ilə qonşudur. Şimal səmtindəki yüksəklikdə kəndi iki- "Yuxarı" və "Aşağı"- məhəlləyə bölən qədim qəbiristanlıq da var. Balaxanın şimal hissəsi "Rzaqulu kəndi", cənub hissəsi əhali tərəfindən "Canhüseyn məhəlləsi" adlanır. Əhalisi 13042 nəfər ( 2011-ci il qeydiyyatına görə), ərazisi isə 19 kv. km-dir. Erməni qəsbkarların vəhşilikləri səbəbindən öz doğma yurdlarını tərk etmiş və qəsəbəyə pənah gətirən məcburi köçkünlərin sayı 1405 nəfərdir. Balaxanı qəsəbəsində mövcud tikililərin sayı 8157, 20 küçəsi, II-ci, III-cü və VI-çı mədən evləri yerləşir. Balaxanı qəsəbəsinin "Yeni Yaşayış" massivində 6 küçə vardır. Qəsəbədə 5 seçki məntəqəsi yerləşir.

"Bakını küləkli səhər adlandıran" səyyahlar bu tarixi şəhərin qədim mədəniyyət abidələrindən də heyranlıqla yazıblar. Abşeronun hər qarış torpağı, yeraltı və yerüstü sərvətləri Azərbaycan tarixinin şanlı səhifəsi və milyon illərin nişanəsidir. Onu da qeyd edək ki, Abşeron kəndlərinin qədim və zəngin adət-ənənələri, inam və etiqadları , həmçinin maraqlı və qədim abidələri onun tarixən zəngin mənəvi və maddi mədəniyyətə malik olduğundan xəbər verir.

Bakı kəndlərinin içərisində Balaxanı tarixən tutduğu coğrafi mövqeyinə və qədimliyinə görə seçilir. Məlum faktdır ki, dünya neftinin ilk beşiyindən biri məhz Balaxanı qəsəbəsidir.

27 saylı Sabunçu II Seçki Dairəsinin 10 və 11 saylı seçki məntəqəsinin sxemi



Ünvan: Sabunçu rayonu,Balaxanı qəsəbəsi Sələvilər küç 3



Hazırda Balaxanı Bakının Sabunçu rayonunda şəhər tipli qəsəbədir. 1989-cu ildən başlayaraq, qəsəbənin qərb hissəsində Yeni Balaxanı adlanan yaşayış massivi formalaşmağa başlamışdır. Yeni Balaxanı massivi (Fazenda) Qədim Balaxanıdan fərqli olaraq, eni 10-15 metr olan paralel küçələr şəklində salınmışdır.

Balaxanı qəsəbəsinin yerləşdiyi ərazilərin iqlim xüsusiyyətləri quraq subtropik iqlim ilə xarakterizə olunur və il boyu burada nisbətən yüksək temperaturlar qeydə alınır. Orta illik temperaturu $+14^0C$, yanvarda orta aylıq temperatur $3,9^0C$ və iyulda $25,7^0C$ təşkil edir. Maksimal temperaturlar ($37\text{-}42^0C$) avqust, minimal temperaturlar (mənfi $8\text{-}12^0C$) isə yanvar aylarında müşahidə olunur. Havasının rütubətliliyi əsasən atmosferdə baş verən sirkulyasiya proseslərindən birbaşa asılıdır. Belə ki, qış aylarında yarımadaya soyuq və nisbətən yüksək rütubətli hava kütlələri daxil olur və nəticədə havanın rütubətliyi 71-80% təşkil edir. Yay mövsümündə isə, əksinə olaraq, yarımadanın ərazisinə isti və quru hava kütlələri daxil olur və bu zaman havanın rütubətliyi 46-66%-ə qədər aşağı düşür. Yay mövsümü ilə müqayisədə yazda və payızda rütubətlik nisbətən yüksələrək, 60-75% təşkil edir. Orta illik rütubətlilik isə 62-70% təşkil edir. Burada atmosfer yağıntıları əsasən soyuq hava kütlələri daxil olduqda baş verir və onların orta illik miqdarı 250 mm təşkil edir. Yağıntıların maksimumu (60-70%) ilin soyuq mövsümünə düşür və onların miqdarı 144 mm təşkil edir. ilin isti mövsümündə isə bu göstərici azalaraq 106mm olur. İl ərzində yağıntıların maksimumu noyabr (43mm) və aprel (29 mm) aylarında müşahidə olunur, minimumu isə iyul – avqust aylarında (5-6mm) qeydə alınır. Qəsəbədə havasının temperaturu nisbətən yüksək olduğundan (yanvar $+3,9^0C$, iyul $+25,7^0C$) atmosfer yağıntıları əsasən maye halında (yağış) baş verir. Məlum olduğu kimi Atmosferdə gedən proseslərə və ətraf mühitə güclü təsir göstərən iqlim amillərindən biri də küləklərdir.

Qəsəbədə il ərzində əsasən şimal küləkləri (38%) üstünlük təşkil edir, cənub və şimali-qərb küləklərinin təkrarlanması nisbətən azdır və müvafiq olaraq 19% və 17% təşkil edir. Digər istiqamətli küləklərin təkrarlanması daha azdır (2-8%). İlin soyuq mövsümündə (oktyabr-mart) şimal küləklərinin təkrarlanması 35%, şimali-qərb küləklərinin –20% və cənub küləklərinin isə-21% təşkil edir. İsti mövsümdə isə ancaq şimal küləklərinin təkrarlanması bir qədər çoxalaraq 42% təşkil edir, digər istiqamətli küləklərin göstəriciləri əsasən dəyişməz olaraq qalır.

## QƏSƏBƏ ƏHALİSİ

Neft istehsalından əvvəl, təxminən XIX əsrin ortalarınadək Balaxanıda kənd əhalisinin əsas məşğuliyyəti ənənəvi olaraq bağçılıq, bostan bitkiləri əkini və maldarlıq olub. Kəndin kənarında üzümlüklərdə məşhur üzüm növləri becərilirmiş. Kənddən təxminən 1 km şimalda 4 böyük bağ olub ki, onları suvarmaq üçün 15 quyu qazılıbmış. "Qırməki" adlanan yerdən keyfiyyətli qır çıxarılarmış və onunla kənddəki evlərin damları qırlanarmış.

XIX əsrin 70-ci illərindən başlayaraq, Balaxanı Bakının əsas neft çıxarma mərkəzlərindən birinə çevrilməyə başlamışdır. Kəndin yaşlı sakini geniş dünyagörüşlü Hacı Ruşanovun dediyinə görə, ilk neft quyusu XV əsrin əvvəllərində Allahyar Hurməmməd oğlu tərəfindən qazdırılıb. 1594-cü ildə Balaxanı kənd sakini Allahyar Məmməd Nuri öz həyatında əl ilə dərinliyi





2 metr olan quyu qazmış və bu quyudan neft çıxmışdır. 1825-ci ildə Balaxanıda əl quyularından neft çıxarılırdı. 1869-cu ildə Balaxanıda ilk dəfə olaraq mexaniki (maşınla) vurma üsullu quyu qazılır. Bu quyu qazılarkən 64 metrlikdən qaz fontan vurmuşdur. Quyudan neft çox sürətlə çıxmış və üç gün ərzində həmin quyu ətrafı neft gölünə döndərmişdir. Bundan dəhşətə gələn yerli kapitalist Mirzəyev qardaşları quyunu bağlatmışdılar. Sonra 1871-ci ilin iyun ayında yenə də Balaxanıda Mirzəyev qardaşlarının keçmiş neft firması tərəfindən mexaniki üsulla ilk neft quyusu qazılmış , 45 metrə çatan kimi quyudan gündə 700 pud neft verməyə başlamışdır. Əvvəllər həmin quyudan gündə 700 pud sonralar isə 2000 pud neft çıxarılmışdır.

1873-1878-ci illərdə Balaxanıda 47 belə güclü neft quyusu qazılıb. Bu dövrdə xarici şirkətlər Balaxanıda çoxlu torpaqlar əldə ediblər, Nobel qardaşları, Rotşild, Rokfeller kimi milyonçular, rus kapitalistləri mədənlər salıblar. Robert Nobel 1873-cü ildə Bakıya gələrək Balaxanıda neft istehsalı ilə məşğul olmağa başlamışdır. Artıq XX əsrin əvvəllərində Balaxanıda onlarca yerli və xarici neft şirkətləri və onların mədənləri, karxanaları fəaliyyət göstərirdi.

Balaxanıda ilk neft quyusunun şərəfinə abidə qoyulub. Lakin hazırda bu abidədən iz qalmayıb.

Azərbaycanın ilk dəmir yolu Bakını Balaxanı, Sabunçu və Suraxanı mədənləri ilə birləşdirirdi. Əvvəllər bu yol ilə yalnız neft məhsullarının daşınması nəzərdə tutulmuşdur. Lakin neft mədənləri ilə Qara şəhərdəki neftayırma zavodları arasında neft kəmərlərinin geniş şəbəkəsi yaradıldıqdan sonra "Neft sahəsi" dəmir yolu xətləri ilə sərnişin daşınmasına da başlanmışdır.

XX əsrin əvvəlində Bakıda sol (bolşevizm) təmayüllü inqilabi hərəkat genişlənəndə Balaxanı neft mədənləri bu hərəkatın mərkəzinə çevrilib. Balaxanıda inqilabi hərəkata başlayanlardan biri də keçmiş SSRİ-nin rəhbəri İosif Stalin olib. Stalin Balaxanıda inqilabi iş aparanda onun partiya ləqəbi

"Koba" olub. Mühacirətdə yaşamış Azərbaycan yazıçısı Əsəd bəy "Stalin" adlı kitabında onun Balaxanıdakı fəaliyyətindən geniş bəhs edir. Elə inqilabi mövzuda çəkilmiş "Səhər" filmi də Balaxanıda lentə alınıb.




Hələ orta əsr tarixçilərinin əsərlərində "Nafta" adı ilə xatırlanan yanar maye, Abşeron torpağının, Azərbaycanının adını dünyaya tanıtmışdır. Dünya neftin beşiyi "Neft Akademiyası" kimi tanınan Abşeron yarımadası eləcə də Balaxanı qəsəbəsi öz sürətli inkişafına görə neftə borcludur. Nədənsə, Sovet hakimiyyəti illərində, hətta 1951-63-cü illərdə belə bir iri sənaye əhəmiyyətli kənd Azərbaycan xəritələrindən çıxarılmışdır (Bunu həmin illərin xəritələri təsdiq edir). Sonralar bu, aradan qaldırılmış, xəritələrə salınmışdır.





Balaxanı kəndi böyük şəxsiyyətlər yetişdirib. Bəstəkar Cahangir Cahangirov, sabiq milli təhlükəsizlik naziri İlhüseyn Hüseynov, Milli Məclisin sədri Elmira Qafarova bu kəndin yetirmələridir. Hazırda kəndin küçələrindən biri və 4 saylı məktəb C.Cahangirovun adını daşıyır.



***İlhüseyn Pirhüseyn oğlu Hüseynov Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri sentyabr, 1991-ci il - may, 1992-ci il***

Görkəmli bəstəkar C.Cahangirovun 1940-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının xor qrupuna, sazçı qızlar ansamblına, 1944–1960 illərdə Azərbaycan Radio Verilişləri Komitəsi nəzdindəki xora rəhbərlik edib.

İstedadlı dirijor və xormeyster Cahangir Cahangirov bütün ömrünü musiqiyə həsr etmiş insanlardandır. Sənətkarın Azərbaycan kütləvi və lirik mahnı janrının, eləcə də opera və instrumental musiqisinin inkişafında böyük xidmətləri var. Son nəfəsinədək sevib-seçdiyi sənətə sadiq qalan bu dahi bəstəkarın Azərbaycan musiqi mədəniyyətinə verdiyi töhfələrdən hər kəs xəbərdardır. Uzun illərdən sonra yazdığı məşhur "Ana" əsərini öz doğma anasına, "Sabir" kantatasını isə atasına həsr edib. Onun xor sahəsindəki yaradıcılığı əsası Üzeyir Hacıbəyli

17303
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

tərəfindən qoyulmuş Azərbaycan xor sənətində zirvə sayılır.



***Xalq artisti, bəstəkar Cahangir Cahangirov çıxış edərkən***



Çoxşaxəli yaradıcılığa malik sənətkar, həmçinin Azərbaycan Dövlət Filarmoniyası nəzdindəki Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olub. Azərbaycan musiqi tarixində ilk dəfə xor üçün muğam məhz C.Cahangirov tərəfindən yazılıb. Sözün, qəzəlin qədrini bilən sənətkarı dahi Üzeyir Hacıbəylidən sonra Məhəmməd Füzulinin bəstəkar qardaşı adlandırmaq olar. Onun ölməz əsərləiindi də sevilə-sevilə oxunur və bundan sonra da belə olacaq.

***Azərbaycan SSR Əməkdar İncəsənət xadimi, mahir kamançaçalan və bəstəkar Qılman Salahov***





Balaxanılı Elmira Qafarova - sovet partiya, dövlət və Azərbaycan Respublikasının dövlət xadimi olub. E.Qafarova dəfələrlə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvi



***Elmira Qafarova çıxış edərkən***

olan E.Qafarova Azərbaycan Kommunist Partiyasının XXXI qurultayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin büro üzvü seçilmişdir. E.Qafarova SSRİ-nin bir sıra orden və medalları, o cümlədən iki dəfə "Qırmızı əmək bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir. Balaxanı qəsəbəsində onlarca Azərbaycanın görkəmli ziyalıları, elm, mədəniyyət, incəsənət, əmək adamları, idmançılar və s. görkəmli adamları olub və indi də•var.
Hazırda Balaxanı qəsəbəsində görüşdüyümüz sakinlərin dediyinə görə milyonçular kəndinin var-dövlətindən əsər-əlamət

qalmayıb. Sakinlər söyləyir ki, ötən əsrin əvvəllərində balaxanılıları bahalı geyimindən, məclislərə qızıl-zinət içində gəlməsindən tanımaq olurdu. "Yeni Müsavat" ictimai-siyasi qəzetin 15.03.2010 [7:8] sayında Fərahim İlqaroğlu və Emil Salamoğlunun "Dünyanın yeddi neft maqnatından birinin kəndi-Balaxanı" yazısı maraqlı faktlarla bağlı olduğu üçün həmin yazıdan bəzi fraqmentləri diqqətinizə olduğu kimi təqdim edirik: - Balaxanı qəbiristanlığında dünyadakı 7-ci neft maqnatlarından biri olan Kampan Qədimov uyuyur. Biz orada neft maqnatının adına layiq dəbdəbəli bir qəbir daşı görəcəyimizi gözləyirdik. Amma kənd axundu kiçik və sadə qəbir daşını göstərir: "Bu, neft maqnatı Kampanın qəbridir". Neft milyonçusunun qəbir daşının üstündə ərəb və ingiliscə "Mer Qanpan Kadimof" yazılmışdı. K.Qədimovun evi kəndin mərkəzində hələ də



*Məşədi Kampan (Əlbaxış) Qədimov*





qorunur. Onu da deyək ki, 21 otaqdan ibarət bu evdə milyonçu neftxudanın nəticəsi Kampan Qədimov yaşayır. Məşədi Kampanın nəticəsi ilə ulu babası haqda söhbətləşirik: "Ulu babamın əsl adı Əlibaxış olub. Nobel qardaşları kimi digər neft milyonçuları özlərinə kompaniya yaratmaq istəyiblər. Bu məqsədlə qruplarına daxil etmək üçün özlərinə yeddinci neft maqnatı axtarıblar. İngilislər Bakı kəndlərində tez-tez olublarmış. Yəqin ulu babamın neft maqnatları ilə tanışlığı Balaxanıda olub. Sonda Məşədi Kampan yeddinci neft maqnatı qrupuna daxil olub". K.Qədimov səxavətli, əliaçıq və təvazökar insan olub. Nəticəsi onun xeyriyyəçiliyindən bəhs edir: "Gəlib deyirlərmiş ki, Məşədi Kampan, bir dənə məktəb tikmək lazımdır. O da "nə qədər pul lazımdır" soruşanda əgər 100 min manat istəyirdilərsə, çıxarıb bir milyon verirmiş. Yəni gedin, lap on məktəb tikin. Sonra da deyirmiş ki. amma bu pulu mənim verməyim heç vaxt bilinməsin və adım heç yerdə hallanmasın. Qış aylarında kənddəki kasıblara yardım etmək üçün nə lazımdırsa bir kisəyə yığılmasını tapşırarmış. Sonra o kisələri aparıb kasıbların qapısı ağzına qoyurmuşlar". Sovet hakimiyyəti dövründə milyonçulara qarşı aparılan repressiya Məşədi Kampandan yan keçib. O dövrün hakimiyyəti Məşədi Kampana kasıblara yardım etdiyinə görə dəyməyib. Nəticəsi Məşədi Kampanın ölümündən sonra mal-mülkünün müsadirə olunduğunu deyir: "1928-ci ildə rəhmətə gedib. Sovet hökuməti 21 otaqdan ibarət evi əlimizdən



***Kampan (Əlbaxış) Qədimovun nəticəsi Kampan Qədimov***

aldı. Nənəm danışırdı ki, evimizdən qızıl-zinət əşyalarını aparmaq üçün hər gün dörd böyük yük maşını gəlirdi. Sovet hökumətinin yağmalama prosesi 1961-ci ilə kimi davam etdi. Çarpışıb-vuruşaraq dədə-baba evimizi geri qaytara bildik".

***Nərimanovun tamada olduğu bolşevik toyunda menşevik mahnısı***

K.Qədimov milyonçu babasından qalma misli görünməmiş divar saatını göstərib onu Avropadan aldığını bildirir: "Saatın kəfkiri 27 kiloluq qızıldan olub. Nənəm deyirdi ki, biz gizlənqaç oyunu oynayarkən saatın kəfkirinin arxasında gizlənərdik. Qızıl-brilyanta isə adi metal və şüşə kimi baxırmışlar".

Məşədi Kampanın bir kəndli ilə dillər əzbəri olan söhbəti hələ də unudulmayıb. Bir kəndli Məşədi Kampana yaxınlaşıb "sovet gəlir" deyir. Məşədi Kampan əlindəki şir başlı əsanı göstərir: "İndi əsanın lap başındayam, kəndli ortasında, sovet hökuməti isə aşağıda - torpağa dəyən hissədədir. Sovet hökuməti gəlirsə, əsa tərsinə çevriləcək. Onlar əsanın yuxarısında, mən isə aşağısında olacağam. Yəni sənin yerin dəyişməz qalacaq". Milyonçunun nəticəsi maraqlı bir əhvalatı danışır: "Məşədi Kampanı Bakı kəndlərinin birinə toya dəvət edirlər. Toyda iştirak edənlərin əksəriyyəti bolşeviklər olub. Məclisin tamadası Nəriman Nərimanov, oxuyan isə xanəndə Cabbar Qaryağdıoğlu olub. Toyda mahnı sifarişi növbəsi Məşədi Kampana çatır. Nəriman Nərimanov Kampandan hansı mahnının istədiyini soruşur. Məşədi Kampan bir menşevik mahnısı istəyir. Aləm dəyir bir-birinə. Nərimanov Məşədi Kampanın sözünü yerə sala bilmir. Həmçinin yaxşı başa düşür ki, bolşevik toyunda menşevik mahnısının çalınması yuxarıların qəzəbinə səbəb olacaq. Ancaq Kampanın "zakazı" oxunur. Nərimanov vəziyyətdən çıxmaq üçün "camaat, menşevik mahnısını eşitdinizmi" deyə soruşanda hamı bir ağızdan "yox" deyib".

***Xeyriyyəçi milyonerə xoşbəxt ölüm bəxşişi***





Məşədi Kampanın ölümü də müəmmalı və heyrətamiz olub. Evdə yeyib-içən milyonçu anasına "gedin, molla Məmmədağanı çağırın, gəlsin başımın üstündə Quran oxusun, iki saatdan sonra öləcəyəm" deyir. Köməkçisi təəccüb içində olsa da ağanın sözündən çıxmır. Molla Quranı oxuyur və Məşədi Kampan gözlərini yumur. Hamı onun yatdığını zənn edərək otaqdan çıxıb. Amma 5-6 saatdan sonra yuxudan oyanmadığını gördükdə öldüyünü anlayıblar. Bu vaxt əsl möcüzə baş verib. Ay görünüb, onun işığı isə yalnız Məşədi Kampanın üzünə düşüb.

1937-ci il repressiyalarında bu kənddən yan keçməyib. Əski Müsavat Partiyasının Balaxanı-Sabunçu özəyinin sədri Balasadıq Zeynallı bu kənddə yaşayıb. O, bolşevik işğalına qarşı müqavimət göstərdiyinə görə Solovki konslagerinə sürgün edilib, sonra həbsdən qaçaraq Balaxanıya qayıdıb və gizli fəaliyyət göstəribmiş. Ancaq türmədən qaçan bu cəsur insan 1937-ci il repressiyalarından qaça bilməyib.

1910- cu ildə Balaxanıda qızlar məktəbi olub. Onun direktoru "Nəşr maarif cəmiyyəti"nin təklifi ilə İqlimə xanım Heydərova idi. Qız məktəbi əvvəlcə Əlimuxtar kişinin, sonra Məkan kişinin, daha sonra isə Rəmin kişinin evində yerləşdirilmişdir. Öz dövrünün qabaqcıl kadrlarından olan Əmrulla və Nəsirəli məktəbin saxlanmasına hamilik etmişlər. Sonra Məsumə xanım, Bəhriyyə və Səriyyə Qafarovalar, Nuriyyə Quliyeva, Əminə Babayeva, Xədicə Hüseynova, Firuzə Kərimova və başqaları Balaxanıda savadsızlığın ləğvi üçün çox zəhmət çəkmişlər. Hacı Zeynalabdin Tağıyevin qız məktəbini bitirmiş Dilbər Məmmədovanın əməyi isə bənzərsiz olub.




İnternetdə Balaxanlının görkəmli şəxslərinə aid material axtararkən rastımıza çıxan bu http://www.gender-az.org/index_az.shtml?id_doc=520 (Azərbaycan Qender İnformasiya Mərkəzi AQİM) saytda Balaxanlı ictimai xadim, pedaqoq Rabiyə xanım Sultan-zadə (Kərimova) haqqında yazıya rast gəldim. Kitabın mövzusuna uyğun olduğu üçün həmin yazıdan bəzi fraqmentləri xatırlatmaq istərdik. Firuzə Kərimovanın qızı, ictimai xadim, pedaqoq Rabiyə xanım Sultan-zadə (Kərimova) yada salır: - Anam Azərbaycan qadınlarının birinci bitərəf qurultayına çox gənc olmağına baxmayaraq deputat seçilmişdır. Anam 1906-cı ildə Balaxanıda anadan olmuşdur. Onu müsəlmanlar arasında savad yayan «Nəşr maarif» - Bakı Cəmiyyətinin Balaxanı ibtidai qadın məktəbinə oxumağa qoymuşdular. 1919-cu ildə anam Fatma Maqsudovanın rəhbərlik etdiyi dram dərnəyinə yazılır. Tamaşalardakı bütün kişi və qadın rollarını qızlar ifa edirdilər. Anam «Arşın mal alan», «Məşədi İbad» tamaşalarında oynamışdır. Anam xatırlayırdı: «Mənim gənclik rəfiqələrim öz məqsədlərinə nail oldular. Afidə Babayeva orta məktəb





direktoru, Firuzə İbrahimova və B.Gül mühəndis, Bəhriyə Qafarova «Nizami» kinoteatrının direktoru, Rahimə Quliyeva müəllimə, Səriyyə Axundova isə yazıçı oldular».

Bilirsinizmi, anamda təkcə enerji yox idi, o, həmişə bilik və bacarığı ilə, tez-tez isə maddi vəsaitlə bölüşmək istəyirdi. Onun Balaxanıdakı ata evində çoxları sığınacaq tapırdı. Xeyriyyəçilik moda deyildi, həyatın təbii prinsipi idi. Anam bunu bütün həyatı boyu keçirmişdi. Məsələn, 20-ci ildə Balaxanıdakı evdə Firuzə Kərimova anası ilə birgə uşaq bağçası açmışdı. Balaxanı Bakının qocaman neft kəndidir. Orada Cənubi Azərbaycandan çıxmış çoxlu fəhlə yaşayırdı. Mədənlərin çoxluğuna baxmayaraq, Balaxanıda çoxlu şəxsi evlər də var idi. 20-ci əsrin əvvəllərində Balaxanıda şəxsi ev nə deməkdir - bu daş hasara alınmış ikimərtəbəli evdir, içəridə həyət, həyətdə isə quyu - neft quyusu. Bax beləcə quyudan neft çıxarırdılar. 1918-ci ildə



Firuzə Kərimovanın şəxsi evində təşkil etdiyi uşaq bağçası
Детский сад, организованный Фирузой Керимовой в собственном доме
The kindergarten organized by Firuza Kerimova in own house

daşnaklar qırğın törədərkən, ailə xilas olmaq üçün qaçmış, qiymətli şeyləri isə atılmış həyat quyuların birində gizlətmişdir. Sovet hakimiyyəti gəldikdə, babam müsadirəni gözləmədi. O, könüllü surətdə Balaxanıdakı evini təhvil verdi. Anam xatırlayırdı ki, uşaq bağçasını mavi qonaq otağında açmışdılar, orada bəzəkli sobalar və xalçalar var idi. Anam uşaqları sevirdi və onlar da ona eyni ilə cavab verirdilər. O, uşaq bağçasında müəllimə olmağı qərara alır və bütün həyatı boyu biliklərə can atır. Bu arzu onu əvvəlcə "rabfaka", sonra isə Xalq Təhsili İnstitutuna gətirir. Gündüzlər o, uşaqları tərbiyələndirir, axşamlar isə özü oxuyurdu. Daha istedadlı qızlar sırasında anamı Sənaye Akademiyasına oxumağa göndərirlər. 1932-ci ildə ona mühəndis-neftçi diplomu təqdim edərkən, demişdir: «Elə günlər var ki, onları yaddan çıxarmaq olmaz. Mənim üçün belə bir gün indidir. Mən əvvəllər çadra taxırdım. Bu gün isə məni neft komandiri, təşkilatçı mühəndis adlandırırlar. Onun qeyri-adi hörükləri vardı. Neft mədənlərində işləyərkən bilərəkdən onun saçlarına mazut tökürlər. Saçlarını qırxdırmalı olur. İlk günlər o, çox ağlayır. Fəhlələr açıqcasına üzünə deyirdilər: «Bura qadınların yeri deyil! Sizsiz də neft çıxarırdıq, indi də çıxararıq. Sizin yeriniz ev, ailədir...» Hələ inqilabdan əvvəl təhsil almış baş mühəndis isə belə dedi: «Nədir, Sizi necə qarşılamalarından xoşunuz gəlmir? Qadınların yerlərini bilməmələri mənim də ürəyimdən deyil». Əlbəttə, dərhal mühəndis vəzifəsinə nail olmaq olardı, axı Sənaye Akademiyasının məzunu idi. Lakin anam başqa cür hərəkət etdi. Xahiş edir ki, onu qazmaçı əvəzedicisi götürsünlər. Bilirdi ki, təkcə diplomla əsrlər boyu yaranmış xurafatı dəf etmək olmaz. O, heç bir işdən çəkinmirdi. Və fəhlələr davam gətirmədilər. Bir dəfə onlar məğlub olduqlarını boyunlarına aldılar: «Təslim oluruq, Firuzə xanım, sən qalib gəldin...» Elə o vaxtdan o, ikinci adını qazandı - neft komandiri. O, Bakının neft mədənlərinə rəhbərlik edən birinci qadın kimi bu adı ömrünün axırına kimi daşıdı.







***Balaxanı qəsəbəsi. Azərbaycanın dahi satirik şairi M.Ə.Sabirin heykəli qarşısında, sakinlərlə görüş 2012-ci il***

## QƏSƏBƏNİN TARİXİ ABİDƏLƏRİ

Hər tərəfdən neft buruqları ilə əhatə olunmuş bu möcüzəli kəndin hər dağında, hər qayasında hələ qatı asılmamış neçə-neçə sirlər yaşayır. Bu qədim kəndin tarixi vaxtında geniş araşdırılsaydı bu gün elmə çox şey məlum olardı, kəndin tarixinin qədimliyini sübuta yetirən faktların sayı daha da

artardı. Lakin buna baxmayaraq, bəzi mövcud abidələrin qorunub-saxlanması həmin fikri təsdiq edir. Kəndin tarixi keçmişini buradakı karvansara su ovdanı, qədim məqbərələr, hamamlar, məscidlər XIX əsrdə qazılan neft quyuları yaşadır. XIV əsr Şirvanşahların vəziri işləmiş, Şakir ağanın türbəsi məhz bu kəndin qəbiristanlığındadır. Balaxanıda ən nadir hamamlardan sayılan "Qum" hamamı, XIV əsr ovdanı "Şah Səfi" karvansarayı "Hacı Şahlar" məscidi bu kəndin qədim tarixindən xəbər verir. Balaxanıda vaxtilə 18 hamam olub, hər məhəllədə inşa edilən hamamlar sakinlərin tələbatını ödəyərmiş. Balaxanıda inşa edilən hamamlar həm adları, həm də arxitektura üslubuna görə bir-birindən fərqlənib. Bunlara "Xan qızı", "Hacı Nəcəfqulu", "Hacı Həsən", "Bala Rza", "Şirəli", "Nurbala" XIV əsrə aid olan "Qum "hamamları onun ovdanı 128 və 543 inventar kimi qeydiyyatdadır. "Xan" qızı və ya El hamamı əsasən şirin su bulağı ilə əhatələnib. Digər hamamlar isə duzlu su ilə təchiz olunub. Bu hamamların əksəriyyəti dağıdılaraq yalnız bəziləri günümüzədək salamat qalıb.

Tarixçi alim M.İsmayılov "İki od arasında" əsərində yazır: "Bakıdan gəlmiş adamlardan biri Bakı yaxınlığında Balaxanıda təzə hamamın işə düşməsinin şahidi olub. O, hamamın üstündəki yazının köçürüb gətirib. Bu yazıda Şirvanşah hökmdarı Şeyx İbrahimin Bakıdakı əmri xatırladılır. Yazılır ki, bu hamam Xaçə Zeynəddinin əmri ilə tikilib. "O sənin fərmanının əsasında əmr edib ki, Bakının hamam olmayan kəndlərində hamam tikilsin". Torpağın altında tikilən Balaxanıda nadir hamamlardan sayılan Qum hamamını da böyükdən kiçiyə kimi hamı yaxşı tanıyır.







***Balaxanı qum hamamının müasir vəziyyəti - 2012-ci il***

Bu qədim sərvətimiz bir zamanlar qorunurdusa, artıq uzun illərdir ki, baxımsızlıq ucbatından sökülüb dağılıb. Ərazisi dəmir dirəklərlə əhatələnərək, müəmmalı şəkildə qalıb. Qum hamamı ilə üzbəüz yol kənarında olan su ovdanı da keçmişin yadigarıdır. Şirvanşah əmiri Xaçə Zeynəddinin göstərişi ilə XIV əsrdə tikilib. O dövrdə ümumiyyətlə, Şərqdə Azərbaycanda su ovdanlarının tikilməsi böyük xeyriyyəçilik işi hesab olunurdu. Ölkəmiz arxeoloji abidələrlə zəngindir. Onların sırasında su mənbələri, suyun saxlanılması ilə bağlı nümunələr də kifayət qədərdir. Ölkəmizdə ta qədimdən sudan istifadə mədəniyyəti formalaşmış və bu özünü müvafiq tikililərdə özünü göstərmişdir. Kəhrizlər, buzxanalar, ovdanlar və s. Bunların hər



*Balaxanı qəsəbəsində ovdan*

biri, birbaşa təyinatı ilə yanaşı, özünəməxsus memarlıq quruluşuna malikdir.

Hazırda Balaxanıda bir vaxtlar su mənbəli kimi istifadə olunan ovdan vardır. Ovdan sözü fars dilində olan "abdan" ("ab" - su, "dan" - göstərici) sözündən yaranıb, "su saxlanılan yer" mənasında işlədilir. Su yığıb saxlamaq üçün qurulan yeraltı hovuza, nohura ovdan deyirlər. Su quyusundan fərqli olaraq ovdandan su çəkməyə ehtiyac qalmır. Əvvəllər su içməyə qabı olmayan yol adamı ovdana enib ovçu ilə su içər, rahatlıq taparmış. Odur ki, ovdanlar əsasən yol kənarlarında, su mənbələrinin az olduğu ərazilərdə inşa edilərdi. Memarlıq tərtibatı baxımından "buzxana" adlandırılan və soyutma məqsədi daşıyan tikililər ovdanlarla oxşardırlar.

Azərbaycan ərazisində Abşeron yarımadasında və ona qonşu ərazilərdə ovdanlara daha çox təsadüf edilir. Bu yerlərdə içməli su mənbələri çox az olduğundan XVI-XVIII əsrlərdə içmək üçün yararlı olan qrunt sularından istifadə edilməsi məsələsi aktuallaşıb və ovdanlar yaradılıb. Bu qurğuların tikintisi XX əsrə qədər davam etmişdir. Ovdanların funksional quruluşuna əsasən onların memarlıq kompozisiyaları olduqca





müxtəlifdir. Tikililərin yerüstü hissəsi portallı fasada malikdir. Portalın arxasında yerləşən hissədə isə aşağı (su saxlancına) enən pilləkən olur.



Texnoloji münasibətdə ovdanlar iki müxtəlif xüsusiyyətləri nə görə fərqlənir. Yeraltı qrunt sularının yığılması üçün ovdanlar Abşeron yarımadasında geniş yayılıb. Bəzən bu ovdanların su qurğuları yer səthinə çıxan quyular şəklində hazırlanıb. Atmosfer yağıntılarının (yağış və qar suları) da yığılması üçün nəzərdə tutulmuş ovdanlar isə daha böyük ölçüdə olurdu. Buna misal olaraq XIX əsrdə Maştağadan olan Xaliq adlı usta tərəfindən Balaxanı kəndində inşa edilmiş ovdan göstərilə bilər.

Azərbaycanın bir çox yerlərində, misal üçün Ordubad rayonunda digər funksional əhəmiyyəti olan yeraltı qrunt su mənbələrinə təsadüf edilir. Bu tikililər ovdanlardan planlaşdırma və konstruksiya fərqləri ilə seçilir. Həmin tikililər yaşayış evlərinin həyətyanı sahələrində inşa edilib və nəinki içməli su mənbəyi, həmçinin tez xarab olan ərzaq məhsullarının saxlanması üçün sərin yer kimi də istifadə olunur. Bu tikililər planda günbəz örtüklü kvadrat şəkilli yeraltı bina kimi göstərilir. Su mənbəyi binanın mərkəzi hissəsində yerləşir, divarlarda ərzaq saxlanması üçün dərin taxçalar quraşdırılır. Yerin

səthindən binaya xüsusi pilləkən enir. Ovdanlar tarixən Böyük İpək Yolu üzərində yerləşən əlverişli su mənbələri hesab olunub. Balaxanıdakı 40 pilləkənli su ovdanı insanların suya olan tələbatına görə inşa edilib. Su



quyusunun ortasında olan çarxa sakinlər at bağlayaraq suyu çəkiblər. Su arxlara, eləcə də Qum hamamına da gedərdi. Kənd sakini Əkbər Hüseynov deyir ki, uzun illər su ovdanı zibilliklərin içərisində olub. Kənd sakinlərinin köməkliyi sayəsində su ovdanı təmizlənib və ondan XIV əsrdən XIX əsrin sonuna qədər, eləcə də 1920-ci ilin aprel inqilabına qədər istifadə olunub.

Abşeronun qədim yaşayış məskənlərindən olan Balaxanı qəsəbəsində tarixi indiyə qədər dəqiqləşdirilməmiş Balaxanı qalası yerləşir. XVIII əsrin qırxıncı illərində Rusiyanın İrandakı







səfirliyinin əməkdaşı İ.Y.Lerx yazırdı: “Balaxanı kəndində hələ də 4 bastonlu, dördkünc (bürclü) bir qala durur”. Vaxtilə tanınmış alim Abbasqulu ağa Bakıxanovun ata-anasının toy məclisi bu qalada baş tutmuşdu. Bu gün həmin qalanın bir hissəsi torpaq altında qalıb. Qalan hissəsini isə baxımsızlıq ucbatından dağılıb.

Balaxanı tarixən qədim İpək yolunun üstündə yerləşdiyi üçün iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edib. İpək yolunun üstündə tikilən "Şah Səfi" karvansarayı kəndin mərkəzində yerləşir. Kənd sakinlərinin dediyinə görə bu karvansaradan vaxtı ilə anbar kimi istifadə ediblər. Bu karvansara ilə bağlı tarix elmləri doktoru, professor M.Nemətova yazır: "Hacı Ruhulla tikilisi, yerli sakinlərin Şah Səfi karvansarayı adlandırdığı bina Balaxanı qəsəbəsində yerləşir. Yerli əhəngdaşı materiallarından tikilmiş bina çatma tavanlı, dördbucaq şəklindədir. Oxvarı qapıların üstündəki yazı itmişdir". Hacı Ruhulla tikilisində o yazı əhəng daşında cızılmış 3 sətirli ərəb dilində, nəfs xətti ilə yazılmış daş kitabə qapının üstündə olub. Yazılı daş saxlanılmayıb, neqativi isə AMEA-nın Tarix İnstitutunun Milli arxivində 68-14 saylı inventar kimi saxlanılır. Bu kitabə belə oxunur:

1. Bu binanı inşa etməyi əmr etdi. Əzəmətli sultanım, şöhrətli şahanşahımızın hakimiyyəti günlərində:

2. Şah Səfi əd-Din-əl-Hüseyn, əl-Bahadır - Xan tanınmış Hacı Ruhullanın dayağı:

3. Mövlanə Hikmət Allah Badu-Kubeyi, Rəcəb ayı - min qırx meşinçi Hicri ilində, ustad - Burhan, Sərkar Behdud düzəldib. Keçmişimizin yadigarı olan bu abidələrin bu gün dövlət qayğısına böyük ehtiyacı var.




***Tarixi abidə. Balaxanı mərkəzi hamamın müasir vəziyyəti. 2012-ci il***





Balaxanıda məscidlərin tikilmə tarixi VIII əsrə təsadüf edir. Kəndin Aşağı məhəlləsində Həmşəri məscidi yerləşir. "Həmşəri" sözü dilimizdə XIX-XX əsrlərdə Cənubi Azərbaycandan Bakıya neft-mədənlərində işləməyə gələnlərə deyilirdi. Məscidin tikilmə tarixi ilə bağlı konkret məlumat olmasa da, məscidin içərisində qorunub saxlanan daş kitabədə hicri təqvimlə 1290-cı il (1873-cü il) yazılmışdır. Məsciddən uzun illə, kənd sakinləri tərəfindən toxuculuq sexi kimi istifadə olunub. Həyətə daxil olarkən məscidin daş kitabəsini ağac budaqlarının arxasında görmək olar. Bu məscid tarixi abidə kimi xalqın mülkiyyətidir. İçərisindəki minbər, eyni zamanda, insanların məsciddən ibadət etməsi üçün geniş otağı var, bu, inşasına sərmayə qoyan şəxsin yerli sakinlərə böyük töhfəsi hesab olunub. Balaxanıda 1936-cı ilə qədər Böyük məsciddən dindarlar istifadə ediblər. 1936-cı ildən başlayaraq məscid mədəniyyət evi kimi istifadə olunub. Vətənimiz öz müstəqilliyini bərpa etdikdən sonra isə qəsəbə sakinlərinin müraciəti ilə, 1990-cı il sentyabrın 10-da Balaxanı məscidi dindarların üzünə açılıb. Lakin onun məscid halına qaytarılması və bərpası üçün əsaslı təmir işləri görmək lazım idi. O vaxt da yerli sakinlər məscidin təmirində böyük rol oynayıblar. Hündürlüyü 27 metr olan minarə XX əsrin əvvəllərində yeganə məscid minarəsi hesab olunub. Burada pilləkənlərin 114 sayda olması "Qurani-Kərim"in surələrinə işarədir. Məscidin günbəzi sonradan inşa edilib. Həmin məscid 1998-ci ildə Balaxanı Cümə məscidi adlandırılaraq, tam təmir olunmuş vəziyyətdə xalqın ixtiyarına verilib. Tikilmə tarixi ilə bağlı konkret məlumat olmasa da, məscidin içərisində qorunub saxlanan daş kitabədə hicri təqvimlə 1290-cı il (1873-cü il) yazılıb. Qəsəbədə yeganə

ibadət ocağı olan bu məscid o dövrün neft milyonçularının



**Balaxanı qəsəbə cümə məscidi, 2012-ci il**

xeyriyyə yardımları və qəsəbə sakinlərinin ianələri hesabına inşa edilmişdir.





Sovet hakimiyyəti illərində müqəddəs yerlərə qarşı aparılan repressiya bu məsciddən də yan keçməmişdir. XX əsrin 30-cu illərində bu dini abidə üzərində dəyişikliklər edərək onu mədəniyyət evinə çevirmişlər. Vətənimiz öz müstəqilliyini bərpa etdikdən sonra isə qəsəbə sakinlərinin müraciəti ilə, yəni 1990-cı ilin sentyabr ayından yenidən məscid kimi dindarların ixtiyarına verilmişdir. Lakin onun məscid halına qaytarılması və bərpası üçün əsaslı təmir işləri görmək lazım idi. Beləliklə yenə qəsəbə sakinlərinin köməyi ilə Allah evi ibadət üçün yararlı hala gətirilmişdir. 1994/98-ci illər məscidin bərpa və təmir dövrü sayıla bilər.

Məscidin əsas ibadət zalının sahəsi 176, qadınlar ibadət edən hissəsinin sahəsi isə 99 kvadratmetrdir. Balaxanı qəsəbə Cümə məscidinin ilkin variantında minarə olmamışdır. Minarə 1995-1996-cı illərdə inşa edilmişdir. Hazırkı minarənin hündürlüyü 27 metrdir və 114 pilləli yonulmuş sal daşlardan tikilmişdir. Həyətyanı sahədə yaşıllaşdırma və abadlıq işləri aparılmış, səliqə-sahman yaradılmışdır. Məscidin həyətinə daş piltələr döşənmişdir. Məscidin ibadət edilən hissəsinin arakəsməsi milli ornamentlərə uyğun taxta şəbəkə ilə, mehrab isə nəbati ornamentlərlə bəzədilmiş, üzərində səkkizguşəli ulduzlar işlənmişdir.

1994-cü ildə taxtadan düzəldilmiş minbər zövq oxşayır. Əsas ibadət zalının divarlarında "əl-Fatihə" və "əl-Bəqərə" surələrindən ayələr həkk olunmuşdur.

1998-ci il iyul ayının 18-də Şeyxulislam həzrətləri, Bakı şəhər icra hakimiyyətinin başçısı, rayon icra hakimiyyətinin rəhbər işçiləri, ziyalılar, dindarlar və çoxsaylı qəsəbə sakininin iştirakı ilə məscidin təmirdən sonra rəsmi açılışı olmuşdur. Hazırda məsciddə Bakı şəhəri Sabunçu rayon Balaxanı qəsəbə məscidi dini icması fəaliyyət göstərir. İcma 2009-cu il noyabr

ayının 11-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmişdir. Qəsəbə dindarları rahat şəkildə öz dini ibadətlərini bu məsciddə icra edirlər. Dini icma müqəddəs bayramlarda və günlərdə burada müxtəlif mərasimlər təşkil edir, ölkənin daha da güclənməsi və torpaqların azadlığı uğrunda şəhid olanların ruhlarına dualar oxuyurlar. Keçmişimizin yadigarı olan bu sərvətlər dünənimiz, bu günümüz və sabahımızdır. Odur ki, daş yaddaşımız olan abidələri qoruyub saxlamaq, onları gələcək nəsillərə çatdırmaq ən mühüm və vacib məsələdir. Çünki vətənpərvərlik hissi də qan yaddaşımız olan abidələrdən başlayır.

Azərbaycanın hər bir guşəsində olduğu kimi Sabunçu rayonu Balaxanı qəsəbəsində də müxtəlif əsrlərin izlərin özündə əks etdirən çoxlu memarlıq, tarixi və arxeoloji abidlərin nümunələri mövcuddur. Müxtəlif məqsədlər üçün tikilmiş abidələr indiyə qədər gəlib çıxmışdır. Hal-hazırda Azərbaycan Respublikasını ərazisindəki bütün tarixi və mədəniyyət abidələri dövlət tərəfindən qorunan ümumi bir siyahıda birləşib. Bu siyahı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarı ilə təsdiq olunmuşdur və mühafizəsi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin 23.03.2006-cı il tarixli 05 saylı əmri ilə "Nardaran tarixi-mədəniyyət qoruğuna " tapşırılmışdır. Balaxanı qəsəbəsində qədim yaşayış evləri, qədim tikintilər, qala, neft anbarları, ovdan, məscidlər, qədim qəbiristanlıq, karvansara və s. öz tarixi ilə diqqəti cəlb edir.

Balaxanıda aşağıdakı memarlıq abidələrinin qalıqları vardır.





-1385-ci ildə usta Arif tərəfindən inşa edilmiş Hacı Şahlar məscidi. Bu abidə kvadrat şəkilli tağ-tavanlı kiçik otaqdan və onun qarşısındakı dərin piştağdan ibarətdir. Şakir Ağa türbəsi (1427-ci il). Güman edilir ki, bu abidələr Şirvanşah İbrahimin və oğlu Xəlilullahın hakimiyyətləri dövründə tikilib.

-1427-ci ildə tikilmiş Şakirağa türbəsi memarlıq baxımından Balaxanı abidələrinin ən qiymətlisi hesab olunur. Xalq arasında İmarət adlandırılan bu bina ehtimala görə mehmanxana olmuşdur. Abidə günbəzlə salondan və fasaddakı çıxıntılı promoldan ibarətdir. Hər iki bina Abşeron binaları üçün xarakterik olan yonulmuş daşdan tikilmişdir.

1635-1636-cı ildə tikintisi Hacı Ruhulla tərəfindən aparılmış "Şah Səfi karvansarayı". Karvansaray İpək Yolunun üstündə olduğundan o zaman bütün tacirlərin yolu buradan düşüb. Məlumata görə hazırda (Dilarə Əliyeva) karvansaranın epiqrafik yazısı yoxa çıxmış, yalnız onun yazısının surəti Milli Elmlər Akademiyasında 6814 nömrə ilə mühafizə olunur və Balaxanı icra nümayəndəsi Qurbanon Fərhad müəllimin xüsusi səyi ilə Sabunçu Rayon İcra Hakimiyyəti tərəfindən yaxın vaxtlarda bərpa-təmir işlərinin gözləndiyi bildirilir.

-XVII əsrdə tikilmiş ovdan.

Kəndin cənubundakı "Boq-boqi" adlanan yerin yaxınlığında vaxtilə Suraxanı atəşgahına bənzər abidə olub. Kəndin cənub hissəsindəki köhnə qəbiristanlıqda "Pirə Moulo" piri, kəndin ortasındakı böyük tut ağacının yanında olan "Sənqıran" piri olub. Balaxanı qəsəbəsində öz tarixi qiymətli əhəmiyyəti ilə diqqəti çəkən pir, qədim sənduqələr və sərdabələr vardır.

## MƏDƏNİYYƏT

Balaxanıda teatr incəsənət və mədəni-maarif ocaqlarının tarixi qədimdir. Balaxanı qəsəbəsinin mədəniyyət incəsənət və teatr əsasını qoyanlar o zaman müasir ruhda tərbiyə almış demokratik əhval-ruhiyyəli gənc maarifpərvər ziyalılar olmuşlar. Təməli 1908-ci ildə qoyulmuş Balaxanı fəhlə dram dərnəyi yerli həvəskarların təşəbbüsü və gücü ilə indiki Artyom yaşayış sahəsi ərazisində təşkil edilmiş fəhlə dərnəyinin binasında xırda səhnə tamaşalarını göstərməklə həmcinin oraya gələn fəhlələrlə inqilabi iş aparırdılar. 1924-cü ildə Balaxanı dram teatrının dərnəyinin yanında ilk komsomol təşkilatı yaranır. Bu təşkilatı rəhbərlik həvəskarı aktyor və siyasi işləri müvəffəqiyyətlə aparan Ağaverdi Kərimova tapşırılır. 1928-ci ildən başlayaraq Lenin rayonu (Hazırkı Sabunçu) Balaxanı qəsəbəsindəki N.K.Krupskaya adına qadınlar klubundakı həvəskar dram truppasının şöhrəti ətraf Ramana, Sabunçu, Zabrat və başqa kəndlərin zəhmətkeşlərinə çatır. 1936 –ci ildə dram dərnəyi Krupskaya adına klubda bir-birinin ardınca iki musiqili əsər "Arşın mal alan" və "Əsli və Kərəm" tamaşalarını göstərir. 1930-40-ci illər dram dərnəyinin çiçəklənmə dövrü başlayır. 1939 -cü ildə Q.Budaqovun rejissorluğu ilə Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası tamaşaya qoyulur. Operanı klubun çalğı alətləri ansamblı müşayiət edir. 1940-ci ildə 5 dekabrda qəsəbədə yeni Mədəniyyət evi –M.Ə.Sabir adına mədəniyyət evinin açılışı olmuşdur. 1960-ci ildən başlayaraq M.Ə.Sabir adına Balaxanı Mədəniyyət evinin dram dərnəyi və xalq çalğı alətləri ansamblının şöhrəti hər tərəfə yayılır. 1967-ci il dram dərnəyi və xalq çalğı alətləri ansamblı üçün (rəhbəri








S.Mustafayev) daha uğurlu il olmuşdur. Bu ildə Dram Dərnəyi "Xalq teatrı" adını alır, ansambl isə festival laureatı və qızıl medal aldı. 1968-ci ildə Balaxanı xalq teatrının 60 illik yubileyi



*M.Ə.Sabir adına Balaxanı qəsəbə Mədəniyyət evində*

münasibəti ilə xalq teatrının bir qrup üzvləri Azərb.SSR Mədəniyyət nazirliyi və Bakı Şəhər xalq yaradıcılıq evinin fəxri fərmanları ilə təltif olunmuşdur. 1971-ci ildə Balaxanıda ilk xalq çalğı alətləri ansamblının (sonralar "Təravət" ansambl) yaranmasının 40 illiyi böyük təntənə ilə qeyd edilmişdir. "Təravət" xalq çalğı alətləri ansamblı Balaxanı-Sabuncu rayonuna V.İ.Leninin adının verilməsi şərəfinə keçirilən (1974-cü il) rayon festivalında 1-ci dərəcəli diploma layiq görülmüşdür.

Tədqiqatçılar qeyd edirlər ki, Balaxanıda lap qədim zamanlardan mədrəsələr fəaliyyət göstərirmiş. Ədəbiyyat tarixindən məlumdur ki, Mirzə Ələkbər Sabir 1910-cu ildə Balaxanı məktəblərində çalışmışdır. Bir çox məşhur şeirlərini də o, məhz Balaxanıda yazmışdır. Onun kənd məktəbində





işləməsinin maraqlı hekayətini Balaxanı sakini Azər bəy danışır: "Şair yaşadığı Şamaxı rayonunda vərəm xəstəliyindən əziyyət çəkdiyi vaxtlarda kənd milyonçusu Hacı Soltanəli onu Bakıya gətirdərək Kürdəxanı qəsəbəsindəki şəxsi bağında müalicə etdirir. Mirzə sağalandan sonra Hacı Soltanəli də şairin minnətdarlığının müqabilində ona kənddəki məktəbdə dərs deməyi təklif edir. Şair də bu təklifə etiraz etmir".

Balaxanında ilk fəhlə özfəaliyyət dərnəyi hələ 1904-cü ildə qurulub fəaliyyət göstərmişdir. Orada respublikanın bir çox görkəmli sənətkarları – Şövkət Ələkbərova, Mirzə Babayev, Məmmədbağır Bağırzadə və başqaları çıxış ediblər. Bir müddət yəni 1990-1991-ci illərdə mədəniyyət evi fəaliyyətini dayandırıb, sonra isə həmin binanı məscidə çevrilmiş və sonradan yenə öz əvvəlki fəaliyyətini bərpa etmişdir.

Azərbaycanda ilk dəfə olaraq kino 2 avqust 1898-ci ildə Balaxanı kəndində "Balaxanıda yanğın" filmi çəkilmişdir. Həmin film qısa metrajlı olmasına baxmayaraq tarixi, iqtisadi baxımdan qiymətli hesab edilə bilər. Məlumata görə filmin orgiyalı Moskva arxivində saxlanılır. İlk dəfə bu məlumat 1898-ci ilin avqust ayında Bakıda çap olunan "Kaspi" qəzetində məlumat verilmişdir. Həmin qəzetin nüsxələri Moskva dövlət arxivində saxlanılır. 1898-ci ildə Balaxanı-Sabunçu Polis İdarəsi süvari qorodovoylarının at oynatmaları (film, 1898) qısametrajlı səndəli filmi çəkilmiş və avqustun 6-da Balaxanıda Benkendorfun neft fəhlə klubunda nümayiş etdirilmişdir.

Balaxanıda teatr ilk dəfə 1908-ci ildə yaradılmışdır. Tanus Dadaşovun yazdığı "Kəpənək" pyesi yerli həvəskarlar tərəfindən oynanılmışdır. Yaşlı Balaxanlıların dediyinə görə sonralar pyes Maştağa, Suraxanı, hətta həmin həvəskarlar tərəfindən Qubada yaşayan yəhudilər üçün də oynanmışdır.

Hazırda M.Ə.Sabir adına Balaxanı qəsəbə Mədəniyyət evi teatr kimidə fəaliyyət göstərir. 2012-ci ilin iyun ayınln 14-də Balaxanı qəsəbəsindəki M.Ə.Sabir adına Mədəniyyət evində

Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Mədəniyyət evinin direktoru Səyyarə Əliyeva,



***Balaxanıda stolüstü oyunlar üzrə yarış (1959-cu il)***

Balaxanı qəsəbə icra nümayəndəsi Fərhad Qurbanov çıxış etmişlər.

Hazırda Balaxanı qəsəbəsində 3 məktəb fəaliyyət göstərir. Onlardan biri rus təmayüllü məktəbdir. Balaxanı məhəllələrində xeyli sayda "nikolayski" üslubunda inşa olunmuş evlərə də rast gəlinir.

Balaxanı milyonçuları İngiltərədə olarkən futbol oyunu onların marağına səbəb olur. Qərara alırlar ki, bu oyun növünü Balaxanıya gətirsinlər. İlk dəfə olaraq Balaxanı milyonçularının təşəbbüsü ilə 1910-cu ildə Azərbaycanda futbol oyunu Balaxanı kəndindən başlayıb. Kənd sakinləri söyləyirlər ki, kənddə salınmış futbol meydançasında balaxanılarla ingilislər arasında





futbol oyunu olub. 1916-cı ildə qəsəbədə "Balaxanı futbolçular dərnəyi" fəaliyyət göstərib.



***Balaxanı qəsəbə idmançıları (2012-ci il)***

Hazırda gənclərin asudə vaxtlarını keçirmək və sağlamlıqlarının qorunması üçün Sabunçu rayon Balaxanı qəsəbəsində yeni idman zalı istifadəyə verilib. İdman zalı "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafına dair tədbirlər proqramı"na əsasən inşa edilib. 2007-ci ilin yanvar ayından tikintisinə başlanılan zal üçün Sabunçu rayon İcra Hakimiyyəti tərəfindən 0,48 hektar torpaq sahəsi ayrılıb.

1. Tikili altı sahə 1584 $m^2$
2. Ümumi tikinti sahəsi 1728 $m^2$
3. Yaşıllıqların sahəsi 470$m^2$
4. Asfalt sahəsi 2 400 $m^2$-dir.

İdman zalı baş plana əsasən inşa edilib. İki mərtəbəli İdman zalı binasının ümumi ölçüsü 54m x 30m-dir.



***Balaxanı qəsəbəsində müasir idman mərkəzinin məşq zalı (2012-ci il)***

Zalın I mərtəbəsində 42x30 ölçüdə universal idman zalı, 2 ədəd soyunub geyinmə otağı, 2 ədəd duş kabinəsi, vestibül, həkim otağı, 2 ədəd sanitar qovşağı var.

II mərtəbə isə dəhliz, məşqçi otağı, müdiriyyət otağı, işçi otağı və texniki otaqdan ibarətdir.

Baş plana əsasən inşa edilən digər tikililər: 1,8 metr hündürlükdə daş hasar 155p/metr, 1 ədəd 100 $m^3$ içməli su anbarı, 1 ədəd 100 $m^3$ yanğın su anbarı, 250 kVa güçündə komplekt transformator yarımstansiyası, nasosxana binası, kanalizasiya təchizatı xətti 90 metr, su təchizatı xətti 105 metr,





elektrik təchizatı xətti 400 metr, sürüşməyə qarşı istinad divarı 146 p/metr, hündürlüyü 6 metrdir.

Balaxanı İdman Mərkəzinin direktoru Müşfiq Hüseynov bildirir ki, "Balaxanı İdman Mərkəzi Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərir. Bura 2011-ci ilin oktyabr ayından işə başlayıb. Mərkəzdə cüdo, güləş, karate, taekvondo və digər idman növləri üzrə bölmələr var. Mən əvvəllər cüdoçu olmuşam. Bir sıra yarışlarda iştirak edərək mükafata layiq yerlər tutmuşam. Hazırda həm də məşqçi kimi çalışıram. Cüdo bölməsinə müraciət edən uşaqların sayı daha çoxdur. İdmançılarımız turnirlərdə mütəmadi iştirak edərək medallar qazanırlar. Qeyd edim ki, mərkəzin cüdoçuları Dağıstanda (Rusiya) təşkil olunan beynəlxalq yarışda qüvvələrini sınadılar. Təmsilçilərimizdən bir neçəsi medal qazandı. Mərkəzin yaradılmasından qısa müddət keçməsinə baxmayaraq, tatami ustalarımız öz sözlərini layiqincə deyə biliblər. Nəzərinizə çatdırım ki, mərkəzdə mütəmadi olaraq daxili yarışlar keçirilir. İnanırıq ki, digər idman növləri üzrə də təmsilçilərimiz onlara bəslənilən etimadı doğruldacaqlar. Əsas məqsədimiz Balaxanı İdman Mərkəzinin təmsilçilərinin gələcəkdə Olimpiya oyunlarında yaxşı nəticə qazanmalarına nail olmaqdır".

## İQTİSADİYYAT

Azərbaycan neftinin tarixi kökləri çox qədim dövrlərə gedib çıxır. Ərəb tarixçiləri, coğrafiyaşünasları və

səyyahlarından Əhməd Əl-Bəlaruri (IX əsr) Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu göstərmiş. Əbu-İshaq İstəxri (XI-X əsrlər), Əbu-d-Həsən Əli Məsudi (X əsr) Bakının neftli torpağı, Abşeronun "ağ" və "qara" nefti haqqında məlumat vermişdir. İtalyan səyyahı Marko Polo (XIII-XIV əsrlər) Bakı neftinin yaxın Şərq ölkələrinə aparılması, alman diplomatı və səyyahı Adam Oleari (XVII əsr) Bakıdakı neft quyuları, türk səyyahı Övliya Çələbi (XVII əsr) neft mədənləri, neftin İrana, Orta Asiyaya, Türkiyəyə və Hindistana aparılması və neftin gətirdiyi illik gəlir haqqında məlumat vermişdir. Əmin Əhməd Razinin (İran, 1601) məlumatına görə XVI əsrin əvvəllərində Bakı ətrafında 500-ə qədər belə neft çalaları və quyusu mövcud idi ki, bunlardan da həm "qara", həm də "ağ" neft çıxarılırdı. Alman səyyahı, həkim və təbiətşünası Engelbert Kempfer İsveç səfirliyinin katibi kimi 1683-cü ildə Abşeron yarımadasında Balaxanı, Binəqədi, Suraxanı yataqlarında olmuş, neftin Abşeron yarımadasından İrana, Orta Asiyaya və Şimali Qafqaza aparılmasını təsvir etmişdir. 1803-cü (1798) ildə Bakı sakini Qasımbəy Mənsurbəyov Bibiheybət yaxınlığında, dənizdə, sahildən 18 m və 30 m aralı iki neft quyusu qazdırmışdır.

Qeyd etmək lazımdır ki, rusiya neft sənayesi düz 1910-cu ilədək əsasən Azərbaycan (Bakı) neft sənayesi ilə təmsil olunmuşdur. Bakı neft regionunun əsas yataqlarına Balaxanı, Sabunçu, Ramanı, Bibi-Heybət və Suraxanı aid idi. Ərəb coğrafiyaçısı alimi Məsudi özünün "Orta kitab" (X əsrin birinci yarısı) əsərində qeyd edir ki, "...Bakıda iki əsas mənbə var idi: birindən sarı və ağ, digərindən isə qara və göy neft çıxarılırdı. XIII əsrin əvvəlində Abşerona səyahət etmiş ərəb tarixçisi Məhəmməd Bekran yazdığı kitabda Balaxanıda neftin quyudan çıxarılmasından bəhs etmişdi; yəni quyular Abşeronun ilk neft mənbələri (yataqları) sayılırdı. Azərbaycanın rusiya tərkibinə qatılmasına qədər Bakıda olmuş A.Yartsevin məlumatları ilə





təsdiqlənir. Yartsev 1812-ci ildə yazırdı: "... Bir Bakı knyazı ölkənin bütün mədən yağını sata bilərdi. Balaxanıda tacirlər bu məmulatı aldıqdan sonra yerdə qalanı Bakı şəhərinə daşınır; burada ehtiyat dükanlar olmasa da; şəhər kənarında ən möhkəm gips daşlarına çatana qədər 15 quyu qazılmış və daşla döşənmişdir. Burada quyulara ehtiyat yağ tökülür və satıcılar tərəfindən aparılana qədər saxlanılır" [Yartsev A. Pus mədən tarixi (əlyazma), hissə 7, kitab 1, № 43. K.A.Pajitnovun "Bakı neft çıxarma sənayesi haqqında oçerklər" kitabından. M.-L., 1940, s.11]. Sənədlər şəhadət verir ki, ən qədim neft quyuları (cəmi 120, dərinliyi 2-dən 30 sajına qədər) Abşeronun aşağıdakı kəndlərində yerləşirdi: Balaxanı, Suraxanı, Bibi-Heybət, Binəqədi, Sabunçu, Pomana və Şubanı, quyuların əksəriyyəti Balaxanıda yerləşmişdi. Səciyyəvi detal: köhnə quyular uzun müddət işləndikdən sonra təmirə dayanır və yalnız o quyularda müvafiq həcmdə neft yığıldıqdan sonra bərpa edilirdilər.

Hazırda, Abşeronda ilk neft mənbəyi dərinliyi 35 m olan, Balaxanıda Allahyar Məmmədəli Nur oğlunun 1594-cü ildə tikdiyi quyu sayılır. 1803-cü ildə isə bakılı Qasımbəy ilk dəfə olaraq Bibi-Heybət buxtasının sahilindən 18 və 30 metr məsafədə yerləşmiş iki quyudan dənizin dibindən neft çıxarılmasına başlanmışdır. Balaxanıda 1823-cü ildə yerli sakinlər üzərində "Xələfi" quyusunun 200 il qabaq inşa edilməsi haqqında yazı olan daş tapdılar. Digər qədim quyular: XVIII əsrdə inşa edilmiş "Çambu", "Hacı Zurabi", "Dostakov", "Sapahi", "Urusi", "Qazı", "Şah Səfi", "Ağayi", "Əli Bəyi", "Xanəli", "Irzaqulu" və başqaları Azərbaycanın rusiyanın tərkibinə qatılmasından xeyli qabaq bərpa edilmişdilər. Bakı neft-mədənləri 1825-ci ilin 01 yanvar tarixində çar xəzinəsinin birbaşa idarəçiliyinə keçirildi. Elə bu zamandan ekspedisiyasının göstərişinə əsasən, çox istedadlı mədən mühəndisi N.I. Voskoboynikov (1801-1860) Bakıya ezam edildi, bu ezamiyyətin məqsədi "Bakı komendantının ezam etdiyi

praporşik Talalayevlə birlikdə mövcud quyulara baxış keçirmək və otkup sahibi Tarumovdan Balaxanı, Binəqədi, Suraxanı və Bakıda yerləşən ağ və qara neft quyularını dövlət idarəçiliyinə qəbul etmək və mövcud quyuların və neft anbarlarının sayı, onların vəziyyəti, hər bir anbarda nə qədər satılmamış neftin olması, burada hansı avadanlıqların otkup sahibinə və dövlətə məxsus olması, o cümlədən Masazır və Zığda nə qədər satılmamış və ehtiyat neftin olması, münasib yerdə yerləşdirilməsi və sair haqqında təfərrüatlı siyahı tutmaqdan ibarət idi; [QIA AP, F.24, op.24, d.390, s.2]. Balaxanıda 1837-ci ildə Abşeronda Voskoboynikovun ilk neftayırma zavodu fəaliyyətə başladı, bu zavod "distillə üçün xüsusi aparat və dəmir baklar təşkil etdi (Qafqaz Arxeoloji Komissiyasının topladığı sənədlər (QAK), c.9, s. 651). Ancaq neftin ayrılması və ağ neftin əmələ gəlməsi prosesini başa çatdırmaq ona nəsib olmadı; 1846-cı ildə Voskoboynikov təqaüdə çıxdı və Abşeronu birdəfəlik tərk etdi. 1869-cu ildə otkup sahibi I.M.Morzoyev Balaxanıda dərinliyi 64 m olan ilk quyusunu qazdı, ancaq uğursuzluğa düçar oldu. 1871-ci ildə demək olar eyni yerdə dərinliyi 45 m olan ikinci quyusunu qazdı, nəticə son dərəcə uğurlu oldu: bu quyu orta hesabla sutkada 2 min pud neft verdi. 1868-ci ildə neft quyularının qazılmasına rəsmi icazə alındıqdan sonra, 1871-ci ildə Abşeronda, Balaxanıda mexaniki üsulla 64 metr dərinliyində ikinci quyunu qazdılar. Elə bu andan da qiymətlərin enməsinə aparan güclü qazıntı başlanır: əgər 1873-cü ildə bir pud neftin qiyməti 45 qəpik idisə, 13 iyun 1873-cü ildə Balaxanıda qısa müddət ərzində ətrafa dolmuş və bir neçə neft gölü əmələ gətirmiş tanınmış "vermişevski" fontanı vurandan sonra bir pudun qiyməti 2 qəpiyə endi. Neft sənayeçisi I.A. Vermişevin quyusu 13 gün ərzində 61 metr hündürlükdə güclü fontan vuraraq üç ay ərzində 90 milyon puddan çox neft çıxartdı. Bu Pensilvaniyada tapılmış çoxlu neft axınını dəfələrlə ötüb keçdi. 1888-ci ilin 8 və 9 oktyabr tarixlərində rus





imperatoru III Aleksandr (1845-1894) ailəsi ilə birlikdə Bakıda iki günlük səfərdə olmuşdu. O, "Nobel qardaşları" firmasının Qara şəhər neft zavoduna və Balaxanı və Sabunçuda Potşild "Xəzər-Qara Dəniz cəmiyyəti" və Şəmsi Əsədullayev neft mədənlərinə baş çəkmişdi. Maraqlıdır ki, çar hökuməti böyük firmaların yaranmasına və inkişaf etdirilməsinə fəal kömək edirdi, belə ki, istehsalat baxımından daha mütəşəkkil olanlar sənayenin maraqlarını daha yaxşı təmsil edirdilər. 1904-cü ilin dekabrın 12-də "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" bütün sənaye işçilərini ümumi tətilə çağırdı. Nobel, Rotşild, Mantaşev və Mirzəyevin mədənlərində iş dayandı. Bibiheybət, Qara və Ağ şəhərin, Balaxanı-Sabunçu sənaye rayonunun fəhlələri də tətilə qoşuldular. İlk gündən bu böyük etiraz 40-a yaxın firmanın fəhlə və qulluqçunu öz sıralarında birləşdirdi. Dekabrın 30-da «Elektrik qüvvəsi» zavodunda fəhlələrin böyük kütləsinin əhatəsində Rusiya fəhlə hərəkatının tarixində «Mazut konstitusiyası» adı ilə məşhurlaşan ilk kollektiv müqavilə imzalandı. Bakı fəhlələrinin böyük uğuru olan bu müqavilə onların maddi vəziyyətlərini yaxşılaşdırdı. 1905-ci il xalq kütlələrinin sosial və milli əsarətə qarşı istibdadla mübarizəsində kulminasiya mərhələsi oldu. Bakı fəhlələrinin yanvar ayındakı etirazları dekabrdakı ümumi tətilin davamı idi. İstibdadın xalq hərəkatı ilə mübarizə formalarından biri millərarası qarşıdurmaya təhrik etmək idi. Bunlardan biri 1905-ci ilin fevralında Bakıda təşkil olundu. Ehtirasları qızışdırmaq üçün çar hökuməti azərbaycanlı və erməni burjuaziyası arasındakı müəyyən ziddiyyətlərdən istifadə edirdi. Polis və qoşunlar yüzlərlə insanın ölümünə səbəb olan qanlı mübarizəyə müdaxilə etmirdi. 1905-ci ilin fevralında Bakıda və Bakı quberniyasında hərbi vəziyyət tətbiq olundu. Amma bir il sonra, yayda inqilabi fəallığın yeni mərhələsi başlandı. Fəhlə etirazlarının qarşısını almaq üçün avqustun 22-də mühasirə vəziyyəti elan olundu. Çar hökuməti tətilçilərə qarşı qoşun yeritdi, təqiblər başladı. Şəhərdə

polis terroru tüğyan edirdi. Eyni zamanda hökumət neft sənayeçiləri ilə fəhlələr arasında münasibətləri nizama salmağa çalışırdı. Bakının və ona bitişik neft sənayesi rayonlarının idarəsi üçün 1906-cı il 28 oktyabr fərmanı ilə Bakı qradonaçalnikliyi yaradıldı. Buraya birbaşa imperatorun təyin etdiyi qradonaçalnik rəhbərlik edirdi və o, qubernator səlahiyyətlərinə malik idi. 1906-cı ilin dekabrında Bakıda və Bakı quberniyasında hərbi vəziyyət fövqəladə vəziyyətlə əvəzləndi və müvəqqəti general-qubernator vəzifəsi ləğv olundu.

Qeyd etmək lazımdır ki, rus neft sənayesi 1910-cu ilədək əsasən Azərbaycan neft sənayesi ilə təmsil olunurdu. Bakının əsas yataqlarına Balaxanı, Sabunçu, Pomanı, Bibi-Heybət və Suraxanı aid idi. ("1915-ci il Bakı neft sənayesinin xülasəsi", Bakı, 1916, 2-ci cild, s.235). 1875-ci ildə dünya neft sənayesinin tarixində ilk dəfə V.I.Paqozin sürtkü yağını tədqiq etdi və bu məqsəd üçün Balaxanıda (Nijeqorod quberniyası) və Konstantinovda (Yaroslavla yaxın) ilk zavodları tikdi. 1878-ci ildə onun tərəfindən xaricə aparılmış Bakı neftindən alınan sürtgü yağı dünya bazarını davamlı şəkildə ələ alır. 1878-ci ildə Pusiyada ilk Bakı-Balaxanı-Qara şəhər neft kəmərinin çəkilməsi; sistern-vaqonların inşası; həmçinin təkcə Bakıda deyil, həm də bir çox rusiya şəhərlərində (Nijni Novqorod, Saratov, Həştərxan, Sarısın, Yaroslavl, Kronştadt və s.) dəmir rezervuarlarla (ilk belə rezervuar 1879-cu ildə inşa edilib) təchiz olunmuş bütöv bir anbarlar sisteminin təşkil olunması. Neftin quru ilə nəqli məsələsini Şıxov aşağıdakı kimi həll edir: o onu su kimi boru kəməri ilə vurmağı təklif edir. Və artıq 1878-ci ildə, o, iyirmi yaşlı mütəxəssis, A.V.Barinin rəhbərliyi altında Nobel qardaşları firması üçün rusiyada ilk kəmər, uzunluğu 9 km və diametri 3 dm olan Balaxanı – Qara şəhər neft kəmərini layihələndirir və inşa edir (neft Balaxanı neft mədənlərindən Bakıda, Qara şəhərdə yerləşən neftayırma zavodlarına vurulur). 1879-cu ildə uzunluğu 12 km olan ikinci Balaxanı – Qara şəhər





neft kəməri istismara verilir. 1884-cü ilə isə Balaxanı mədənlərində sutkada 200 min puddan çox neft ötürmək qabiliyyətinə malik artıq 5 neft kəməri var idi; bütün bu neft kəmərləri istedadlı mühəndislər Aleksandr Bari və Vladimir Şıxovun rəhbərliyi altında inşa edilmişdi. Hələ 1594-cü ildə məşhur quyu ustası Allahyar Məmməd Nuroğlu Balaxanıda böyük həcmdə neft verən, dərinliyi 35 m.-dən çox olan pilləli neft qurdu.

Dünya miqyasında neft-qaz ölkəsi kimi tanınan Azərbaycan qədim neftçıxarma tarixinə malikdir. Bu sırada "Balaxanıneft" Neft və Qazçıxarma İdarəsinin 1871-ci ildən sənaye üsulu ilə istismar etdiyi Balaxanı-Sabunçu-Ramana neft yatağı xüsusi əhəmiyyət kəsb edir.

Sonra sahibkarlar tərəfindən Balaxanı-Sabunçu-Ramana neft yatağına olan maraq artmağa başlayır və bir-birinin ardınca güclü neft fontanları baş verir. Neft hasilatı ildən-ilə artır. Əgər 1871-ci ildə neft hasilatı 19 min ton idisə, 1875-ci ildə 92 min ton, 1885-ci ildə 1 milyon 622 min ton, 1890-cı ildə 3 milyon 609 min ton, 1895-ci ildə 5 milyon 684 min ton, 1901-ci ildə isə ən yüksək zirvəyə qalxaraq 8 milyon 821 min ton olur. Bu da o vaxt dünyada çıxarılan neftin (20 milyon ton) 44 faizini, Azərbaycanda çıxarılan neftin (11 milyon ton) isə 80 faizini təşkil edirdi.

Vaxtilə Balaxanı kəndi Bakının əsas sənaye istehsalı və neft mərkəzlərindən biri idi. Bakı milyonçularının Balaxanıda neft mədənləri, neft emal edən zavod və qurğuları olmuşdur.

1869-cu ildə ilk dəfə olaraq vurma (maşınla) üsulu ilə qazma işləri Bakının Balaxanı, Bibiheybət, Binəqədi və Sabunçu sahələrində inkişaf etdirilmişdir.

1920-ci ildən başlayaraq yeni texnikanın inkişafı ilə fırlanma qazma üsuluna başlandı. Vurma üsülu ilə qazılan ən dərin quyu 800 m-ə qədər olduğu halda, fırlanma üsulu ilə

qazılan quyuların dərinliyi 7000 m-ə qədər çatdırılmışdır. Bu üsulla 35 neft quyusu qazılmışdır.

Hal-hazırda neft və qaz quyularını qazmaq üçün əsasən aşağıdakı üç müasir fırlanma üsulundan istifadə edilir.

1. Rotor qazması
2. Turbin qazması
3. Elektrik qazması

Dünyada ilk dəfə turbin üsulu ilə qazma 1924 -cü ildə Bakının Suraxanı yatağında qazılmışdır. Bu üsulun üstün cəhətlərindən biri odur ki, qazma boruları fırlanmadığı üçün onların sınması kimi hadisələr olmur, quyu divarının gilli məhlulla şirələnməsi daha intensiv olur və s. 1955-ci ildə bütün qazma həcminin 55%-ni turbin qazma üsulu təşkil edirdi.

1991-ci ildə Azərbaycan xalqı öz azadlığını əldə etmiş. Azərbaycan müstəqil Respublika olmuşdur. Xalqımız öz təbii sərvətlərindən özü istədiyi kimi istifadə etmək imkanları qazanmışdır. Beləliklə, Azərbaycanın həyatında yeni dövr başlanmışdır.

Hazırda bütün Respublika ərazisində, dənizdə və quruda neft-qaz quyularının qazılması, mənimsənilməsi işləri 2007-ci ildə təşkil edilmiş «Kompleks qazma işləri» trestinin qazma idarələrinin fəaliyyəti ilə yerinə yetirilir. Trestin kəşfiyyat qazma idarələri tərəfindən («Bayıl Limanı» DKQİ, Qobustan KQİİ) həmçinin dənizdə və quruda yeni yataqların istismara verilməsi nəzərdə tutulmuşdur. Çevik təşkilatı imkanlara malik olan «KQİ» tresti, neft və qaz quyularının qazılması zamanı rast gələnən geoloci-texnoloci və texniki qazma çətinliklərin, mürəkkəbləşmələrin, qəzaların və s.) operativ surətdə aradan qaldırılmasını təmin etməyə nail olmuşdur.

XIX əsrin sonunda neft sənayesində fəaliyyət göstərən 167 sahibkarın 49-u (24,8%) azərbaycanlı olmuşdur. O dövrdə neft sənayesinin inkişafında milli "neft milyonçuları"nın (Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov,





Şəmsi Əsədullayev, Seyid Mirbabayev və b.) böyük fəaliyyətləri olmuşdur.

1878-ci ildə Balaxanı yatağı ilə Bakı neftayırma zavodunu birləşdirən 12 km uzunluğunda Rusiyada ilk neft kəməri inşa edilir. 1898-ci ildə neft mədənləri ilə Bakı neftayırma zavodlarını birləşdirən neft kəmərlərinin ümumi uzunluğu 230 km idi. Bu kəmərlərdə ildə 1mln. t neft nəql edilirdi.

## BƏLƏDİYYƏ

Bələdiyyələr yerli səviyyədə sosial, iqtisadi və ekoloji proqramların hazırlanması və icrasını da həyata keçirir. Bu proqramlarla müvafiq sahələrdə konkret proqramların hazırlanması və həyata keçirilməsi də daxil ola bilər. Bu proqramlar yerli cəmiyyətin səciyyəvi ehtiyaclarını və istəklərini əhatə etməlidir. Məsələn, əhalinin xahişinə əsasən, bələdiyyə tərəfindən parkın salınması buna misal ola bilər. Bələdiyyənin aktlarında göstərilən xüsusi vergi prosedurlarına müvafiq olaraq, bu müəssisələr istehsalat xərclərini və məcburi ödənişləri azaldan və təqdim olunan xidmətlərin keyfiyyətini artıran vergi imtiyazlarından faydalana bilərlər.

"Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafa dair Dövlət Proqramında"(YAİİDP) hökumətin əsas strateji məqsədlərindən biri yerli idarəetmə sistemində xidmətlərin göstərilməsini və ictimai iştirakını təmin etməkdən ibarətdir" əsas hədəf kimi qeyd edilir. Amma buna baxmayaraq hələ də

bələdiyyələr əhalini təmin edəcək səviyyədə həm maliyyə, həm də inzibati imkanlara malik deyillər. Digər bələdiyyələrdə olduğu kimi Balaxanı bələdiyyəsi də məhdud vergi yığma səlahiyyətinə və zəif maliyyə əsaslarına malikdir. Buna baxmayaraq tərəfimizdən aparılan araşdırmalar göstərir ki, bəzi sektorlarda bələdiyyələr öz seçki dairələri üçün sərfəli olan əsaslı proqramlar təşəbbüsü ilə çıxış edə və onları işləyib hazırlaya bilərlər. Buna misal olaraq bələdiyyədə əlavə maliyyə mənbələrinin yaranması üçün bələdiyyə müəssisələrinin yaradılmasına başlanmalıdır.

Bələdiyyələrin statusunun yüksəldilməsi Azərbaycan hökuməti üçün də prioritetdir və bu Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafa dair Dövlət Proqramında (YAİİDP) öz əksini tapmışdır. "Hökumət dövlət sektorunda idarəetməni əks-mərkəzləşdirməyə çalışır. Bələdiyyələrin yaranması bu prosesdə önəmli addım sayılır. Əksmərkəzləşdirmə prosesinin bir hissəsi kimi bələdiyyələr yerlərdə mənbələrin bölüşdürülməsinin təkmilləşdirilməsini, regional inkişafın təşviqini və yerli əhalinin qərar-vericilikdə daha aktiv iştirak etməsini təmin etməklə yerli idarəetmənin güclənməsinə və qərar-vericiliyə yardım edə bilər". Əksmərkəzləşdirmə prosesi dedikdə bu mərkəzi hakimiyyət səlahiyyətlərinin yalnız qəsəbənin (kəndin), şəhərin inkişafına yönəlmiş müxtəlif qanunların və proqramların qəbulu, onların icrası üçün zəruri maliyyə resurslarının yerlərə çatdırılması ilə məhdudlaşır, regional hakimiyyət strukturları əlaqələndirici funksiyasını yerinə, yetirir, əsas qərarvermə səlahiyyəti bələdiyyələrə ötürülür. Avropa Birliyi ölkələrində əksmərkəzləşməyə əsaslanan idarəetmə üsulu üstünlük təşkil edir. Əslində bu yerli özünüidarəyə dair Avropa Xartiyasının tələbinə tam uyğundur. Belə ki, Xartiyanın 4.3-cü maddəsinə görə, hakimiyyət səlahiyyətləri bir qayda olaraq vətəndaşlara ən yaxın idarəetmə həlqəsi kimi yerli özünüidarə orqanlarına verməlidir. Avropa Şurasının yanaşması budur ki, yerli





əhəmiyyətli problemlərin həlli ilə bağlı səlahiyyətlərin bələdiyyələrə həvalə olunması həm səmərəli qərarların qəbuluna, həm də vəsaitlərin qənaətlə istifadəsinə təminat verir.

Bələdiyyələrin statusu haqda Qanuna görə bələdiyyə proqramlarını hazırlama və əhaliyə xidmət göstərmə sərbəstliyi vardır. Bura xüsusi ilə aiddir hökumətin və dövlət qurumlarının məşğul olmadığı sosial, iqtisadi və ekoloji cəhətdən vacib olan məsələlərə, eləcə də dövlət proqramlarına əlavə və tamamlama xarakteri daşıyan məsələlər. Məlumdur ki, bələdiyyələrin məşğul ola biləcəyi əsas sahələr bunlardır:

- yerlərdə sosial, iqtisadi və ətraf mühitlə bağlı proqramların işlənib hazırlanması və həyata keçirilməsi;
- təhsil, səhiyyə, mədəniyyət, sosial təminat və idman sahələrində proqramların hazırlanması və dəstəklənməsi;
- əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması üçün müxtəlif gəlir gətirən fəaliyyətlərin hüquqi şəxs formasında təşəkkül tapması.

Bələdiyyə üçün əsas gəlir mənbələri aşağıdakılardır:

- vergilər (torpaq vergisi, mülkiyyət vergisi, bələdiyyə müəssisələrindən və təşkilatlarından alınan gəlir vergisi) təbii sərvətlərin çıxarılmasından alınan icarə haqqı, küçə reklam lövhələrinə görə rüsumlar, mehmanxana rüsumları, avtodayanacaq üçün rüsumlar və s. , və dövlət büdcəsindən subsidiya və qrantlar və yaxud başqa yardımlar və ianələr.

- Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinə uyğun olaraq, bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir;
- onun qəbul etdiyi qərarlar Bələdiyyənin ərazisində yerləşən hüquqi və fiziki şəxslərin hüquq və səlahiyyətlərinin pozulmasına yönəldilə bilməz;
- bələdiyyələrin öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlar təşkilatı-hüquqi formasından asılı olmayaraq, bələdiyyənin ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən

hökmən icra edilməlidir;

- bələdiyyə qərarları onları qəbul etmiş orqanlar tərəfindən ləğv oluna ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər;

- bələdiyyə qərarlarının icra edilməməsi qanuna müvafiq surətdə məsuliyyətə səbəb olur.

Bələdiyyə idarəetməsinin mühüm funksiyalarından biri yerli səviyyədə iqtisadi, sosial və ekoloji proseslərin idarə olunmasının səmərəliliyinin yüksəldilməsinə, bələdiyyə ərazisinin kompleks inkişafının təmin edilməsinə xidmət edir. Bələdiyyə ərazisinin inkişafı planları və proqramları yerli özünüidarənin icra orqanı tərəfindən hazırlanır. Planlaşdırma metodu yerli özünüidarə orqanları tərəfindən yerli əhəmiyyətli bir çox məsələlərin həllində istifadə edilir. Yerli özünüidarə orqanları yerli özəlləşdirmə proqramlarını, yaşayış məntəqələrinin torpaq təsərrüfat quruculuğu planlarını, habelə məntəqənin baş planını hazırlayır. Həmin proqramlar aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər. Ərazinin inkişafı planlarında bələdiyyə torpaqlarından və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yolları göstərilir. Həmin proqramlara ekoloji tarazlığın qorunub saxlanması, bələdiyyə ərazisinin yaşıllaşdırılması və abadlaşdırılması, torpağın çirklənmədən qorunması və yerli əhəmiyyətli digər tədbirlər nəzərdə tutula bilər.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun IV fəsli (mad. 26-31) vətəndaşların yerli özünüidarənin həyata keçirilməsində iştirakı formalarından bəhs edir. Bələdiyyənin fəaliyyət göstərdiyi ərazinin əhalisi yerli əhəmiyyətli məqsədlərə dair rəy sorğusunda iştirak edir və yaxud da belə sorğunun keçirilməsini tələb etmək hüququ vardır. Rəy sorğusunda bələdiyyə ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşlar iştirak edir. Vətəndaşlar rəy sorğusunda bilavasitə və könüllülük əsasında iştirak edirlər. Rəy sorğusunda səsvermə gizli və ya açıq keçirilir, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.





Bundan əlavə vətəndaşlar bələdiyyələrə seçkilərdə seçki hüquqları təmin edilməklə, ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi, gizli səsvermədə iştirak edirlər.

Bələdiyyənin nizamnaməsinə uyğun olaraq əhalinin yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək hüququ vardır. Yerli əhəmiyyətli məsələlər barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının layihələri təxminən əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarında müzakirə olunur. Nəticələri isə rəsmən elan edilir.

Yerli özünüidarənin həyata keçirilməsində əhalinin iştirakının digər formalarına məhəlli komitələri, assosiasiyalar, xeyriyyə təşkilatların da iştirakını göstərmək olar.

Azərbaycan Respublikasının Konstitusiyasına, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa, başqa qanunlara və bələdiyyənin nizamnaməsinə zidd olmayan digər formalarda da iştirak edə bilərlər. Belə formalardan ən effektlisi gənclərin məhəllə komitələri ilə əməkdaşlığının genişlənməsidir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə müvafiq olaraq bələdiyyələrin məhəllə komitələri bələdiyyələrin səlahiyyətlərinə aid məsələlərin həllində onlara kömək məqsədilə vətəndaşların yaşayış yeri üzrə öz təşəbbüsü ilə yaratdıqları könüllü birliklərdir. Məhəllə komitəsi ərazi prinsipi üzrə yaradılır. Məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazi ayrıca bir və ya bir neçə evin (məhəllənin) hüdudları ilə müəyyən edilir. Məhəllə komitəsi, həmin komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan əhalinin yığıncağında 5-11 üzvdən ibarət tərkibdə açıq səsvermə yolu ilə iki il müddətinə seçilir. Yığıncaq komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 15 faizi iştirak etdikdə səlahiyyətlidir . Həmin yığıncaqda məhəllə komitəsinin sədri, sədr müavini və katibi seçilir. Məhəllə komitəsinin tərkibində həmin ərazidə yaşayan, yaşı 18-dən aşağı olmayan vətəndaşlar

seçilirlər. Vətəndaşların yığıncağında iştirak edənlərin səslərinin yarısından çoxunu toplamış şəxslər bu komitənin tərkibinə seçilmiş hesab olunurlar. Məhəllə komitəsi vətəndaşların yığıncağının qərarı ilə vaxtdan əvvəl tamamilə və ya qismən yenidən seçilə bilər. Vətəndaşların yığıncaqları məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan səsvermə hüququ olan şəxslərin azı 10 faizinin və ya məhəllə komitəsi üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır. Komitənin yeni üzvlərinin seçilməsi bu maddədə nəzərdə tutulmuş qaydada həyata keçirilir. Məhəllə komitəsi görüləcək tədbirlərin siyahısını və növbəliliyini müəyyən edir və görülmüş işlərin uçotunu aparır. Məhəllə komitəsi, lazım olan hallarda, lakin iki ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır və üzvlərin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir. Məhəllə komitəsinin iclasları açıq keçirilir. Məhəllə komitəsinin qərarları açıq səsvermə vasitəsi ilə və adi səs çoxluğu ilə qəbul olunur. Məhəllə komitəsi öz fəaliyyəti barədə altı ayda bir dəfə vətəndaşların yığıncağında hesabat verir. Yığıncağın keçirilməsi haqqında müvafiq məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan şəxslərə bir həftə qabaq məlumat verilməlidir. Məhəllə komitələri aşağıdakı əsas səlahiyyətləri həyata keçirir :

- yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyələr qarşısında vəsatət qaldırmaq ;
- yerli əhəmiyyətli məsələlərlə bağlı vətəndaşların yığıncaqlarını keçirmək;
- yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək və həmin aktların layihələrini əhalinin iştirakı ilə açıq iclaslarda müzakirə etmək ;
- müvafiq bələdiyyə torpaqlarından istifadəyə dair rəy və təkliflər vermək ;
- yaşayış məntəqələrinin abadlaşdırılması, yaşıllaşdırılması, sanitariya vəziyyətinin yaxşılaşdırılması, uşaq və idman meydançalarının, avtomobil yollarının, küçələrin, səkilərin, digər obyektlərin tikintisi, yenidən qurulması, təmiri və saxlanması işində əhalinin iştirakını təşkil etmək ;





- təbiətin, tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında qanunvericiliyə riayət olunmasına kömək etmək ;
- məktəb yaşlı uşaqların təhsilə cəlb edilməsində tədris müəssisələrinə kömək etmək;
- uşaq və gənclərin istirahəti, idmanla məşğul olması üçün şəraitin yaradılmasına kömək etmək ;
- fəaliyyət göstərdiyi ərazidə yaşayan imkansızlara, xəstələrə və ahıl vətəndaşlara yardım göstərmək;
- yerli əhəmiyyətli məsələlərin həllində əhalinin təşəbbüskarlığının və özünüidarəetmə təcrübəsinin inkişafına kömək etmək ;

Məhəllə komitələri öz səlahiyyətlərini könüllü ianələr və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirir. Bələdiyyələr məhəllə komitələrinin verdiyi rəy, təklif və ya vəsatətlərə bir ay ərzində cavab verməlidirlər. Hər hansı məsələyə dair məhəllə komitələrinin rəyi həmin məsələlərin həlli zamanı bələdiyyələr tərəfindən nəzərə alınır. Bələdiyyələrlə məhəllə komitələrinin fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə komitələr bələdiyyələrdə siyahıya alınır. Siyahıya alınma vətəndaşların yığıncağının protokolu əsasında həyata keçirilir.

Vətəndaşların bələdiyyələrin ictimai və gündəlik həyatında iştirakı demokratik düşüncənin əsas komponentidir. Effektiv demokratiya ictimai qərarların qəbulunda əsas qüvvə və iştirakçı olan vətəndaşların müdaxiləsini labüd edir. Xalq təmsilçiləri institutu olan strukturların (bələdiyyələrin) qərar qəbulu prosesində vətəndaşların səsinə mütləq qulaq asmaq və onları "eşitmək" müasir konstitusional quruluşların təbii tələbatıdır. Bu baxımdan yerli demokratiyanın fundamental

tələblərindən biri bələdiyyələrin yerli məsələlər ilə bağlı çıxardığı qərarlara vətəndaşlar tərəfindən təsir etmək hüququnun olmasıdır. Bu növ demokratik tələblərə cavab vermək üçün müəyyən institutsional qurumların təsis edilməsi və zəruri tədbirlərin həyata keçirilməsi lazımdır. Bu zaman təkcə səsvermə yolu ilə yox məhz bir çox vasitələrin tətbiqi ilə vətəndaşlar öz tələb və istəklərin ifadə etmək ixtiyarında olacaq, vətəndaşların iştirakı birbaşa demokratiya vasitəsi ilə təmin ediləcəkdir.

Qeyd etmək lazımdır ki, "Bələdiyyələrin statusu haqqında" qanun, xüsusilə IV fəsli "Vətəndaşıarın öz iradəsini birbaşa ifadə etməsi və yerli özünüidarənin həyata keçirilməsinin digər formaıarı" adlanır və bu bölmə qərar qəbulunda vətəndaşların birbaşa iştirakına hüquqi təminat verir. "Vətəndaşların məhəllə komitələri barədə Əsasnamə" də vətəndaşların öz təşəbbüsü əsasında bələdiyyə orqanlarına yardım etməklə bələdiyyələrin işində bilavasitə iştirakı təmin edilir.

"Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikasının qanununda (maddə 1) göstərilir ki, "Yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyə ərazisində yaşayan vətəndaşların rəyi öyrənilməlidir". Bu qanunda göstərilir ki, Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilmiş yerli əhəmiyyətli məsələlər yerli rəy sorğusuna çıxarıla bilər (maddə 2). Lakin qanun hansı məsələlərin yerli rəy sorğusuna cəlb oluna biləcəyini müəyyən etmir. Bu qanunun 3-cü maddəsi ancaq qadağan olunmuş məsələləri müəyyənləşdirir. 6-cı maddə vətəndaşların yerli rəy sorğusunda iştirak etmək hüququnu təmin edir. Yerli rəy sorğusunun nəticələrinin hüquqi qüvvəyə minməsi üçün





bələdiyyə müvafiq qərar qəbul etməlidir. 4-cü maddə bələdiyyənin qərarı bələdiyyə ərazisində məcburi hüquqi qüvvəyə malikdir" hökmünü təsbit edir. 5-ci maddə yerli rəy sorğusunun keçirilmə prinsiplərindən bəhs edir. Göstərilir ki, sorğuda vətəndaşlar bilavasitə və könüllülük əsasında iştirak etməli, sorğu ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, gizli keçirilməlidir. Yerli rəy sorğusu zamanı vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol vermək olmaz. Bütün bu tələblər yerli demokratiyanın əsas göstəriciləridir.

Əsas qüvvə və iştirakçı olan vətəndaşların ictimai qərarların qəbulunda iştirakı «Bələdiyyələrin statusu haqqında» qanunun digər maddələri ilə təsbit edilir. «Bələdiyyələrin statusu haqqında» qanunun 28-ci maddəsinə uyğun vətəndaşların yığıncaqlarının keçirilməsi, 29-cu maddəsinə uyğun əhalinin bələdiyyə aktları yaratmaq təşəbbüsü, 30-cu maddəsinə uyğun vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciəti, 31-ci maddəyə uyğun yerli özünüidarənin həyata keçirilməsində əhalinin iştirakının digər formaları, o cümlədən, Məhəllə komitələri barədə müddəaları göstərmək olar.

Çox təəssüflər olsun ki, Balaxanı bələdiyyəsi də digər bəzi qsəbə bələdiyyələri kimi maliyyə cəhətdən ən kasıbıdır. Baxmayaraq ki, Balaxanı bələdiyyəsi ərazisində müxtəlif sənaye müəssisələri var. Qəsəbə ərazisində xeyli sayda zavod fəaliyyət göstərsə də, həmin müəssisələrdə az sayda Balaxanı qəsəbə əhalisi işlə təmin olunub. Qəsəbə ərazisində işləyən zavod və müəssisələrin əksər işçiləri kənar yerlərdən gələnlərin hesabına formalaşdırılıb. Qəsəbə bələdiyyəsinin yeni seçilmiş sədri Malik Novruzov bildirir ki, "...neft mədənləri tərəfindən qəsəbə

ərazisində yaranmış mazutlu çirkab gölləri barədə Azərbaycan Respublikası Dövlət Neft Şikrətinə yazılı məlumat vermişik: "Şirkətdən cavab veriblər ki, 2011-2013-cü illər ərzində mədən sahələri təmizlənəcək. Onu da qeyd edim ki, bələdiyyənin nəzdində bir qarış da olsa torpaq sahəsi yoxdur. İşçilərə əməkhaqqı verə bilmirik. Əksər işçiləri öz hesabına məzuniyyətə buraxmışıq. Əhalidən yığdığımız cüzi miqdarda pulları qəsəbənin abadlıq işlərinə sərf edirik. Əhalinin maddi durumu isə yaxşı deyil. Hətta əhali enerjiyə olan köhnə borclarını belə ödəyə bilmir".

## QƏSƏBƏNİN EKOLOJİ DURUMU

Məlum olduğu kimi ölkənin sosial-iqtisadi həyatında neft-qaz hasilatının oynadığı rol əvəzsizdir. Amma buna baxmayaraq hasilat sənayesinin ölkə üçün miras qoyduğu ən aktual problemlərdən bir də ətraf mühitə yaratdığı mənfi təsirlərdir ki, bu da yaşayış mühitinin son dərəcə ağırlaşmasına səbəb olur.

İnqilabdan qabaq və sovetlər dövründə ekoloji təhlükəsizlik normalarına əməl olunmadan tətbiq olunmuş ekstensiv istehsal metodları Balaxanı qəsəbəsində də onlarla hektar torpaqların və su ekosistemlərinin neft və neft məhsulları və onların uyğun tullantıları ilə çirklənməsinə səbəb olmuşdur.







*Balaxanı qəsəbəsi 2-ci mədən ərazisi, 2012-ci il*

Bu çirklənmələrin nəticələrinin bu gün də aradan qaldırılmaması təbii mühitin sağlamlaşdırılması üçün adekvat addımlar atmaq niyyətində olan Azərbaycan Hökumətini ciddi narahat edir.



Yaranmış gərgin ekoloji vəziyyəti sağlamlaşdırmaq məqsədi ilə



***"AKKORD" Sənaye Tikinti İnvestisiya Korporasiyası ASC-nin Balaxanıdakı asfalt zavodu, 2012-ci il***

Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2006-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında



***Balaxanı qəsəbəsində buruq ətrafı ərazi, 2012-ci il***





ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"na Abşeronun bərpasına aid bir neçə məsələnin həlli məqsəd kimi qoyulmuş və bu Kompleks Tədbirlər Planı çərçivəsində artıq öz ömrünü başa vurmuş və təcili dəyişdirilməsi tələb olunan kommunikasiyaların yenidən qurulması və yeni infrastruktur sahələrinin yaradılması üzrə işlərin tərkib hissəsi kimi müvafiq tədbir həyata keçirilmiş və işlər davam etdirilməkdədir.

Vizual müşahidə etmək olur ki, Balaxanı qəsəbə ərazisində müxtəlif növ çirklənmələr var:

- açıq neft anbarları yerində bitum qatı ilə örtülmüş və üstü torpaqla bağlanmış neftli torpaqlar;
- açıq neft anbarları ləğv edildikdən sonra daşınmaqda olan torpaq-neft qatışıqlı ərazilər;
- qazma şlamları və neftlə çirklənmiş torpaqlar;
- neft mədənləri ərazisində neftin nəqli yollarında (borularda) baş vermiş qəza nəticəsində yaranan çirklənmələr;
- lay sularının axdılması zamanı yaranmış və hazırda qurumuş göllər;
- neft mədənləri və onlara yaxın ərazilərdə neft mənşəli zərərli birləşmələrin konsentrasiyası;
- ümumilikdə bütün neft mədənləri ərazilərinin bioremidasiyaya ehtiyacı olan ərazilər.

Neft sənayesi sahəsində yaranan əsas problemlərdən biri də radioaktiv çirklənmələrdir. Problemin fiziki mexanizmi neftlə birgə səthə çıxarilan lay sularında radium izotoplarının olmasıdır. İlkin halda səthə çıxarılan hər kub metr suda bu izotoplar cüzi və zərərsiz miqdarda olsa da, milyon tonlarla lay sularından aramsız akkumulyasiya olunaraq radiumun kiçik sahədə güclü konsentrasiyada yığılması ciddi problemlər yaradır. Radium izotoplarının akkumulyasiyası iki cür baş verir:

– lay sularının axdıldığı göllərdə su buxarlanır, radium izotopları isə radiobarit birləşmə formasında çökür;

– neft-lay suyu qarışığı keçən boruların divarında radiobarit çöküntüləri yığılır ki, bunları da keçmiş illərdə xüsusi briqadalar bilavasitə neft mədənlərində daşıyaraq torpağa atırdılar. Nəticədə demək olar ki, bütün neft mədənlərində, izotoplarının konsentrasiyası normadan artıq olmalıdır. Radiasiya təhlükəsizliyini müəyyən etmək məqsədilə bu ərazidə xüsusiləşdirilmiş tədqiqatların aparılması zəruridir.

Bu ərazilərdə digər tullantılara da rast gəlinir. Ərazidə böyük həcmdə müxtəlif mənşəli tullantılar müəyyən edilmişdir. Bunlara müxtəlif tikinti tullantıları, beton bloklar, sənaye və məişət tullantılarını aid etmək olar. Müşahidə etmək olar ki, çirklənmənin intensivliyi və sahəsi günü-gündən qanunsuz zibilxanaların hesabına arta bilər.

Onu da qeyd etmək lazımdır ki, istənilən texnogen prosesin ətraf ekoloji və sosial mühitə mənfi təsirindən qaçmaq qeyri mümkündür. Çünki, bütün proseslər öz həcminə və əhəmiyyətinə görə təsirlərə malikdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istənilən layihənin mənfi təsirinin aradan qaldırılması üçün ilkin kapital qoyuluşları tələb olunur. Aydın məsələdir ki, karbohidrogen ehtiyatları ilə zəngin olan ölkələrdə bu ehtiyatlar həm ölkənin iqtisadiyyatına, həm də əhaliyə bütövlükdə fayda verməklə, ətraf mühitə, sosial mühitə, cəmiyyətə, insanların sağlamlıqlarına, təhlükəsizliyinə də mənfi təsirlər yaradır.

Qazma işləri ilə əlaqəli yaranan şlamların və digər tullantıların idarə edilməsi məsələsi həmişə hasilat sənayesi ilə məşğul olan təşkilatın qarşısında problem məsələ kimi qaldırılır. Neft-qaz hasilatı ilə məşğul olan şirkətlər adətən tullantıların idarə olunmasında maraqlı olmurlar. Daha doğrusu əlavə xərc çəkməkdən yayınırlar və nəticədə də tullantıların da ətraf ərazilərə atılması prosesi baş verir. Bir sözlə tədqiq olunan xarici





təcrübə göstərir ki, hasilat ərazisində (mədən və ona yaxın ərazilər), istərsə də nəql olunan marşrutlarda həmişə ətraf mühitə təsirlər hökmən olmalıdır. Bu təsirlər də ən çox havaya, su mühitinə eləcə də torpağa, insan və biomüxtəlifliyə olur. İdarə və müəssisələrə məxsus nəqliyyatın və ağır tonnajlı maşınların hərəkəti zamanı yollar bərbad vəziyyətə düşür. qazma avadanlıqlarının və qurğuların istismarı zamanı həddən



artıq səs-küy yaranır, mövcud yerli resurslardan istifadə olunmur (məsələn işçi qüvvəsindən). Vəziyyətdən çıxış yolu nədədir? Məsələ ondadır ki, mənfi təsirlərin aradan qaldırılması şirkətlərin işə məsuliyyətli yanaşması ilə bərabər, burada vətəndaş nəzarətinin də müəyyən rolu olmalıdır. Məlum məsələdir ki, neft-qaz hasilatı aparılan sahələrdə yaşayan sakinlərin təbii sərvətin mənimsənilməsindən bəhrələnmək hüquqları vardır. Təcrübə isə göstərir ki, əks hal yaranır, yəni əhali nəinki, əldə olunan vəsaitdən bəhrələnir, hətta bəzən

əmlakını və sağlamlığını itirir. Amma, təşkilatlara da xatırlatmaq lazımdır ki, belə bir beynəlxalq hüquq norması da vardır ki, "Bütün xalqlar öz məqsədlərinə nail olmaq üçün öz təbii sərvətləri və ehtiyatları barəsində qarşılıqlı mənfəət prinsipinə və beynəlxalq hüquqa əsaslanan beynəlxalq iqtisadi əməkdaşlıqdan irəli gələn hər hansı öhdəliyə zərər yetirmədən azad sərəncam verə bilər". Belə bir hala malik olmaq üçün neft-



***Balaxanı qəsəbəsində buruq ətrafı ərazi, 2012-ci il***

qaz istehsalı ilə məşğul olan ölkələrin təcrübəsindən istifadə edərək, təsirlərin azaldılması istiqamətində dövlət nəzarətinin təmin olunması ilə yanaşı vətəndaş nəzarətinin də təşkili müsbət effekt verə bilər.

Əksər inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, neft-qaz hasilatının istismarı ilə yaranan problemin həllində vətəndaş cəmiyyətinin fəal iştirakı müəyyən problemin aradan





qaldırılmasında, şəffaflığın artırılmasında təsiredici rola malik olur. Belə bir təcrübədən Balaxanı qəsəbəsində də istifadəsi müəyyən effekt verə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi milyonçular, ziyalılar kəndi olan Balaxanı qəsəbəsinin müasir ekoloji durumu ürəkaçan deyildir. Belə ekoloji təsirlərin yaranma tarixi Balaxanıda neftçıxarma ilə başlasa da, həmin vaxtlardan ekoloji duruma fikir verilməmişdir. Ona görə ki, qəsəbədə əhali az, sahə isə böyük idi. Təsirlər o qədər də his olunmurdu və hasilat da indiki səviyyədə deyildi. O vaxtkı milyonçuların da fikri çoxlu neft çıxarmaqla, varlanmaq olmuşdur. Sovet hakimiyyəti dövründə də yalnız məqsəd neft istehsalının artırılması olmuş, ərazinin yaxşılaşdırılması, burada məskunlaşmış əhalinin müasir səviyyədə sosial vəziyyətinin yaxşılandırılmasına fikir verilməmişdir. Beləliklə illərlə neftçıxarma işlərinin müxtəlif səviyyələrdə aparılması, təhlükəsizlik texnikalarına riayət edilməməsi, müasir üsullardan



***Balaxanı qəsəbəsində buruq ətrafı ərazi, 2012-ci il***

yararlanmadan aparılan işlərin nəticəsi olaraq Balaxanı qəsəbəsinə son həddə çatan bərbad ekoloji vəziyyət gəlib çıxmış, əhalinin sağlamlığı üçün təhlükələr artmışdır. Onu da nəzərə almaq lazımdır ki, mütəxəssislərin fikrincə Abşeron yarımadasında radiasiya təhlükəsinin əsas mənbəyini texnogen faktorlar təşkil edir. Bu faktorlar isə əsasən mədən işlərində ortaya çıxır. Yəni, yerin təkindən neft və qazla yanaşı, radioaktiv elementlər də çıxır və onlar qazma quyularının ətrafında toplanıb qalır. Belə lokal çirklənmələr olan ərazilərdə radiasiya fonu bəzən 1000-1500 mikrorentgen-saata çata bilir. Demək, ola bilsin Balaxanı qəsəbəsi ərazisində də belə təhlükə olsun. Düşünürük ki, Balaxanı qəsəbəsi ərazisində şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonunun "Təmiz Şəhər" ASC-nin ekoloji monitorinq qrupu və Balaxanı qəsəbəsində şəhər şosesi 13-də yerləşən SOKAR-ın Ekoloji Monitorinq departamentinin diqqətindədir belə məsələlər olmalıdır. Yoxsa istiləşmə prosesi ilə əlaqədar qəsəbə ətrafı və yaşayış evlərinə yaxın olan mazutlu göllərin yaratdığı xoşagəlməz hallar daha da artmış ola bilər. Xüsusi ilə son vaxtlar neft sənayesinin sürətli artımı və qəsəbədə fəaliyyət göstərən "AKKORD" Sənaye Tikinti İnvestisiya Korporasiyası ASC-nin Balaxanıdakı 5 asfalt zavodunun ( çox təəssüflər olsun ki, ASC-nin rəhbərinə 25 iyul 2012-ci il tarixdə rəsmi məktubumuza cavab ala bilmədik. Məktuba Afaq Quliyeva adlı şəxsin cavab verəcəyi bildirilsə də dəfələrlə həmin şəxsə zəng vursaq da onunla əlaqə yaratmadılar) və "Balakhani Operating Company LTD" Şirkətinin Azərbaycandakı filialının sexləridir. Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyev 22 mayda Milli Məclisin mayın 6-da ratifikasiya





etdiyi "Balaxanı-Sabunçu-Ramana və Kürdəxanı" yataqlarının istismarı üzrə kontraktı təsdiq edib. Bu kontrakt Azərbaycan Dövlət Neft şirkəti ilə Almaniyanın UGE-Lanser Ltd şirkətləri arasında 2010-cu il iyunun 3-də imzalanıb (http://www.radio.day.az /news / economy/13073. htmlvəhttp://az.salamnews.org/az/news/read/52027/balaxani-sabunccedilu-ramana-ve-kuumlrdexani-yataqlarinin-istismarina-bashlanilir/ ) və 2011-ci ilin iyununda qüvvəyə minib. Məlumata görə, həm kontrakt, həm də ona aid olan 9 protokol və 1 əlavə qüvvəyə minib. Kontraktın reallaşdırılması ilə bağlı bütün əməliyyatlar Azərbaycan tərəfindən sanksiyalaşdırılmalıdır. Kontrakta dəyişiklik və dəqiqləşmələr isə tərəflərin qarşılıqlı razılığı əsasında həyata keçirilə bilər. $1 mlrd. dəyərində olan kontrakt 25 ilə imzalanıb. Amma onun müddəti sonra da artırıla bilər. UGE-Lanser Ltd (layihənin operatoru) ARDNŞ-nin layihədə nəzərdə tutulan maliyyə öhdəliklərini öz üzərinə götürür. Kontraktın qüvvəyə minməsindən 90 gün sonra UGE-Lanser investisiyaların göstərildiyi dəqiqləşdirilmiş işçi proqram təqdim etməlidir. Operator kontraktın qüvvəyə minməsindən sonra $2 milyon dollar bonus ödəməlidir. Hasilat 2009-cu ilin səviyyəsindən 1,5 dəfə çox olarsa şirkətin daha $2 milyon ollar ödəmək öhdəliyi də var.

Layihənin reallaşacağı kontrakt sahəsi 16,14 kvadrat metr təşkil təşkil etməklə "Balaxnı-Sabunçu-Ramana" və "Kürdəxanı" neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişdə «UGE-Lanser PTL Ltd.» şirkətinin iştirak payı 75%, ARDNŞ-in Ortaq Neft Şirkətinin payı isə 25% müəyyən edilib. Məsrəflərin əvəzinin ödənilməsindən sonra qalan mənfəət karbohidrogenlər ARDNŞ ilə podratçı arasında «R» faktoru

mexanizminə əsasən bölüşdürülüb. Burada Azərbaycan tərəfinə düşən pay 55%-dən 92,5%-ə kimi artacaq.

Qeyd edək ki, 1871-ci ildən işlənmədə olan "Balaxanı-Sabunçu-Ramana" yatağından indiyə qədər 9 549 quyu qazılıb, 271 mln. ton neft çıxarılıb. Blokun çıxarıla bilən qalıq neft ehtiyatı 7,3 mln. ton həcmində qiymətləndirilir. Ötən il yataqdan 208,2 min ton neft çıxarılıb. Hazırda "Balaxanıneft" NQÇİ-nin balansında olan yatağın istismar fondunda 1 124 quyu işlək, 328 fəaliyyətsiz quyu var. "Kürdəxanı" yatağı "Balaxanı-Sabunçu-Ramana" yatağından 8 km şimalda yerləşir. Yataqda geoloji axtarış və kəşfiyyat işləri 1914-1947-ci illərdə aparılıb. İşlənmənin əvvəlindən 1 yanvar 2010-cu ilə qədər yataqda 59 quyu qazılıb, 198 min ton neft çıxarılıb. Yatağın qalıq çıxarıla bilən neft ehtiyatı 205 min tondur. Qeyd edək ki, 2009-cu ildə bu yataqdan 0,730 min ton neft çıxarılıb.

Vergilər Nazirliyinin məlumatına görə, Azərbaycanda Balakhani Operating Company Ltd şirkətinin filialı qeydiyyata alınıb. Onun təsisçisi olan Balakhani Operating Company Ltd Böyük Britaniyanın Vircin adalarından qeydiyyata alınıb, təmsilçiliyin rəhbəri Yurgen Şlossmaxer Almaniya vətəndaşıdır.

Balaxanı qəsəbəsində ətraf mühitə mənfi təsiri ilə seçilən "AKKORD" Sənaye Tikinti İnvestisiya Korporasiyası ASC-nin Balaxanıdakı 5 asfalt zavodudur. Bu zavodlar ətrafa tüstüsü və ağır tonnajlı avtomobilləri ilə ziyan verməklə işlərini davam etdirirlər.






*"Təmiz Şəhər" ASC-nin yararlı hala gətirdiyi ərazi, 2012-ci il*

Qabaqlar qəsəbəyə yaxın zibil poliqonu da bir vaxtlar qəsəbənin çirkləndirilməsində xüsusi "rolu" var idi. Poliqon Balaxanı ərazisində yolun üstündə yerləşdiyinə görə xüsusi avadanlıqla təchiz olunmadığı üçün, zibil maşınları yol boyu


*Balaxanı qəsəbəsində Müasir idman mərkəzi*



**Balaxanı qəsəbəsi 2-ci mədən ərazisi, su dalınca, 2012-ci il**

zibili tökə-tökə gedir, kənd yolunu və həmçinin kənar sahələri də zibilləyirdi. Şükürlər olsun ki, son zamanlar zibil poliqonunun vəziyyəti tamam dəyişmiş, burada gələcək



perspektivli işlərin aparılması gözlənilir. İndiki durumda az da





olsa poliqonun ətrafı zibillikdən təmizlənərək, yaşıllıq salınıb. Demək istək olsa Balaxanı ərazisinin tamamilə neft gölməçələrindən və zibilliklərdən təmizləmək olar. Bu işlərin davamı qalır rəhbər işçinin təşəbbüskarlığına. Amma hiss olunur ki, "Təmiz Şəhər" ASC-nin rəhbərliyinin qəti fikri ondan ibarətdir ki, verilən tapşırığı yerinə yetirsinlər. Bu əzmkarlığı bizimlə görüşdə təşkilatın idarə heyətinin sədr müavini Etibar Abbasovun sözlərində də hiss olundu. Birdəfəlik zibilliklərin həlli istiqamətində işlər aparılır. Hətta son zamanlar Milli Məclisdə də zibilliklərin təmizlənməsi istiqamətində ciddi addımların atılması haqda məsələdə müzakirə olunmuş qərar qəbul edilmişdir.

Milli Məclisdə zibilliklərin yandırılmasına görə cəzanın sərtləşdirilməsi təklifləri millət vəkilləri tərəfindən səsləndirilmişdir. Yeni dəyişikliyə əsasən, zərərsizləşdirmək məqsədilə məişət tullantıları tutumlara (urnalara) atılmalıdır. Bu tullantıların tutumlardan (urnalardan) kənar yerlərə atılması, həmin yerlərdə saxlanılması və ya basdırılması qadağandır. Həmçinin şəhərlərdə və rayon (şəhər rayonları istisna olmaqla) inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumlar (urnalar) arası məsafə 100 metrdən çox olmamalıdır. Məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, həmin yerlərdə saxlanılmasına görə fiziki şəxslər 20 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər isə 500 manat həcmində cərimə olunacaq. Odur ki, qanunların sərtləşməsi ətraf mühitin yalnız sağlamlaşmasına xidmət edəcəyinə bizdə əminlik yaradır.

Artıq Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən Bakı şəhərinin Balaxanı qəsəbəsində Bərk Məişət Tullantılarının Yandırılması Zavodu inşa olunur (http://www.tamizshahar.az/index.php?/az/content/185/). Çünki, müasir texnologiyalar və əhalinin həyat tərzində son 20 ildə baş vermiş dəyişikliklər tullantıların kəskin surətdə artmasına səbəb

olub. Xarici məhsulların bazarlarımıza, plastik, sellofan qablarda daxil olması, əhalinin artımı ilə məişət tullantılarının həcminin kəskin artması zibilliklərin müxtəlif tullantılarla çoxalmasına səbəb olmuşdur. Zibilliklərdə müxtəlif məmulatların toplanması, daşınma və utilizasiyasında da müəyyən problemlərin yaratdığını müxtəlif dövrü mətbuat və jurnallarda rast gəlinir. Bildirilir ki, zibilliklərin çeşidlənməsi, onun təkrar müxtəlif məqsədlər üçün istifadəsində çox asan şərait yaradır. Ona görə ki, üzvü məişət tullantıları ilə, şüşə, plastik qab və s. müxtəlif tullantıların bir yerdə yığılması onun yenidən işlənilməsini çətinləşdirir. Dünya təcrübəsində bərk məişət tullantılarının emalında əldə edilən ən mühüm uğuru çeşidləmədə görürlər. Bu işin uğurlu olmasında həm müəssisələr, həm də əhalinin səyi ən mühüm haldır. Yeri gəlmişkən burada bir məsələni xatırlatmaq yerinə düşərdi. Məlumata görə Bakıda il ərzində təxminən 1 milyon tona yaxın zibil yaranır. Gün ərzində adambaşına 700-800 qram məişət tullantısı atılır. Bu tullantılar da çeşidlənmədən zibil qutularına atılır və oradan da zibilxanalara daşınır. Məişət tullantılarının çeşidlənməsində əhali, tullantıları daşıyan və onu emal edən müəssisələrdən çox şey asılıdır. İlk öncə əhalidən o tələb oluna bilər ki, məişət tullantılarını çeşidləsinlər. Bu yalnız mənzillərdə aparıla bilər. Yəni mənzil sahibi ona lazım olmayan əşyanı müxtəlif qablara yığsın. Artıq belə bir təcrübə xarici ölkələrdə istifadə olunur. Bir çox inkişaf etməkdə olan ölkələrdə isə məişət tullantıları üçün xüsusi rəngli sellofan torbalar paylanır. Rəngli torbalar öz rənglərinə görə onlara atılacaq tullantıların mənalarını bildirir. Yaxud da küçələrdə yerləşdirilən zibil qablarının üzərində lazımi şəkillər yapışdırırlar. Bu da onu göstərir ki, hansı tullantını hansı qaba atasan. Belə hallara da







rast gəlinir ki, həftənin müəyyən günləri üçün şüşə, taxta, metal (tez xarab olmayan və buxarlanmaya məruz qalmayan ) və s. qırıntı tullantılarının daşınması günü olur. Yəni tullantılar ayrı-ayrı təyinatlı maşınlarla daşınır. Bizdə isə əks halın



*Tikiləcək Balaxanı Sənaye Parkı*

şahidi oluruq. Çox yaxşı və təqdirəlayiq haldır ki, Bakı şəhəri İcra Hakimiyyəti bəzi avtodayanacaqlarda ağır metaldan olan zibil qutuları qoyub. Bu qutular müasir səviyyəyə cavab verən xüsusi təyinatlı olan qutulardır. Yəni qutunun tullantını çeşidli atılması üçün 3 hissədən ibarət qapağı var. İnsafən nəzərə çatdırmaq olar ki, bu qutuların təyinatı haqqında maarifləndirmə




***Vətəndaş Təşəbbüsləri mərkəzinin Balaxanı qəsəbəsində təşkil etdiyi dəyirmi masada müzakirələr 28 iyul 2012-ci il***





işləri aparmadan müşahidə etmək olar ki, müəyyən qədər də olsa əhali müvafiq gözlərə zibili atırlar. Amma gəl görək həmin qutulardan zibillər necə daşınır. Adi qaydada. Yəni zibil maşını həmin zibili bütünlüklə eyni konteynerə boşaldıb aparır. Onda məlum olmur ki, nə qədər xərclə alınan bu qutular nəyə lazım idi? Tullantılar çeşidlənsə onun zərərsizləşdirilməsi ilə məşğul olanlar çətinliyə düşməz.

İnformasiya vasitələrindən məişət tullantılarının çeşidlənməsi ilə bağlı məlumatlara son vaxtlar rast gəlmək olur. Azərbaycanda da belə bir təcrübə artıq mövcuddur. "Təmiz şəhər" ASC "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu ərazisində yaranan bərk məişət tullantılarının daha səmərəli idarə edilməsi məqsədi ilə bir neçə ildir ki, tullantıların çeşidlənməsi üzrə tədbirlər həyata keçirir. Onu d a q eyd e tmək lazımdır ki, qanunvericiliyimizdə istehsalçıların buraxdığı məhsulun emalına cavabdehliyi nəzərdə tutulub. Belə ki, 30 iyun 1998-ci il tarixli 514 saylı "İstehsalat və məişət tullantıları haqqında" qanunda tullantılarla bağlı fəaliyyətdə ətraf mühitə dəyən zərərin, zərər yetirən tərəfindən ödənilməsinin təmin edilməsi nəzərdə tutulub.

Eyni zamanda həmin maddəyə tullantıların toplanması və emalı üçün qanunvericilikdə müəyyən edilən qaydada iqtisadi həvəsləndirmənin təmin olunması da daxil edilib. Amma reallıqda istehsalçıların fəaliyyətləri nəticəsində ətraf mühitə vurulan ziyanın aradan qaldırılmasında onların özləri iştirak etmirlər. Nəticədə yaranan zibilin həcminin azaldılması və emal üçün yararlı vəziyyətdə toplanılmasında əhalinin iştirakının əhəmiyyəti daha da artır. Beləliklə, sadə vətəndaşların və istehsalçıların tullantılarla davranma mədəniyyətinin artırılması məsələsi gündəmə gəlir.

Məlum olduğu kimi, artıq respublikamızda dəhşətli dərəcədə ətraf mühitə ziyan verən "Dubay" deyilən Balaxanı zibil poliqonundan əsər əlamət qalmamaqdadır. Bu işlər hazırda

davam etməkdədir. Belə ki, cənab prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" çərçivəsində tullantıların yandırılması, emalı, çeşidlənməsi zavodunun tikilməsi qərara alınmışdır. Bununla bağlı Balaxanı qəsəbəsində ayrılmış 20 hektar ərazidə inşa olunan və illik gücü 500 min ton təşkil edəcək zavodun layihələndirilməsi, tikintisi və 20 illik istismarı nəzərdə tutulmuşdur. Balaxanı bərk məişət tullantılarının yandırılması zavodu hər biri 250 min ton olan 2 xətdən və elektrik enerjisini istehsal edən turbindən ibarət olacaq. Tullantıların yandırılması nəticəsində elektrik enerjisi əldə etmək mümkün olacaq. Elektrik enerjisinin miqdarı ildə 231,5 mln Kv saat enerjiyə bərabər olacağı gözlənilir. Zavodun 2012-ci ilin sonlarında istifadəyə veriləcəyi bildirilir. Avropa İttifaqının istismar və ekoloji tələblərinə cavab verən müasir texnologiyalar əsasında inşa edilən bu zavodun tullantılarının yandırılmasından yaranan kül yol tikintisində istifadə olunacağı bildirilir. Amma biz təklif edərdik ki, məişət tullantıları çeşidləndikdən sonra, üzvü qalıqdan bioloji gübrə almaqla ondan əkinçilikdə istifadə daha effektli olardı, nimki yandırmaq (http://www.tamizshahar.az/index.php?/az/content/185/). Belelə bir təcrübə 1980-cı illərdə tikilmiş məişət tullantılarının emalı uzrə Balaxanı eksperimental zavodunda olub. İstehsal gücü 400000 $m^3$/il (133 min ton/il) olan zavodda termiki emal üsulu ilə kompost istehsal olunurdu. Kompostun əsas alıcıları respublikanın kolxoz və sovxozları, meşəçiklik və yaşıllaşdırma idarələri olmuşdur. Tarixi məlumatlara görə, zavod şəhərdə əmələ gələn tullantıların yalnız 25%-ni emal etmişdir. Zavoda 1991-95-ci illərdə 41 min ton kompost istehsal etmişdir. Lakin sonralar tullantılar çeşidlənmədiyindən, onun tərkibində xeyli miqdarda daş, keramika, şüşə və bioloji parçalanmayan komponentlər olduğundan zavodun məhsulu satılmamış, iqtisadi və maliyyə





çətinliklərinə görə şəhər administrasiyası 1996-cı ildə zavodun fəaliyyətini dayandırmışdır. Bu işi yenə davam etdirmək olar.

Dövlət başçısının sərəncamı ilə mövcud ekoloji problemlərin planlı sürətdə həll edilməsi məqsədilə də "Təmiz Şəhər" adlı ASC yaradılıb. Çox təəssüflər olsun ki, qurum yalnız Bakının ərazisində əmələ gələn bərk məişət tullantılarının yerləşdirilməsi və zərərsizləşdirilməsi sistemini müasir standartlara uyğun qurmaq və idarə etməklə şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılması işlərini həyata keçirir. Tullantıların toplanması və daşınması, o cümlədən onların ilkin mərhələdə çeşidlənməsi işləri onlar tərəfindən aparılmır. Odur ki, tullantıların tərkibində müxtəlif tərkibli maddələr olduğundan onların hamısının yandırılması yuxarıda qeyd etdiyimiz kimi yaxşı nəticə verə bilməz. Belə ki, müxtəlif kimyəvi tərkibli tullantı maddələrin yandırılması nəticəsində ətraf mühitə daha çox ziyan vurula bilər. Ona görə ki, əgər tullantı çeşidlənmədən yandırılarsa, tərkibi müxtəlif olan kül sonradan asfalt salınmada istifadə olunduqda, isti nəticəsində orqanizmlər üçün müxtəlif zərərli şüalanmalar yarana bilər. Hazırda Bakıda əhali bütün tullantıları, yəni şüşədən tutmuş plastik, karton, qida qalıqları, adi çörək qırıntılarına kimi hər bir şeyi eyni torbaya dolduraraq bir zibil qutusuna atır və onu da bir maşına doldurularaq zibil poliqonuna aparılır.

"Təmiz Şəhər" ASC-dən bildirdilər ki, Balaxanı qəsəbəsinin özündə məişət tullantılarının çeşidlənməsi ilə bağlı layihələr keçirir: "Biz tullantıların idarə edilməsi məqsədi ilə əhali arasında güclü və mütəmadi maarifləndirmə işləri aparmalıyıq. Məsələn, küçələrə müxtəlif qutular qoymaq və hansı qutuya nəyi tullamaq olar barədə məlumatlar verilməlidir. Prezidentin sərəncamı ilə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə bütün texnika verilib. Əgər zibillikdə yanğın özü-özünə baş veribsə belə, dərhal onun qarşısı alınaraq söndürülməsi imkanına malikik".

"Təmiz Şəhər" ASC-nin veb saytından götürülmüş məlumatdan məlum olur ki, Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonunun ASC-yə təhvil verildiyi ilk gündən poliqon ərazisində bərpa və yenidənqurma işləri ilə yanaşı, ətraf mühitin vəziyyəti öyrənilir, ekoloji monitorinqlər aparılır.

Aparılmış son monitorinq nəticəsində suda və səth torpaq örtüyündə ağır metalların, havada kimyəvi birləşmələrin miqdarının azalması müşahidə olunduğu bildirilir. Hava nümunələrinin monitorinqi göstərir ki, PM10 tozlarının miqdarı əvvəlki illərlə müqayisədə dəfələrlə aşağı düşmüşdür. HF (Hidrogen-flüorid), HCl (Hidrogen-xlorid), SO2 (Kükürd dioksidi) və CO (Dəm qazı) qazları isə yol verilən qatılıq həddindədir. Poliqonun ümumi vəziyyətinə nəzər yetirdikdə digər qazların miqdarının da tədricən azalması müşahidə olunur.

Əvvəllər su nümunələrində bəzi elementlərin miqdarı çox olsa da, görülmüş işlər nəticəsində ətraf mühitə mənfi təsirlər azalmışdır. Su nümunələrinin müqayisəli analizi göstərir ki, civənin miqdarı getdikcə azalır, digər elementlərin miqdarı isə yol verilən qatılıq həddindədir.

Bundan başqa, ağır metalların torpağın tərkibində azalması müşahidə olunur. Belə ki, aparılan analizlər zamanı poliqondan götürülmüş torpaq nümunələrində bütün ağır metalların miqdarının yol verilən qatılıq həddində olduğu müəyyən edilmişdir. 2011-ci ildə aparılan analizlərdə torpaqda ağır metalların azalması dinamikasının artması müşahidə olunmuşdur.

Qeyd etmək lazımdır ki, ən zərərli maddə sayılan dioksin və furanlar 2010-cu ilin əvvəlində torpaq nümunələrində 0.113 nqTEQ/kq olduğu halda, 2011-ci və 2012-ci ilin birinci rübündə aşkarlanmamışdır.

"Təmiz Şəhər" ASC-dən bildirirlər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bakı





şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" 2008-ci il 6 avqust tarixli Sərəncamından irəli gələrək "Təmiz Şəhər" ASC tərəfindən tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi sistemi müasir standartlara uyğun qurulur və bu sahədə görülən işlər paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması, ətraf mühitə və insan səhhətinə mənfi təsirlərin aradan qaldırılmasına xidmət edəcək.

Vurğulamaq lazımdır ki, Balaxanı poliqonu ərazisində ekoloji tarazlığın bərpası məqsədilə İqtisadi İnkişaf Nazirliyinin və "Təmiz Şəhər" ASC-nin əməkdaşlarının iştirakı ilə mütəmadi olaraq yaşıllaşdırma kompaniyaları keçirilir. 2010-cu ildən başlayaraq ənənə halını almış bu aksiya çərçivəsində poliqon ərazisində ildə iki dəfə - yaz və payız aylarında yaşıllaşdırma işləri aparılır. Bu günə kimi Balaxanı poliqonu ərazisində 3000-ə yaxın çox ağac və bəzək kolları əkildiyi bildirilir. Belə tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Ölkəmizdə ekoloji tarazlığın bərpası və ətraf mühitin qorunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2010-cu il "Ekologiya ili" elan edilmişdir. Dövlət başçısının tapşırığına uyğun olaraq, "Ekologiya ili" çərçivəsində bir sıra mühüm tədbirlər, həmçinin yaşıllaşdırma kompaniyası keçirilmişdir. İqtisadi İnkişaf Nazirliyinin və "Təmiz Şəhər" ASC-nin əməkdaşları da bu kompaniyaya qoşulmuş və 13 mart 2010-cu il tarixdə Balaxanı poliqonunun girişində tullantılardan təmizlənmiş ərazidə müxtəlif ağaclar əkmiş və yaşıllaşdırma işlərini həyata keçirmişlər. Məlum olduğu kimi, "Təmiz Şəhər" ASC tərəfindən Balaxanı poliqonunda bərk məişət tullantılarının yanma mənbələri tamamilə ləğv edilmiş, zərərli tüstülənmə halları aradan qaldırılmış, daxili yolların böyük hissəsi təmir edilmiş, tullantıların qəbulu üçün meydança və zəruri infrastruktur, qəbul

edilən tullantıların həcminin qeydiyyatı sistemi yaradılmışdır. Hazırda ətraf ərazinin abadlaşdırılması işləri həyata keçirilir.

Qeyd edək ki, podratçı şirkətin- Fransanın "CNİM" S.A. şirkətinin rəsmi səhifəsindən əldə etdiyimiz məlumata görə, Balaxanı zavodunun layihələndirilməsi, tikintisi və istismarı bütünlüklə "CNİM" S.A tərəfindən həyata keçirilir. Şirkət bu sahədə 50 illik təcrübəyə malikdir. Şirkətin dünya üzrə 143 tullantı idarəetmə zavodu var. Fransız şirkəti tullantıların çeşidlənməsi, təkrar emalı, eləcə də tullantıların yandırılması ilə məşğul olur. Avropa İttifaqının istismar və ekoloji tələblərinə cavab verən müasir texnologiyalar əsasında inşa edilən zavodun tullantılarının yandırılmasından yaranan kül yol tikintisində istifadə olunacaq.

4 may 2011-ci il tarixli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində ölkədə təkrar istehsalı inkişaf etdirmək üçün əsas vasitələrdən biri olan Balaxanı Eko-Sənaye Parkı yaradılması qərara alınmışdır. 28.12.2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" və "Bakı şəhərində Balaxanı Sənaye Parkının fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" imzalanmışdır. Bu parkın yaradılmasında başlıca hədəf təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şərait yaratmaq olacaq. Park ərazisində mexaniki emal və istehsal qurğuları üçün bütün şəraitlər və lazımi dəstək Hökumət tərəfindən təmin ediləcək. Sənaye Parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, o cümlədən əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji təchizatı və əldə edilmiş xam material və ya





istehsal edilmiş məhsulun asanlıqla satış bazarına çıxmasına əlverişli imkan yaratmış olacaq. Yaşıl biznesin, əsasən də tullantıların təkrar emalı sənayesinə marağı artırmaq məqsədi ilə potensial sahibkar və investorlar üçün Parkın xarici və daxili infrastrukturunun qurulması planlaşdırılır. Belə ki, xarici infrastruktur kimi yol salınacaq, əraziyə elektrik, qaz, su, kanalizasiya və rabitə xətləri çəkiləcək. Park girişində qeydiyyat məntəqəsi və tərəzilər qurulacaq, ərazidə ofis və əməliyyat binası tikiləcək və bütün lazımi ilkin infrastruktur yaradılacaqdır. Eko-Sənaye parkının başlıca faydaları:

- Bir məkanda vahid infrastruktur yaratmaq;
- Yaşıl biznesin fəaliyyəti nəticəsində ətraf mühitə təsiri azaltmaq;
- Təkrar istehsal/təkrar istifadə və istehsal müəssisələrini yaratmaq, bu sahəyə dəstək;
- Əldə edilən xam malların satışı və ya istehsal olunmuş məhsullar bazarını genişləndirmək.

Xatırladaq ki, vaxtilə Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonunda baş verən yanğın və tüstülənmə Bakı şəhərinin ekoloji vəziyyətinə və insan sağlamlığına mənfi təsir göstərib. Lakin «Təmiz Şəhər» ASC tərəfindən Balaxanı poliqonunun idarəetməsinə başlandıqdan sonra ərazidə yanğın və tüstülənmə hallarının hələlik qarşısı qismən də olsa alınıb. (http://www.paritet.az/iqtisadiyyat/4632.html) Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Zakir İbrahimovun sözlərinə görə, dövlət başçısı tərəfindən imzalanmış sərəncama əsasən. Balaxanı Sənaye Parkının yaradılması istiqamətində məsləhətçilərlə birgə institusional və hazırlıq işləri aparılır: "Balaxanı Sənaye Parkında tullantıların təkrar emalı ilə həm yerli, həm də xarici şirkətlər məşğul ola biləcək ki, onlara dövlət tərəfindən güzəştli şərtlər təklif olunacaq".

Qeyd edək ki, İqtisadi İnkişaf Nazirliyinə Balaxanı Sənaye Parkının fəaliyyətinin təşkilini, torpağın istifadəyə

yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılmasını, ofis, konsaltinq, laborator müayinə və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görmək, Balaxanı Sənaye Parkının fəaliyyətinin təşkili, tənzimlənməsi, inkişafı, istehsal və emal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi, habelə bu sahədə böyük təcrübəyə malik məsləhətçi şirkətin cəlb olunması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb (http://www.paritet.az/iqtisadiyyat/4632.html). Eyni zamanda, Nazirlər Kabinetinə 3 ay müddətində Balaxanı Sənaye Parkının fəaliyyəti üçün Azərbaycan Dövlət Neft Şirkətinin "Balaxanıneft" Neftqazçıxarma İdarəsinin ərazisindən 7 hektar torpaq sahəsinin İqtisadi İnkişaf Nazirliyinin istifadəsinə verilməsini təmin etməyi tapşırılıb.

ASC-nin Mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il ərəfəsində Bakının Sabunçu rayonunda "Balaxanı" Su Anbarları Kompleksinin təməli qoyulub. Bununla bağlı keçirilən mərasimdə çıxış edən "Azərsu" sədri Qorxmaz Hüseynov bildirib ki, ASC Bakı şəhəri və ətraf qəsəbələrin içməli su təchizatının yaxşılaşdırılmasına xüsusi diqqət yetirir. "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2011-2013-cü illər)" çərçivəsində şəhərətrafı qəsəbələrin su və kanalizasiya sistemləri yenidən qurulur: "Tədbirlər planına uyğun olaraq indiyə qədər su almayan Qala, Zirə, Türkan, Pirallahı və digər qəsəbələrini keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün Balaxanıda ümumi tutumu 80 min kubmetr olan anbar kompleksinin inşasına başlanılıb. Kompleksdə hər birinin





tutumu 10 min kubmetr olan 8 anbar tikiləcək". Anbar kompleksinə Oğuz-Qəbələ-Bakı kəmərindən və Ceyranbatan Sutəmizləyici Qurğular Kompleksindən su nəql etmək üçün 1400 mm diametrli su kəməri çəkiləcək. Anbardan qəsəbələrə içməli su özuaxımlı rejimdə veriləcək. Bu layihə ümumilikdə 26 qəsəbədə 950 min nəfərin içməli su təchizatını yaxşılaşdıracaq.

Qeyd edək ki, hazırda Balaxanı, Qala, Zirə, Türkan, Pirallahı və digər ətraf qəsəbələrdə su olsa da Balaxanıda hələ ki, "Azərsu" sədrinin dedikləri havada asılı qalıb. Onu da qeyd etmək lazımdır ki, respublika prezidentinin fərman və sərəncamı ilə yaradılmış Sumqayıt kimya sənaye və Balaxanı sənaye parkları innovativ və yüksək texnologiyalara əsaslanan müəssisələrin təşkil edilməsinə və sənaye istehsalının artmasına təkan vermək məqsədilə yaradılır. Bu parkların yaradılması iqtisadiyyatın modernləşməsini, innovativ iqtisadiyyatın formalaşmasını, qeyri-neft sənayesini daha da gücləndirəcək. Dövlət başçısının sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sənayeləşmə siyasəti uğurla davam etdirilməsi gözlənilir. "İCTnews" elektron xəbər xidmətinin məlumatına görə, bu sözlər aprelin 17-də İqtisadi İnkişaf, Sənaye və Energetika nazirliklərinin və BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO) birgə təşkilatçılığı ilə keçirilən "Sənaye Parkları üzrə Regional Konfrans"da səsləndirilib. Qeyd edilir ki, 2009-cu ildən fəaliyyət göstərən Sumqayıt Texnologiyalar Parkında yaradılmış 17 zavodda hazırda müasir texnologiyalar əsasında müxtəlif sənaye məhsulları istehsal edilir. Hər iki parkın Azərbaycan iqtisadiyyatında gələcəkdə müsbət rol oynayacağı gözlənilir.

"Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Zakir İbrahimovun sözlərinə görə Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonu 2014-cü ilədək dünya sanitariya standartlarına tam cavab verəcək.

Qəsəbənin gələcəkdə ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün müşahidəçi qismində Balaxanı qəsəbəsində şəhər şosesi 13-də ümumi ərazisi 17 000 $m^2$ olan istehsalat sahəsinin də müəyyən köməkliyi dəyə bilər (http://socar.az/eco/view.php?lang=az&menu=51&id=68). İstehsalat Sahəsində inzibati binasının ərazisi 760 $m^2$ olan iki mərtəbəli Ekoloji Monitorinq departamenti, inzibati binasının sahəsi 630,5 $m^2$ olan bir mərtəbəli Kompleks Tədqiqat Laboratoriyası, Nəqliyyat və Təmir-Tikinti sahəsi vardır. Ekoloji Monitorinq Departamentin tərkibində sahəsi 10,5 $m^2$ olan qazanxana, həcmi 35 $m^3$ olan bir ədəd yeraltı su çəni və sahəsi ümumilikdə 19,6 $m^2$ olan 2 ədəd gözətçi məntəqəsi vardır.

Kompleks Tədqiqat Laboratoriyasının tərkibində ümumi sahəsi 136 $m^2$ olan nümunə və avadanlıqların saxlanması anbarı, 52 balon tutumu olan qaz balonu anbarı, cərəyan kəsilən zaman laboratoriyanı elektrik enerjisi ilə tam təmin edə bilən 60 kVa generator, 2 ədəd 250 kVa transformator, 1 ədəd 250 kVa enerji tənzimləyicisi və 2 ədəd 60 kVa UPS vardır. Bu idarə tərəfində aşağıdakı işlər yerinə yetirilmişdir. Belə ki, 2006-cı ildə "Balaxanıneft NQÇİ-nin neftlə çirklənmiş 3,8ha mədən ərazisinin rekultivasiyası" adlı layihə çərçivəsində, sifarişçi təşkilat olan Azneft İB-nin təşəbbüsü ilə Ekologiya İdarəsi Layihə çərçivəsində 3,8ha mədən ərazisində mexaniki rekultivasiya işlərini tamamlanmış və ərazidə bioremudasiya işləri aparılmışdır. (http://socar.az/eco/view.php?lang=az& menu=30).

Bütün bu işlər ümid verir ki, gələcəkdə nəinki Balaxanı qəsəbəsi ərazisində hətta Abşeron yarımadasında neftlə çirklənmiş ərazilimiz qalmayacaqdır və Balaxanı bələdiyyəsi ərazisində neft istehsalı təsirinə məruz qalan ailələrin maraqları yalnız istirahəti harada keçirim olacaq. Məncə buna ümid etməyinə dəyər.





## NƏTİCƏ

Vətəndaş Təşəbbüsləri Mərkəzi (VTM) Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə "Balaxanı bələdiyyəsi ərazisində neft istehsalı təsirinə məruz qalan ailələrin maraqlarına dəstək " adlı layihəni 15 aprel 2012-ci ildən 15 avqust 2012-ci il tarixə kimi 4 (dörd) aya həyata keçirmişdir 3 nəfərdən ibarət layihə iştirakçısı bu müddət ərzində qəsəbənin yaşayış ərazisində yerli sakinləri narahat edən məsələlərlə bağlı əhali arasında sorğular keçirmiş, sakinləri narahat edən məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Aparılmış müşahidə və görüşlərdən bəlli olmuşdur ki, milyonçular nəslindən olan bugünkü Balaxanı sakinlərini ən çox narahat edən yaşayış evlərinin əhatəsində olan işləməyən və ətrafında üfunət yaradan gölməçəli buruqların sökülməsi, qəsəbənin ekoloji vəziyyətinin sağlamlaşdırılması ilə yanaşı su, kanalizasiya və yol problemidir. Qəsəbənin əksər yerlərində yollar bərbad vəziyyətdədir və əhali neft gölməçələrinin əhatəsində yaşayır. Qəsəbənin ətrafı neft gölməçələrindən və yaxud qurumuş tozlu sahələrdən ibarətdir. Neft-qaz çıxarma ilə əlaqədar ekoloji tələblərə əməl edilmir və ətraf mühitə əhəmiyyətli dərəcədə mənfi təsirlər yaranır. Qəsəbədə yerləşən quyuların istismarı zamanı palçıqlı-mazutlu gölməçələr yaranır və sonradan zibillərin ora atılması ilə üfunət yaradan xəstəlik mənbəyi əmələ gəlir.

Bələdiyyə, icra nümayəndəliyi, kənd ağsaqqalları və "Təmiz şəhər" ASC-nin idarə heyəti sədrinin müavini Etibar Abbasovun dəyirmi masada söylədikləri fikirlər ümidverici oldu ki, "Təmiz şəhər " ASC Balaxanı qəsəbəsinin sosial-iqtisadi inkişafına yardım göstərəcək. Bələdiyyə sədri Novruzov Malik və icra nümayəndəsi Qurbanov Fərhad bildirdilər ki, Qəsəbənin su təchizatının yaxşılaşdırılması məqsədi ilə Şəhər şosesindən qəsəbəyə gələn su xətti 300 diametrli boru ilə 200 metr yenisi ilə

əvəz olunub. Qəsəbədə Şəhər şosesi, Milli ordu və Səfəvilər küçələrində yerləşən 3 su vurma məntəqəsində su nasosları cari təmir olunub. Dövlət proqramına uyğun olaraq Balaxanı və ətraf qəsəbələrin su təchizatını yaxşılaşdırmaq məqsədi ilə Qirməki Dağının üstündə həcmi hər biri 10000 ton olmaq şərti ilə 8 su anbarının tikintisinə başlanmışdır. Şəhər şosesindən yeni su kəmərinin çəkilişi ilə əlaqədar yolun zədələnmiş asfalt örtüyü təmir olunub, qəsəbədə marşrut avtobuslarının keçdiyi qəsəbədaxili yollar da cari təmir olunub. Qəsəbənin 259 saylı orta məktəbi Dövlət Proqramı çərçivəsində əsaslı təmir edilib. Qəsəbədə 3008 tutumlu ATS-2515 abonentə xidmət edən və 493 tutumlu yer var. Qəsəbədə yerləşən 69 saylı məktəbin binasına əlavə-Akt zalı, idman zalı və sinif otaqlarının tikintisi başa çatdırılmışdır. Qəsəbəyə 2 avtobus marşrutu işləyir. 216 nömrəli marşrut Balaxanı-Koroğlu istiqamətində, 105 nömrəli marşrut avtobusu isə Qəsəbə-Yeni Yaşayış massivi-Neftçilər metrosu istiqamətlərinə işləyir. Dirçəliş, Sadıcan, Yanardağ küçələrindən keçən kanalizasiya xətləri sıradan çıxdığı üçün icra nümayəndəliyi və bələdiyyə tərəfindən təmir olunmuşdur. Qəsəbə nümayəndəliyi və bələdiyyə tərəfindən qəsəbə ərazisində yerləşən qəbiristanlıq və onun ətrafında iməcilik keçirilmiş, maşın və texnikadan istifadə olunaraq təmizlik işləri aparılmışdır. Qəsəbədə təmizlik işlərinə mütəmadi olaraq diqqət yetirilir, məişət tullantılarının yığılması təşkil olunur. Sanitar-gigiyena qaydalarına riayət olunaraq, evlərdən, yol kənarlarından, 2-3-6-cı mədən ərazilərindən və digər məişət tullantıları atılan ərazilərdən maşın və texnikadan istifadə olunaraq yığılır. Qəsəbə nümayəndəliyi və bələdiyyə tərəfindən qəsəbə ərazisində qeyri-qanuni, sənədsiz tiklilərin qarşısı alınır. 2011-2013cü il Dövlət proqramında qəsəbədə su və kanalizasiya xəttin çəkilməsi, yol təsərrüfatı və nəqliyyat sahəsində isə qəsəbədaxili yolların tikintisi və təmiri nəzərdə tutulmuşdur. Vətəndaşların şikayəti sosial-işıq, qaz, su su





problemi ilə bağlı olub. Mübahisəli məsələlərlə bağlı şifahi və yazılı surətdə daxil olan şikayətlər " vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1998-ci il Fərmanı ilə təsdiq edilmiş qaydalarına əsasən Dövlət Hakimiyyət orqanlarının idarə, təşkilat və müəssisələrdə operativ qaydasına müvafiq olaraq nəzərdə tutulmuş qaydada və müddətdə araşdırılır və cavablandırılır. "Təmiz şəhər" ASC prezidenti ilə Balaxanı qəsəbə nümayəndəliyi və bələdiyyənin qarşılıqlı söhbətləri nəticəsində qəsəbədə yaşayan iş siz sakinlərdən buğünə kimi 47-si işlə təmin olunub və bu prosesin davam etdirilməsi cəmiyyətin rəhbər işçilərinin diqqətindədir. Bütün bunlarla yanaşı görüləsi işlər çoxdur. Yuxarıda sadalanan məsələlərin bütün qəsəbəyə aid olmasını və müasir səviyyəyə cavab verən su xətlərinin, yolların, şəhərlə əlaqə yaradan avtobusların, kanalizasiya sisteminin və sağlam ətraf mühit və gənclərin tam işlə təmin olunmasını arzu edirik.

Balaxanı qəsəbəsinin ərazisi neft buruqları ilə çox sıx örtüldüyü üçün burada neft sənayesinin neqativ təsirləri daha qabarıqdır. Odur ki ətrafda yaranan gölməçələrin qurudulmasında bizimlə ərazidə neftçıxarma ilə məşğul olan "Balakhani Operating Company LTD" Şirkətinin Azərbaycan Respublikasındakı filialının sexləri, yollarımızın təmirində qəsəbədə fəaliyyət göstərən "AKKORD" Sənaye Tikinti İnvestisiya Korporasiyası ASC tabeçiliyində olan 5 asfalt zavodunun ( halbuki, bu zavodların tüstüsü və ağır tonnajlı avtomobilləri qəsəbənin ekologiyasını və yolları korlayır) əməkdaşlıq etmələrini arzu edərdik. Buna bizim haqqımızın olduğu və onların götürdükləri öhdəliklər tələb edir. Qəsəbə əhalisi ilə görüşlərimizdə və Vətəndaş Təşəbbüsləri Mərkəzinə 90 nəfərin imzası ilə daxil olan müraciət məktubunda da sakinlər bildirmişlər ki, qəsəbənin ekoloji duruma ən çox ziyan vuran "AKKORD" Sənaye Tikinti İnvestisiya Korporasiyası

ASC-nin Balaxanı asfalt zavodu və "Balakhani Operating Company LTD" Şirkətinin Azərbaycan Respublikasındakı filialının sexləridir. Su problemi ilə əlaqədar isə "Azərsu" ASC-dən köməklik gözləyirik.

Layihənin icra müddəti ərzində bu problemlərlə bağlı həmin təşkilatlara əməkdaşlıqla bağlı müraciət olunub. Aparılan fəaliyyətin nəticəsi kimi müəyyənləşdirilmişdir ki, qəsəbə ərazisində su və kanalizasiya sistemi 2013-cü ildə tam bərpa olunacaq. Qalır yol və ətraf neft gölməçələrinin təmizlənməsinə. VTM-in uğurlarından biri də icra strukturları və bələdiyyə ilə işgüzar münasibətlərin qurulması olmuşdur. Məhz əməkdaşlıq şəraitində və birgə səylər nəticəsində qəsəbə sakinlərini narahat edən bir sıra problemlərin həlli mümkün olacaq. 28 iyul 2012-ci il tarixdə VTM-in təşkil etdiyi deyirmi masada həm də qərara alındı ki, problemlərin həllində dövlət strukturu, bələdiyyə ilə yanaşı vətəndaş cəmiyyətinin də fəal iştirakına nail olunmalıdır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR:


Əliyeva D.Balaxanı Bakının ən qədim tanınmış kəndlərindən biridir. "İctimai fikir" Beynəlxalq, ictimai-siyasi, hüquq qəzeti № 05 (20), oktyabr 2011-ci il.

Abdullayeva. H. Dünyanın "zibil" təcrübəsi və Azərbaycan hökumətinin seçimi. http://www.musavat.com/new/ İqtisadiyyat/73361.

Qasımov. O. B. Haqqın əzablı yolları : Xüsusilə mühüm işlər müstəntiqinin zəmanə anlamı: Elm və Həyat, Nəşriyyatı Bakı, 2002. 280 s..

Qasımov. O.B. Bizim və sizin balaxanı."Elm və həyat". Bakı-2002. 308 s.







Cavadova. İ. Balaxanı odlar məkanı. "Həftə içi" gündəlik ictimai-siyasi qəzetİ, 28 sentyabr 2011-ci il.

Zərbliyev C.. Arxeoloji memarlıq abidələri — ovdanlar. "Mədəniyyət" qəzeti, 16.05.2012

Fərahim İlqaroğlu. Emil Salmanoğlu. Dünyanın yeddi neft maqdatından birinin kəndi - Balaxanı.

http://www.musavat.com/new/Proje/72621D%C3%9CNYANIN_YEDD%C4%B0_NEFT_MAQNATINDAN_B%C4%B0R%C4%B0N%C4%B0N_K%C6%8FND%C4%B0_-_BALAXANI. Onlayn ictimai-siyasi qəzet. 15.03.2010 [7:8]

http://az.wikipedia.org/wiki/Balaxan%C4%B1 .

http://www.hafta-ichi.com/v4/2011/09/28/read=66613.

http://balaxani.my1.ru/.

http://www.musavat.com/new/Proje/72621D%C3%9CNYANIN_YEDD%C4%B0_NEFT_MAQNATINDAN_B%C4%B0R%C4%B0N%C4%B0N_K%C6%8FND%C4%B0_-_BALAXANI 2010-03-15 .

http://www.iswm.az/az.html.

http://birlik.az/index.php?option=com_content&view=article&id=29636%3Abakda-mdnlr-trafnda-goezgoeruenmz-thluck&catid=123%3Aaktual-uest&Itemid=168.

Bakıda mədənlər ətrafında gözəgörünməz təhlükə

**ƏLAVƏLƏR**

**Azərbaycan Respublikasında Balaxanı-Sabunçu-Ramana və Kürdəxanı neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, UQE-LANSER PTİ. LTD və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Balaxanı-Sabunçu

Ramana və Kürdəxanı yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2008-ci il 17 noyabr tarixli 47 nömrəli və "Azərbaycan Respublikasında Balaxanı-Sabunçu-
Ramana və Kürdəxanı yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 17 noyabr tarixli 47 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" 2010-cu il 15 yanvar tarixli 683 nömrəli Sərəncamlarına uyğun olaraq, 2010-cu il iyunun 3-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə UQE-LANSER PTİ. LTD və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq





nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən **qərara alır:**

1. "Azərbaycan Respublikasında Balaxanı-Sabunçu-Ramana və Kürdəxanı yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Dövlət Neft Şirkəti UQE-LANSER PTİ. LTD və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 20 avqust tarixli 157 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya

qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 may 2011-ci il**

----------------------------

**Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**





**28 dekabr 2011, 19:10**

***Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə qərara alıram:***

1. Bakı şəhərində Balaxanı Sənaye Parkı yaradılsın.

2. Müəyyən edilsin ki, Balaxanı Sənaye Parkının ərazisində məişət tullantılarının emalı (təkrar emalı) və xidmət müəssisələri yaradılır.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:

3.1. Balaxanı Sənaye Parkının fəaliyyətinin təşkilini, torpağın istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılmasını, ofis, konsaltinq, laborator müayinə və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün;

3.2. Balaxanı Sənaye Parkının fəaliyyətinin təşkili, tənzimlənməsi, inkişafı, istehsal və emal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi, habelə bu sahədə böyük təcrübəyə malik məsləhətçi şirkətin cəlb olunması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

4. Balaxanı Sənaye Parkının idarə olunması "Təmiz Şəhər" ASC tərəfindən həyata keçirilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

5.1. üç ay müddətində:

5.1.1. Balaxanı Sənaye Parkının fəaliyyəti üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Balaxanıneft" Neftqazçıxarma İdarəsinin ərazisindən 7 hektar torpaq sahəsinin Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin istifadəsinə verilməsini təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.1.2. bu Sərəncamın 3-cü hissəsində nəzərdə tutulmuş işlərin görülməsi üçün zəruri maliyyələşmənin dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsini təmin etsin;

5.1.3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə birlikdə sənaye parkında vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlərin tətbiqi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi bu Sərəncamın icrası ilə bağlı görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi olaraq məlumat versinlər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 dekabr 2011-ci il.**





## İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 12 iyun tarixli 379-IVQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 12 iyun tarixli 379-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna

uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulmuş tələbata dair ümumiləşdirilmiş nəticələrə uyğun olaraq altı ay müddətində urnaların mərkəzləşdirilmiş qaydada alınmasını təşkil etsin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 611; 2003, № 10, maddə 546; 2007, № 6, maddə 601) 1-ci hissəsinin beşinci bəndində "üçüncü" sözü "dördüncü" sözü ilə əvəz edilsin.

3. Şəhər və rayon (şəhər rayonları istisna olmaqla) icra hakimiyyəti orqanları iki ay müddətində "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq öz ərazilərində urnalara tələbatı müəyyən edərək, müvafiq məlumatı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etsinlər.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İstehsalat və məişət tullantıları haqqında"





Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 iyul 2012-ci il.

**"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

*20 iyun 2012, 21:40*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının 1997-ci il 26 iyun tarixli 360-IQ nömrəli Qanununu "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 25 oktyabr tarixli 224-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497; 1999, № 5, maddə 285; 2001, № 3, maddələr 141, 142, 143, 144, № 11,

maddələr 672, 687, 693; 2002, № 5, maddələr 240, 244, № 6, maddə 328; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 199, № 6, maddə 396, № 7, maddə 507; 2006, № 2, maddə 66, № 12, maddə 1028; 2007, № 6, maddə 560, № 11, maddə 1052, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 46, № 12, maddə 949; 2010, № 11, maddə 962; 2011, № 2, maddələr 70, 71, № 7, maddə 616) aşağıdakı dəyişikliklər edilsin:

1. 25-ci maddəyə aşağıdakı məzmunda altıncı və yeddinci hissələr əlavə edilsin:

"Psixiatriya yardımı alan və ya əvvəllər psixiatriya yardımı almış şəxsə göstərilən yardım tədbirləri barədə məlumatlar şəxsin özünün və yaxud onun qanuni nümayəndəsinin yazılı müraciətindən sonra 2 gün ərzində müəssisənin müdiriyyəti tərəfindən təqdim olunmalıdır. Pasiyentin məlumatları əldə etmək hüququ yalnız onun sağlamlığına zərərin vurulmasının qarşısının alınması və digər şəxslərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə məhdudlaşdırıla bilər. Psixi pozuntusu olan pasiyentə qulluq edən ailə üzvləri yalnız göstərdikləri yardıma aid olan məlumatı əldə edə bilərlər. Pasiyentə zərər törədə biləcək məlumatların onlara verilməsi qadağandır.".

2. 32-ci maddənin ikinci hissəsinin ikinci və üçüncü bəndləri müvafiq olaraq üçüncü və dördüncü bəndlər hesab edilsin və aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:
"ilkin tibbi yardım göstərən tibb müəssisələrində müalicəsinə icazə verilən psixi pozuntuların müalicəsi;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 may 2012-ci il.**





**İstehsalat və məişət tullantıları haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun zərərli qazlar, çirkab suları və radioaktiv tullantılar istisna olmaqla, istehsalat və məişət tullantılarının (bundan sonra - tullantıların) insan sağlamlığına və ətraf mühitə zərərli təsirinin qarşısının alınması, onların təhlükəli təsirinin azaldılması, təbiətdə ekoloji tarazlığın təmin olunması, habelə belə tullantıların təkrar xammal mənbələri kimi təsərrüfat dövriyyəsinə cəlb olunması məqsədilə tullantıların idarə olunması sahəsində Azərbaycan Respublikasının dövlət siyasətini və hüquqi münasibətləri müəyyən edir [1]

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar** [2]

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**istehsalat tullantıları** - istehsal, yaxud işlərin (xidmətlərin) yerinə yetirilməsi prosesində əmələ gələn və ilkin istehlak xüsusiyyətlərini tam və ya qismən itirən xammal, material, maddə, yarımfabrikat, əşya və digər məhsulların qalıqları, habelə istehsal obyekti olmayan və öz istifadə olunma xüsusiyyətlərinə görə texnoloji prosesə daxil olmayan, yenidən əmələ gələn eyni mənşəli əşya və maddələr;

**məişət tullantıları** (bərk məişət tullantıları) — əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşyalar, maddələr və materiallar;

**təhlükəli tullantılar** - tərkibində təhlükəli xüsusiyyətlərə malik partlayıcı, yanma qabiliyyətli, oksidləşdirici, toksiki, infeksion, korroziya təsirinə malik və ekotoksiki maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılar;

**təhlükəsiz tullantılar** - ətraf mühitə bilavasitə təhlükəli təsir göstərməyən tullantılar;

**təkrar xammal** - texniki və ya texnoloji imkanlar, həmçinin iqtisadi səmərəlilik nəzərə alınmaqla təsərrüfat fəaliyyətində təkrar istifadə oluna bilən tullantılar;

**yararsız tullantılar** — istifadə olunma xüsusiyyətləri məhdud olan, təkrar istifadəsi iqtisadi baxımdan səmərəli olmayan tullantılar;

**tullantıların emalı** — onların toplanması, saxlanılması, çeşidlənməsi, daşınması və zərərsizləşdirilməsi prosesindən ibarət məqsədyönlü fəaliyyət;

**tullantıların yerləşdirilməsi** — tullantıların saxlanılması və ya basdırılması üzrə həyata keçirilən fəaliyyət;

**tullantıların zərərsizləşdirilməsi** — ətraf mühitə və insanın sağlamlığına təsirini azaltmaq məqsədilə tullantıların xüsusi qurğularda emalı (o cümlədən yandırılması) və ya basdırılması.

**tullantılar** - qanunvericiliyin müddəalarına müvafiq olaraq kənarlaşdırılan, kənarlaşdırma üçün nəzərdə tutulan, kənarlaşdırılmalı olan maddə və əşyalar;

**tullantıların idarə olunması** - tullantıların əmələ gəldiyi fəaliyyət prosesi, habelə tullantıların yığılması (toplanması), çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması üzrə fəaliyyət;

**tullantıların yığılması (toplanması)** - tullantıların sonradan istifadə edilməsi, utilizasiyası və ya basdırılması (məhv edilməsi) məqsədilə icazə verilmiş yerlərdə müvəqqəti yerləşdirilməsi;

**tullantıların çeşidlənməsi** - tullantıların müəyyən əlamətlərinə (növünə, tərkibinə, xüsusiyyətinə və s.) görə toplanması;

**tullantıların daşınması** - tullantıların əmələ gəldiyi, yerləşdirildiyi, istifadə və utilizasiya edildiyi, zərərsizləşdirildiyi, basdırıldığı və ya məhv edildiyi yerlər və obyektlər arasında daşınması;

**tullantıların utilizasiyası** - tullantılardan lazımi materialların və enerjinin ayrılaraq təkrar istifadə üçün yararlı hala salınması;

**tullantıların basdırılması** - sonradan istifadəyə yararlı olmayan tullantılardan ətraf mühitə zərərli təsirin qarşısını almaq məqsədilə onların xüsusi ayrılmış yerlərdə müvafiq qaydada təcrid edilməsi;

**tullantıların istifadəsi** - tullantılardan malların (məhsulların) istehsalında və ya enerji əldə edilməsində istifadə olunması;

**tullantıların yerləşdirilmə obyekti** - tullantıların yerləşdirilməsi üçün nəzərdə tutulmuş xüsusi təchiz edilmiş qurğu (poliqon, şlam-anbar və başqaları);

**tullantıların sərhədlərarası daşınması** - ən azı iki dövlətin mənafeyinə toxunmaq şərtilə tullantıların bir dövlətin ərazisindən digər dövlətin ərazisinə və ya ərazidən keçməklə, yaxud hər hansı dövlətin yurisdiksiyası altında olmayan əraziyə və ya ərazidən keçməklə daşınması;

**tibbi tullantılar** - səhiyyə və baytarlıq obyektlərində və tibbi manipulyasiya zamanı əmələ gələn tullantılar;





**təhlükəli tullantıların pasportları** - təhlükəli tullantıların müvafiq tullantı növünə və təhlükəlilik dərəcəsinə aidiyyətini təsdiq edən, onların tərkibi barədə məlumat verən sənəd;

**tullantıların novu** - tullantıların təsnifatı sisteminə uyğun olaraq ümumi əlamətlərə malik olan tullantılar;

**tullantıların istehsalçısı** - fəaliyyəti nəticəsində təhlükəli və ya digər tullantıların əmələ gəlməsinə səbəb olan istənilən şəxs, yaxud bu şəxs məlum olmadıqda, tullantıların sahibi olan və/və ya onlara nəzarəti həyata keçirən şəxs;

**tullantıların sahibi (mülkiyyətçisi)** - tullantıların istehsalçısı, yaxud onların sahibi olan fiziki və ya hüquqi şəxs;

**texnoloji proses** - istehsalat vahidinin işə salınmasının təsdiq edilmiş müddəti ilə texnoloji reqlamentə uyğun fəaliyyəti;

**istehsalat tullantılarının əmələ gəldiyi yerlər** - onların əmələ gəldiyi texnoloji proses, yaxud istehsal sahələri (müəssisələr);

**tullantıların identifikasiyası** - pasport məlumatları və ya yoxlama sınaqları əsasında konkret təhlükəli tullantıların hansı tullantı növünə və xüsusiyyətinə aidiyyətinin müəyyən edilməsi proseduru;

**az tullantılı texnologiya** - ənənəvi üsullarla müqayisədə məhsulun alınması nəticəsində

tullantıların nisbətən az həcmdə əmələ gəlməsinə imkan verən istehsalat prosesi.

M a d d ə 2 . **Tullantıların idarə olunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi**

Tullantıların idarə olunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Zərərli qazlar, çirkab suları və radioaktiv tullantıların idarə olunması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

M a d d ə 3 . **Qanunun tətbiq sahəsi**

Bu Qanun Azərbaycan Respublikasında fəaliyyəti nəticəsində tullantılar əmələ gələn və tullantıların idarə olunması sahəsində fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslərə şamil olunur.

M a d d ə 4 . **Tullantıların idarə olunması sahəsində dövlət**

**siyasətinin prinsipləri** [vii[7]]

Tullantıların idarə olunması sahəsində dövlət siyasətinin prinsipləri aşağıdakılardır:

əhalinin sağlamlığının və ətraf mühitin ekoloji tarazlığının qorunması;

ekoloji tarazlığın və iqtisadi maraqların təmin olunmasının elmi cəhətdən əsaslandırılması;

tullantıların idarə olunması sahəsində fəaliyyət göstərən müəssisələrin yaradılması, bu məqsədlə dövlət və özəl müəssisələrin, habelə xarici investorların vəsaitlərinin cəlb edilməsi;

(Зıxarılıb)[viii[8]]

təhlükəli tullantıların ekoloji baxımdan əsaslandırılmış idarəetmə sistemini yaratmaqla, onların sərhədlərarası daşınmasının minimuma endirilməsi,

təhlükəli və başqa tullantıların ekoloji cəhətdən özünü doğrultmuş üsullarla onların əmələ gəldiyi mənbənin mümkün qədər yaxınlığında istifadəsi və zərərsizləşdirilməsi;

təhlükəli tullantıların yarandığı yerlərdə onların azaldılması və minimuma endirilməsi məqsədilə az tullantılı texnologiyaların yaradılması və tətbiqi; [ix[9]]

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təhlükəli tullantıların

təsnifatı və pasportlaşdırılması əsasında onların dövlət uçotunun aparılması. [x[10]]

təbiəti mühafizə tələblərinə, ekoloji tarazlıq normalarına, gigiyena normativlərinə və sanitariya qaydalarına əməl olunmasına nəzarət;

tullantıların klassifikasiyası və pasportlaşdırılması əsasında dövlət uçotunun aparılması;

ictimai təşkilatların, maraqlı şəxslərin informasiya almasına təminat verilməsi;

əhalinin mənafeyi ilə bağlı qərarlar qəbul edilərkən ictimai rəyin nəzərə alınması;

tullantıların idarə olunması sahəsində çalışan işçilərin sosial müdafiəsi;

tullantılarla əlaqədar beynəlxalq əməkdaşlığın həyata keçirilməsi zamanı ölkənin milli mənafelərinin nəzərə alınması.

M a d d ə 5 . **Tullantıların idarə olunması üzrə münasibətlərinin tənzimlənməsi sahəsində dövlət hakimiyyət orqanlarının vəzifələri** [xi[11]]





Tullantıların idarə olunması üzrə münasibətlərinin tənzimlənməsində dövlət hakimiyyət orqanlarının vəzifələri aşağıdakılardır:

tullantıların idarə olunması sahəsində dövlət siyasətinin həyata keçirilməsi;

qanunvericilik aktlarının və məqsədli proqramların hazırlanması, təsdiqi və onların yerinə yetirilməsinə dövlət nəzarəti;

tullantıların toplanması və emal üçün qanunvericilikdə müəyyən edilən qaydada iqtisadi həvəsləndirmənin təmin olunması;

müvafiq icra hakimiyyəti orqanları [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və Səhiyyə Nazirliyi] ilə razılaşdırılmaqla tullantıların yerləşdirilməsi, basdırılması və emalı üçün torpaq sahələrinin ayrılması;

tullantıların aşkar edilməsi və onların təkrar emalı məqsədilə müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi;

tullantıların idarə olunmasında ətraf mühitə dəyən zərərin zərər yetirən tərəfindən ödənilməsinin təmin edilməsi;

dövlət ekoloji ekspertizasının aparılması;

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq tullantıların sərhədlərarası daşınması qaydalarının müəyyənləşdirilməsi; [xii[12]]

tullantılarla bağlı fəaliyyətdə xüsusi razılıq sisteminin tətbiq edilməsi;

tullantıların idarə olunmasına dair dövlət standartlarının, normalarının və normativlərinin işlənib hazırlanması və tətbiq edilməsi;

tullantıların əmələ gəlməsi anından tam kənarlaşdırılmasına qədər onların dövlət uçotunun və hesabatlarının aparılması [xiii[13]]

dövlət kadastrının aparılınası;

əhalinin məlumat almasının təmin olunması;

faciə və bədbəxt hadisələrin aradan qaldırılması;

tullantıların saxlanılması, istifadəsi və zərərsizləşdirilməsi ilə əlaqədar obyektlərin layihələşdirilməsi və tikintisi;

tullantılardan tam istifadə və onların əmələ gəlməsinin azaldılmasında iqtisadi, sosial və hüquqi şərtlərin təmin edilməsi;

tullantıların idarə olunmasının yerli özünüidarə orqanları tərəfindən qanunvericiliyə uyğun təmin edilməsi;

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada tullantılarla bağlı fəaliyyət nəticəsində çirklənmiş sahələrin bərpa edilməsi;

tullantıların emalı üzrə qurğuların sertifikatlaşdırılması və onların yerləşdirildiyi

yerlərin qeydiyyata alınması, həmçinin təhlükəli tullantıların idarə edilməsi üzrə tələblərin həyata keçirilməsi;

tullantıların idarə olunması ilə bağlı qaydaların (daşınma, saxlanma və s.) işlənilməsi və bu qaydaların icrasının təmin edilməsi mexanizminin hazırlanması;

hər bir təhlükəli tullantı daşıyıcısının uçotunun aparılması və hər bir təhlükəli tullantı istehsalçısının hər il əmələ gələn, emal olunan, utilizasiya edilən və saxlanılan tullantıların
növünü, miqdarını, eləcə də emal və basdırılma üsullarını göstərməklə uçotunun aparılması. xiv[14]

qanunvericilikdə nəzərdə tutulan digər vəzifələrin həyata keçirilməsi.

M a d d ə 6 .**Tullantılarla əlaqədar mülkiyyət münasibətləri**

Xammal, material, yarımfabrikat, digər əşya və ya məmulatların, habelə malların (məhsulların) istifadəsi nəticəsində əmələ gəlmiş tullantılar üzərində mülkiyyət hüququ onları əmələ gətirən mənbələrin mülkiyyətçisinə məxsusdur. Tullantılar üzərində mülkiyyət hüququ tullantıların özgəninkiləşdirilməsi haqqında alğı-satqı, mübadilə, bağışlama müqaviləsi və ya digər sövdələşmə əsasında başqa şəxsə verilə bilər.

Mülkiyyətçi tullantılardan təkrar xammal kimi istifadə edilməsini və onların təkrar emal üçün digər müəssisələrə göndərilməsini təmin etməli, istehsal prosesində və xidmət sahələrində əmələ gələn, təkrar xammal kimi istifadə olunan, təkrar emal üçün digər müəssisələrə göndərilən, ləğv edilməsi məqsədilə müvəqqəti saxlanılan və ləğv edilməyə göndərilən tullantıların uçotunu aparır və bu barədə müvafiq icra hakimiyyəti orqanlarına məlumat təqdim edir.

Təhlükəli tullantıların ləğv edilməsi mövcud qanunvericiliyə əsasən müvafiq icra hakimiyyəti orqanlarının icazəsi və nəzarəti altında həyata keçirilir.

Təhlükəli tullantıların mülkiyyətçisi təhlükəli tullantıları başqa şəxsin mülkiyyətinə keçirə, əgər həmin şəxsin təhlükəli tullantıların idarə edilməsi sahəsində fəaliyyəti həyata keçirməyə hüququ varsa, mülkiyyətçi kimi qalaraq təhlükəli tullantılara sahiblik, istifadə və ya sərəncam hüququnu ona verə bilər.

Tullantıların üzərində mülkiyyət hüququndan imtina etmək məqsədilə onların mülkiyyətçi tərəfindən atıldığı, yaxud hər hansı başqa yolla





saxlanıldığı təqdirdə mülkiyyətində, sərəncamında və ya istifadəsində atılmış tullantıların yerləşdiyi torpaq sahəsi, sututarı və ya başqa bir obyektin olduğu şəxs onların istifadəsinə başlamaqla və ya mülki qanunvericiliyə uyğun olaraq onların şəxsi mülkiyyətə çevrilməsini təsdiq edən digər hərəkətləri etməklə onları öz mülkiyyətinə çevirə bilər. xv[15]

## II f ə s i l
## TULLANTILARIN İDARƏ OLUNMASINA DAİR TƏLƏBLƏR xvi[16]

Maddə 7 . **Bina, tikili, qurğu və digər obyektlərin layihələndirilməsi, tikintisi, yenidən qurulması, konservasiyası və ləğvinə aid tələblər** xvii[17]

İstismarı zamanı tullantıların əmələ gəldiyi bina, tikili, qurğu və digər obyektlərin layihələndirilməsi, tikintisi, yenidən qurulması, konservasiyası və ləğvi zamanı fiziki və hüquqi şəxslər:

ətraf mühitin və insan sağlamlığının qorunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş ekoloji, sanitar və digər tələblərə əməl etməyə;

əmələ gələn tullantıların istifadəsi, zərərsizləşdirilməsi barədə müvafiq icra hakimiyyəti orqanları tərəfindən müsbət rəy verilmiş texniki və texnoloji sənədlərə malik olmağa borcludurlar.

Yaşayış binalarının, habelə istismarı zamanı tullantıların əmələ gəldiyi müəssisə, bina, tikili, qurğu və digər obyektlərin layihələndirilməsi zamanı tullantıların idarə olunması sahəsində müəyyən edilmiş qaydalara, normativlərə və tələblərə uyğun olaraq belə tullantıların yığılması üçün yerlər (meydanlar) nəzərdə tutulmalıdır.

M a d d ə 8 . **Tullantılarla bağlı istehsalat tələbləri**

İstehsal prosesində hüquqi və fiziki şəxslər:

ətraf mühitin qorunması üçün, müəyyən olunan standartları, normaları və keyfiyyət üzrə tələbləri nəzərə almalı;

qanunvericiliklə nəzərdə tutulmuş hallarda təhlükəli tullantılarla bağlı fəaliyyəti xüsusi razılıq əsasında həyata keçirməli; xviii[18]

az tullantılı texnologiyaları mənimsəməli;

istehsal prosesində əmələ gələn tullantıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada inventarlaşdırmalı və bu barədə, eləcə də tullantıların dövriyyəsi haqqında müvafiq icra hakimiyyəti orqanına

təchizatı və təsərrüfat-məişət ehtiyacları üçün istifadə olunan yeraltı su obyektlərinin sututar sahələrində, eyni zamanda faydalı qazıntı yataqlarının olduğu yerlərin çirklənməsinə və yeraltı işlərin aparılmasına təhlükə yarandığı hallarda faydalı qazıntı laylarının olduğu və yeraltı işlərin aparıldığı yerlərdə tullantıların basdırılması qadağandır. [xxi][21]

Tullantıların basdırılma yerləri müvafiq icra hakimiyyəti orqanlarının [Azərbaycan Respublikasının Nazirlər Kabineti] müəyyən etdiyi qaydada tullantıların basdırılma yerlərinin dövlət reyestrinə daxil edilir.

Müvafiq icra hakimiyyəti orqanları [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və yerli icra hakimiyyəti orqanları] ilə razılaşdırılan qaydada mülkiyyətçi tərəfindən basdırılma yerlərinin monitorinqi aparılmalıdır.

Tullantıların yerləşdirildiyi obyektlərin və ya sahələrin mülkiyyətçiləri bu obyektlərin və ya sahələrin istismar müddəti başa çatdıqdan sonra lazımi bərpa işləri aparmalıdırlar.

Tullantıların toplanmasını səmərəli təşkil etmək məqsədilə qiymətli komponentlər (yeyinti və toxuculuq məhsullarının tullantıları, müxtəlif metallar, kağız və s.) ayrı-ayrılıqda toplanmalıdır.

### M a d d ə 1 2 **Şəhərlərin və digər yaşayış məntəqələrinin ərazisində tullantıların idarə olunmasına dair tələblər** [xxii][22]

Zərərsizləşdirilmək məqsədilə məişət tullantıları əhali tərəfindən müəyyən olunmuş yerlərdə yerləşdirilməlidir. Müəyyən olunmayan yerlərdə bu tullantıların atılması, saxlanılması və basdırılması qadağandır.

Şəhərlərin və digər yaşayış məntəqələrinin ərazisi muntəzəm olaraq məişət tullantılarından təmizlənməlidir; [xxiii][23]

Şəhərlərin və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [xxiv][24]

Atmosfer havasına zərərli təsir göstərən istehsal və məişət tullantılarının xüsusi qurğular olmadan yandırılmasına icazə verilmir. [xxv][25]

### Maddə 12-1. **Bərk məişət tullantıları poliqonlarına dair tələblər** [xxvi][26]





Bərk məişət tullantıları poliqonlarının yerləşdirilməsi və qurulması üçün sahə şəhər və digər yaşayış məntəqələrinin və şəhərətrafı zonaların planlaşdırılması və tikilməsi üzrə təsdiq olunmuş baş planlara və ya layihələrə uyğun olaraq ayrılmalıdır. Bərk məişət tullantıları poliqonlarının yerləşdirilməsi və qurulması üçün ərazi ekoloji normalara və Azərbaycan Respublikasının insan sağlamlığı və ətraf mühitin mühafizəsi sahəsində digər qanunvericilik aktlarına cavab verməlidir.

Bərk məişət tullantıları poliqonlarında müəssisələrin tullantılarının yerləşdirilməsi ekoloji, sanitar-epidemioloji qaydaların və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq həyata keçirilir.

Onların öz-özünə alışıb yanmasının qarşısının alınması və xəbərdarlıq edilməsi üzrə tədbirlər nəzərdə tutulmalıdır.

### Maddə 12-2. **Əlvan və qara metal tullantılarının idarə olunması və onların özgəninkiləşdirilməsinə tələblər**

Hüquqi və fiziki şəxslər tərəfindən əlvan və qara metal tullantılarının idarə olunması və onların özgəninkiləşdirilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

### Maddə 12-3. **Təhlükəli tullantıların idarə olunmasına dair tələblər**

Ətraf mühitə və insan sağlamlığına zərərli təsirin təhlükəlilik dərəcəsindən asılı olaraq təhlükəli tullantılar müvafiq icra hakimiyyəti orqanlarının tullantıların idarə olunması sahəsində müəyyən etdikləri meyarlara uyğun olaraq təhlükəlilik dərəcələrinə bölünürlər.

Fəaliyyəti prosesində təhlükəli tullantıların əmələ gəldiyi fiziki və hüquqi şəxslər bu tullantıların konkret hansı təhlükəlilik dərəcəsinə aid olduğunu tullantıların idarə olunması sahəsində müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş qaydada müəyyən etməlidirlər.

Təhlükəli tullantılar üçün pasport tərtib edilməlidir. Təhlükəli tullantıların pasportu təhlükəli tullantıların tərkibi və xüsusiyyətləri barədə məlumatlar, onların təhlükəlilik dərəcələrinin qiymətləndirilməsi əsasında tərtib olunur. Pasportlaşdırma qaydasını

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Fiziki və hüquqi şəxslərin təhlükəli tullantıların əmələ gəlməsinə şərait yaradan fəaliyyəti ətraf mühit və insan sağlamlığı baxımından

tullantıların təhlükəsiz idarə olunmasını təmin etmək üçün texniki və ya digər imkanlar olmadıqda, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhdudlaşdırıla və ya qadağan edilə bilər.

Maddə 12-4. **Tibbi tullantıların idarə olunmasına dair tələblər**

Tibbi tullantıların idarə olunmasına dair tələblər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Müalicə-profilaktik və baytarlıq müəssisələrinin fəaliyyət profilindən asılı olmayaraq tibbi tullantılar toksiki və yoluxdurucu təhlükəlilik növünə görə qruplaşdırılır. Tibbi tullantıların hansı təhlükəlilik növünə aid edilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Maddə 12-5. **Neft, qaz və elektroenergetika sənayesində tullantıların idarə olunması**

Neft, qaz və elektroenergetika sənayesində tullantıların idarə olunması müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən normativ hüquqi aktla tənzimlənir.

Maddə 12-6. **Təhlükəli istehsalat və məişət tullantılarının, habelə təhlükəli tibbi tullantıların idarə olunması sahəsində işləmələrinə icazə verilmiş şəxslərin peşə hazırlığına dair tələblər**

Təhlükəli istehsalat və məişət tullantılarının, habelə təhlükəli tibbi tullantıların idarə olunması sahəsində işləmələrinə icazə verilmiş şəxslər (işçilər) təhlükəli tullantılarla işləmək hüququ barədə şəhadətnamələrlə (sertifikatlarla) təsdiqlənən peşə hazırlığına malik olmalıdırlar.

İşçilərin təhlükəli tullantılarla, habelə təhlükəli və son dərəcə təhlükəli tibbi tullantılarla işə buraxılmasına görə məsuliyyəti təşkilatın müvafiq vəzifəli şəxsi daşıyır.

**M a d d ə 1 3 . Tullantıların daşınmasına tələblər**

Tullantıların müvafiq növ nəqliyyat vasitəsində daşınması qaydası, yükləmə və boşaltma işlərinin yerinə yetirilməsinə və ekoloji təhlükəsizliyin təmin olunmasına tələblər (norma və qaydalar) müvafiq icra hakimiyyəti





orqanı [Azərbaycan Respublikasının Nazirlər Kabineti] tərəfindən müəyyən edilir.

Nəqliyyat vasitəsinə yükləndiyi andan onu qəbul edən hüquqi və fiziki şəxsə çatdırılana qədər tullantının daşınmasını həyata keçirənlər ətraf mühitin və insanların sağlamlığının təhlükəsizliyinə görə məsuliyyət daşıyırlar.

Təhlükəli istehsalat və məişət tullantılarının, habelə təhlükəli tibbi tullantıların nəqliyyat vasitələrində daşınması qaydası bu sahədə mövcud olan dövlət standartları və normativləri əsasında müəyyən olunur.

Təhlükəli tullantıların daşınması aşağıdakı şərtlərlə həyata keçirilməlidir: təhlükəli tullantıların daşınmasına dair bildiriş; təhlükəli tullantıların pasportunun olması;

xüsusi avadanlıqlar və işarələrlə təchiz olunmuş nəqliyyat vasitəsinin olması;

təhlükəli tullantıların nəqliyyat vasitəsində daşınması ilə bağlı təhlükəsizlik tələblərinə əməl olunması;

təhlükəli tullantıların miqdarını, onların daşınma məqsədini və təyinat yerini göstərən sənədlərin olması. [xxvii][27]

Maddə 14. **Tullantıların sərhədlərarası və tranzit Daşınması**

Təhlükəsiz emalı mümkün olmayan, habelə tranzit daşınmaq, basdırılmaq və zərərsizləşdirilmək məqsədilə bu tullantıların Azərbaycan Respublikasına gətirilməsi qadağandır.

Tullantıların istifadə edilmək məqsədilə Azərbaycan Respublikasının ərazisinə idxalı,

habelə ixracı və tranzit daşınmaları qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətli orqan tərəfindən verilən icazə əsasında həyata keçirilir.

Təhlükəli tullantıların sərhədlərarası daşınması qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. [xxviii][28]

## I I I f ə s i l
## TULLANTILARLA BAĞLI FƏALİYYƏTƏ NƏZARƏT

**M a d d ə 1 5 . Tullantılarla bağlı fəaliyyətə dövlət nəzarəti**

Tullantılarla bağlı fəaliyyətə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi] tərəfindən həyata keçirilir.

Tullantılarla bağlı fəaliyyətə dövlət nəzarətinə:

hüquqi və fiziki şəxslər tərəfindən qanunvericiliyin tələblərinə əməl olunması;

təqsirkar hüquqi və fiziki şəxslərin qanunvericilikdə müəyyən olunan qaydada məsuliyyətə cəlb olunması;

qanunvericiliyin tələblərinin pozulması nəticəsində insan sağlamlığına və ətraf mühitə dəyən zərərin ödənilməsinə görə iddia qaldırılması;

mülkiyyətçilər tərəfindən tullantılarla bağlı uçot və hesabatın düzgünlüyü;

sanitariya, gigiyena, əksepidemik və təbiəti mühafizə tədbirlərinin yerinə yetirilməsinə,

gigiyena və ekoloji normativlərə əməl olunması;

baş vermiş fəlakət və qəzaların nəticələrinin aradan qaldırılması tədbirlərinin həyata keçirilməsi;

mövcud istehsal proseslərinin tullantılarla əlaqədar təhlili, tullantıların həcminin və təhlükəlilik dərəcəsinin azaldılması imkanlarının araşdırılması;

əhalinin tullantılara dair informasiya almaq hüququna əməl olunması;

əhalinin sağlamlığı və ətraf mühit üçün potensial təhlükə yaradan fəaliyyətin məhdudlaşdırılması, dayandırılması və ona xitam verilməsi barədə qərar qəbul edilməsi;

tullantıların idxalı, ixracı və tranzit daşınmasına nəzarət daxildir.

Maddə 16. **Tullantılarla bağlı istehsalat nəzarəti**

Tullantılarla bağlı təsərrüfat fəaliyyətini həyata keçirən müəssisə və təşkilatlar bu sahədə istehsalat nəzarətini təşkil etməlidirlər.

İstehsalat nəzarətinin məqsədi ekoloji, sanitariya və digər tələblərin yerinə yetirilməsini yoxlamaqdan ibarətdir.

İstehsalat nəzarətinin təşkili qaydaları müvafiq qanunvericiliyə əsasən müəssisə və təşkilatlar tərəfindən müəyyənləşdirilir.

Maddə 17. **Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarət**





Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarət qanunvericilikdə müəyyən olunan qaydada ictimai birliklər, əmək kollektivləri və vətəndaşlar (əhali) tərəfindən həyata keçirilir.

Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarətin məqsədi dövlət orqanları və bələdiyyələr, eləcə də hüquqi və fiziki şəxslər tərəfindən bu Qanunun tələblərinin yerinə yetirilməsini araşdırmaqdan ibarətdir.

## IV fəsil
## TULLANTILARLA BAĞLI İQTİSADİ TƏNZİMLƏNMƏ

Maddə 18. **Tullantılarla bağlı fəaliyyət sahəsində iqtisadi tənzimlənmə**

Tullantılarla bağlı fəaliyyət sahəsində iqtisadi tənzimlənmə onun həcmi, təhlükəlilik dərəcəsi və yerləşdirilmə normativləri nəzərə alınmaqla tullantının toplanmasına, yerləşdirilməsinə, istifadəsinə və zərərsizləşdirilməsinə görə haqq ödənilməsi prinsipinə əsaslanır.

Tullantıların yığılması (toplanması), yerləşdirilməsi, istifadəsi və zərərsizləşdirilməsinə görə haqq tullantıların həcminin (kütləsinin), növünün və digər xüsusiyyətlərinin nəzərə alınması ilə müəyyən edilir və çirkləndirici tərəfindən ödənilir. [xxix][29]

Hüquqi və fiziki şəxslərin ödəmələrindən əldə olunan vəsait təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinə sərf olunur.

Tullantılarla əlaqədar iqtisadi stimullaşdırma formaları və onun tətbiqi mexanizmi, habelə tullantıların toplanmasına, yerləşdirilməsinə, istifadəsinə və zərərsizləşdirilməsinə görə haqq ödənilməsi, onun həcmi və bölüşdürülməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Nazirlər Kabineti] tərəfindən müəyyən edilir.

Maddə 19. **Tullantılarla bağlı normativlər**

Tullantıların ətraf mühitə və insan sağlamlığına təsir həddini nizamlayan normativlər müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Nazirlər Kabineti] tərəfindən müəyyən edilir.

İdxal, ixrac və alqı-satqı obyekti olan tullantılar qanunvericilikdə müəyyən olunan qaydada sertifikatlaşdırılır.

Maddə 20. **Tullantılarla bağlı dövlət uçotu və hesabat**

Hüquqi və fiziki şəxslər tullantıların əmələ gəlməsinin, istifadəsinin, yerləşdirilməsinin, başqasına verilməsinin və ya satılmasının müvafiq icra

hakimiyyəti orqanının [Azərbaycan Respublikasının Nazirlər Kabineti] müəyyən etdiyi qaydada və müddətdə ilkin uçotunu aparır, müvafiq dövlət orqanına hesabat təqdim edirlər.

Hüquqi və fiziki şəxslər tullantıların uçotu ilə bağlı informasiyanın qanunvericilikdə müəyyən edilən müddət ərzində saxlanılmasını təmin edirlər.

Tullantılarla bağlı dövlət uçotu və hesabatı vahid sistem üzrə hazırlanır və aparılır.

M a d d ə 2 1 . **Tullantıların dövlət kadastrı**

Tullantıların dövlət kadastrına onların uçotuna dair sistemləşdirilən məlumatlar daxil edilir.

Tullantıların dövlət kadastrı tullantıların siniflərə (dərəcələrə) bölünmə sistemlərini, onların yerləşdirilməsi obyektlərinin siyahısını, bank məlumatlarını və tullantıların emal texnologiyalarını əks etdirir.

Tullantıların dövlət kadastrının aparılması qaydası və onun məzmunu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

V f ə s i l
**YEKUN MÜDDƏALARI**

M a d d ə 2 2 . **Beynəlxalq əməkdaşlıq**

Tullantılarla bağlı fəaliyyət sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həyata keçirilir.

M a d d ə 2 3 . **Mübahisələrin həll edilməsi**

Tullantılarla bağlı mübahisələr qanunvericilikdə müəyyən edilən qaydada müvafiq icra hakimiyyəti orqanları [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və yerli icra hakimiyyəti orqanları] və məhkəmələr tərəfindən həll edilir.

M a d d ə 2 4 . **Tullantılar haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**





Tullantılar haqqında qanunvericiliyin tələblərini pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq intizam, inzibati, cinayət və mülki-hüquqi məsuliyyət daşıyırlar.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**
**Bakı şəhəri, 30 iyun 1998-ci il**
**№ 514-IQ**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 12 fevral 2002-ci il tarixli 262-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 4, maddə 165)**
2. 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709)**
3. 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938)**
4. 2 iyun 2008-ci il tarixli 615-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 460)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

i[1] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə Qanunun preambulası aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu Qanun Azərbaycan Respublikasında insan fəaliyyəti nəticəsində əşya və maddə şəklində əmələ gələn istehsalat və məişət tullantılarından (bundan sonra — tullantılar) ətraf mühitin qorunması, onların təhlükəli təsirinin azaldılması, təbiətdə ekoloji tarazlığın təmin olunması, təkrar xammal kimi tullantıların istifadəsi sahəsində dövlət siyasətini müəyyən edir.~~

~~zərərli qazlar, çirkab suları və radioaktiv tullantılar istisna olmaqla, tullantılarla bağlı münasibətləri tənzimləyir.~~

ii[2] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 1-ci maddəsinin ikinci, dördüncü və altıncı abzaslar yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**İstehsalat tullantıları** — istehsal prosesində, kənd təsərrüfatında, xidmət sahələrində əmələ gələn və əmələ gəlmə yerlərində istifadəsi mümkün olmayan, habelə texnoloji prosesin gedişində ilkin istehlak xüsusiyyətlərini tam və ya qismən itirən maddələr, əşyalar və materiallar;~~

~~**təhlükəli tullantılar** — tərkibində təhlükəli xüsusiyyətlərə malik toksiki, infeksion, partlayıcı, yüksək reaksiya və yanma qabiliyyətli maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılar;~~

~~**təkrar xammal** — məhsul və enerji istehsalı, xidmətlər göstərilməsi zamanı təkrar istifadəyə yararlı və bu məqsədlə toplanan (hazırlanan) tullantılar;~~

iii[3] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 1-ci maddəsinə on birinci iyirmi doqquzuncu abzaslar əlavə edilmişdir.

iv[4] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 2-ci maddəsinin adında və mətnində "Tullantılar haqqında" sözləri "Tullantıların idarə olunması sahəsində" sözləri ilə əvəz edilmişdir.

v[5] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 2-ci maddəyə ikinci hissə əlavə edilmişdir.

vi[6] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709) ilə 3-cü maddədə "**tullantılarla bağlı**" sözləri "**tullantıların idarə olunması sahəsində**" sözləri ilə əvəz edilmişdir.





vii[7] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 4-cü maddənin adında və birinci abzasda "**Tullantılarla bağlı**" sözləri "**Tullantıların idarə olunması sahəsində**" sözləri ilə, dördüncü abzasda "**tullantılarla bağlı**" sözləri "**tullantıların idarə olunması sahəsində**" sözləri ilə, on birinci abzasda "**tullantılarla bağlı fəaliyyət göstərən**" sözləri "**tullantıların idarə olunması sahəsində çalışan**" sözləri ilə əvəz edilmişdir.

viii[8] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 4-cü maddəsinin beşinci abzas çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~az tullantılı texnologiyanın yaradılması və tətbiqi;~~

ix[9] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 4-cü maddəyə beşinci yeddinci abzaslar əlavə edilsin, altıncı-on ikinci abzaslar müvafiq olaraq səkkizinci-on dördüncü abzaslar hesab edilmişdir.

x[10] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-çi il, № 7, maddə 709**) ilə 4-cü maddəsinin səkkizinci abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~tullantıların təsərrüfat dövriyyəsinə daxil edilməsi məqsədilə iqtisadi və digər stimullaşdırma mexanizmlərindən istifadə olunması;~~

xi[11] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 5-ci maddənin adında və birinci abzasda "**Tullantılarla bağlı fəaliyyət**" sözləri "**Tullantıların idarə olunması üzrə»** sözləri ilə, ikinci abzasda "**tullantılarla bağlı**" sözləri "**tullantıların idarə olunması sahəsində**" sözləri ilə, yeddinci abzasda "**tullantılarla bağlı fəaliyyətdə**" sözləri "**tullantıların idarə olunmasında**" sözləri ilə, onuncu abzasda "**tullantılarla bağlı fəaliyyətdə**" sözləri "tullantıların idarə olunmasına" sözləri ilə, on səkkizinci abzasda

Əvvəlki redaksiyada deyilirdi:

~~yararsız tullantıların basdırıldığı və ya saxlanıldığı yerlərdə onların ətraf mühitdən təcrid olunması və sonradan istifadə olunma imkanlarının müəyyən edilməsi;~~

~~əmələ gəlmə yerlərində və ya emal müəssisələrində tullantıların təkrar xammal kimi istifadə olunmasının təşkil edilməsi;~~

~~tullantıların həcminin azaldılmasının, emalının və zərərsizləşdirilməsinin bioloji, fiziki-kimyəvi,~~

~~mexaniki-texniki, termik və digər üsullarla həyata keçirilməsi~~

xxi[21] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 11-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şəhərlərin və digər yaşayış məntəqələrinin ərazisində, kurort, müalicə-sağlamlıq, meşə və rekreasiya zonalarında, yeraltı suların, təsərrüfat və içməli su tutarlarının olduğu ərazilərdə, eləcə də faydalı qazıntılar olan və ya dağ-mədən işləri aparılan zonalarda tullantıların basdırılması qadağandır.~~

2 iyun 2008-ci il tarixli 615-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 460**) ilə 11-ci maddəsinin 3-cü hissəsində **"və rekreasiya"** sözləri **", turizm və rekreasiya"** sözləri ilə əvəz edilmişdir.

xxii[22] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709) ilə 12-ci maddənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Yaşayış məntəqələrinin məişət tullantılarından təmizlənməsinə tələblər~~

xxiii[23] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 12-ci maddənin ikinci hissəsinin əvvəlindəki **"Yaşayış"** sözü **"Şəhərlərin və digər yaşayış"** sözləri ilə əvəz edilmişdir.

xxiv[24] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik**





**Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 12-ci maddənin üçüncü hissəsinin əvvəlindəki **"Yaşayış"** sözü **"Şəhərlərin və digər yaşayış"** sözləri ilə əvəz edilmişdir.

xxv[25] 12 fevral 2002-ci il tarixli 262-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 4, maddə 165**) ilə 12-ci maddəyə dördüncü hissə əlavə edilmişdir.

xxvi[26] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 12-1, 12-2, 12-3, 12-4, 12-5 və 12-6-cı maddələr əlavə edilmişdir.

xxvii[27] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 13-cü maddənin üçüncü və dördüncü hissələri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Təhlükəli tullantılar pasportlaşdırılmaqla yalnız xüsusi nəqliyyat vasitələrində daşınmalıdır.~~

~~Tullantıların pasportu onların kəmiyyətini və təsir xüsusiyyətlərini təsdiqləyən sənəddir.~~

~~Tullantıların pasportlaşdırılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.~~

xxviii[28] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 709**) ilə 14-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

M a d d ə 1 4 . Tullantıların idxalı, ixracı və tranzit daşınması

~~Tullantıların idxalı, ixracı və tranzit daşınması Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən qaydada həyata keçirilir. Təhlükəsiz emalı mümkün olmayan, habelə tranzit daşınmaq, basdırılmaq və zərərsizləşdirilmək məqsədilə bu tullantıların Azərbaycan Respublikasına gətirilməsi qadağandır.~~

xxix[29] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2007-ci il, № 7, maddə 709)** ilə 18-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Tullantıların toplanması, yerləşdirilməsi, istifadəsi və zərərsizləşdirilməsi üçün ödəmələr, tullantının həcmi (kütləsi), növü və digər xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilir.~~



# BALAXANI: DÜNƏN VƏ BU GÜN

*Mətini yığdı:* *Gülər Çingizqızı*
*Texniki redaktor:* *Aynur Əsgərli*
*Dizayner:* *Emil İsbatlı*

Çapa imzalanmışdır: 02.08.2012
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 8 ç.v.
Sifariş: 85
Sayı: 700

Kitab "ADİLOĞLU" nəşriyyatında
nəşrə hazırlanmış və
ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh. Şərifzadə küç., 202*
*Tel.: 433 00 43; (050) 593 27 77*
*Web: www.adiloglu.az;*
*E-mail: adiloglu2000@gmail.com*